Hər kəs ədalətli olacaq

www.adalet.az

# ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | İctimai-siyasi, hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 40 (6133) 24 oktyabr 2025-ci il | Qiyməti 40 qəpik

## İlham Əliyev: "Azərbaycan ilə Ermənistan arasında sülh dövrü başlayıb"



**Azərbaycan ilə Ermənistan arasında sülh dövrü başlayıb.**

**Adalet.az xəbər verir ki, bu sözləri Azərbaycan-Qazaxıstan Ali Dövlətlərarası Şuranın ikinci iclasında çıxış edən Prezident İlham Əliyev deyib. Dövlətimizin başçısı qeyd edib: "Bu gün yeni mərhələ başlayır, hətta deyərdim ki, yeni dövr başlayıb - Azərbaycan ilə Ermənistan arasında sülh dövrü. Son hərbi toqquşmalardan cəmi iki il keçməmiş sülh sazişinin paraflanması hər iki ölkənin kifayət qədər yüksək səviyyədə siyasi iradə nümayiş etdirməsindən xəbər verir".**

**O qeyd edib ki, ABŞ Prezidenti Donald Trampın Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normalaşdırılmasındakı rolu ən yüksək qiymətə layiqdir.**

## Hikmət Hacıyev: "Azərbaycan-Mərkəzi Asiya münasibətləri "6" formatını alıb"



**"Son aylarda Prezident İlham Əliyev Türkmənistan, Tacikistan və Qazaxıstana səfərlər edib. Hazırda Qazaxıstana dövlət səfərindədir".**

Adalet.az xəbər verir ki, bunu Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev "X" hesabında bildirib. Onun sözlərinə görə, əvvəllər Azərbaycanla Mərkəzi Asiya ölkələrinin münasibətləri "5+1" formulu ilə təsvir edilirdisə, bu gün həmin konsepsiya riyazi ifadədən çıxaraq siyasi və tarixi reallığa çevrilib. "Artıq bu münasibətlər vahid "6-lıq" modelini formalaşdırır. Bu, ortaq tarix, mədəniyyət, ənənə, etnik və dil yaxınlığına əsaslanan inteqrasiyanın dərinləşməsini və ortaq taleyi əks etdirən geosiyasi vahidliyin təzahürüdür", - Hikmət Hacıyev qeyd edib.

## Media subyektləri daha 3 il vergiyə cəlb olunmayacaq

**Azərbaycanda media subyektləri üçün vergi güzəştinin müddəti daha 3 il uzadılır. Adalet.az xəbər verir ki, bu, "Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi haqqında" qanun layihəsində qeyd olunub.**

Qeyd edək ki, media subyektləri üçün 3 illik vergi güzəştinin müddəti 2026-cı il yanvarın 1-də başa çatırdı. Beləliklə, bu müddət daha 3 il uzadılır.

Əlavə edək ki, 2026-cı ildə gələn il televiziya, radio və nəşriyyat sahəsinə 78 721 874 (78 milyon 721 min 874 manat) ayrılması proqnozlaşdırılır.

## XEYRƏDDİN QOCA RAMİZ MEHDİYEVƏ NƏ DEDİ?



Xeyrəddin Qoca İstanbulda baş konsul işləyərkən gəlir Ramiz Mehdiyevin yanına. Deyir ki, Ramiz müəllim, İstanbulun havası nə mənə, nə də ailəmə düşmür, işdən çıxmaq istəyirəm.

Ramiz Mehdiyev:

**- Sən nə danışırsan, Azərbaycanın İstanbulda baş konsulu olmaq şərəfdi. Sən belə bir şərəfi daşıyırsan.**

Xeyrəddin Qoca:

**- Onda Ramiz müəllim, gəl belə edək. Sən get İstanbula baş konsul, o şərəf sənə qismət olsun, mən də gəlim oturum sənin yerində.**

## "Zəngəzur dəhlizi və BTQ bir-birini tamamlayacaq"

**Zəngəzur dəhlizi və Bakı-Tiflis-Qars dəmir yolu bir-birinə alternativ olmayacaq, əksinə, bir-birini tamamlayacaq.**



Bunu Türkiyənin nəqliyyat və infrastruktur nazirinin müavini Osman Boyraz deyib. O qeyd edib ki, Türkiyə Orta Dəhliz potensialının tam reallaşdırılması istiqamətində səylərini davam etdirəcək.

## *Özəl klinikalarda yoxlama*

**Cari il sentyabr ayının ortalarına qədər 149 özəl tibb müəssisəsində plandankənar, 85 özəl tibb müəssisəsində isə planlı yoxlamalar aparılıb.**

Adalet.az xəbər verir ki, bu barədə Səhiyyə Nazirliyinin Analitik Ekspertiza Mərkəzindən (AEM) bildirilib.

Əlavə edilib ki, qeyd olunan dövrdə özəl tibb müəssisələrində həyata keçirilən yoxlamalar nəticəsində 45 işçinin sertifikasiya şəhadətnaməsi olmadan fəaliyyət göstərdiyi aşkarlanıb və bununla əlaqədar İnzibati Xətalar Məcəlləsinin 215.4-cü maddəsi ilə müvafiq protokollar tərtib edilib. AEM vətəndaşlara tövsiyə edir ki, özəl tibb müəssisələrində və aptek təşkilatlarında qanunsuz fəaliyyətlə və ya şübhəli hallarla rastlaşdıqda, mərkəzin əlaqə nömrələri vasitəsilə onlara məlumat versinlər. "Daxil olan bütün müraciətlər qanunvericiliyə uyğun şəkildə araşdırılır, zərurət olduqda həmin müəssisələrdə plandankənar yoxlamalar həyata keçirilir" - deyə AEM-dən bildirilib.

**Aqil ABBAS**
*aqilabbas@rambler.ru*

## "QARABAĞ"IN "SOSİALİST ÖHDƏLİYİ"



***Sovet hökuməti vaxtı bütün sahələr üzrə, xüsusilə də pambıq yığımında bir Sosialist öhdəliyi vardı, təkcə futboldan başqa. Yəni neftçilər öhdəlik götürürdü, amma "Neftçi" komandası yox.***

***Pambıq yığımında da ən böyük öhdəlik Bərdə rayonunda idi. Plan 100 min ton, sosialist öhdəliyi 120 min ton.***

***Rüstəm Səfərəliyev Bərdənin katibi olarkən bu öhdəliyi yerinə yetirmişdi, dövlətə 120 min ton pambıq vermişdi. İclasda Rüstəm dayıya söz atmışdılar ki, "pripiska" eləmisən. O da hirslənib demişdi:***

***- Yaxşı, deyək ki, bunun iyirmi min tonunu pripiska eləmişəm, yüz min ton ki verməşəm.***

**Bax:səh-2**

## GÜNÜN LƏTİFƏSİ

Pasiyent həkimə danışır ki, qrup şəklində intihara hazırlaşır.

O, ailəsini də özü ilə o dünyaya aparacaq. Çünki yaxın vaxtlarda hamı işgəncə ilə öləcək və dirilər ölülərə qibtə edəcək.

Həkim səbrlə xəstəyə izah edir ki, həyat o qədər də pis deyil, Günəş işıq saçır, quşlar oxuyur. Ölmək lazım deyil. Xəstə onu dinləyib sonra deyir:

**- Həkim, sən yaxşı adamsan. Səni də özümlə aparacam.**

## Azərbaycan Konstitusiyasının 30 illiyi ilə əlaqədar yubiley medalı təsis edilib



**"Azərbaycan Respublikası Konstitusiyasının 30 illiyi (1995-2025)" yubiley medalı təsis edilib. Bununla bağlı Prezident İlham Əliyev "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" qanunda dəyişikliyi təsdiqləyib.**

"Azərbaycan Respublikası Konstitusiyasının 30 illiyi (1995-2025)" Azərbaycan Respublikasının yubiley medalı haqqında Əsasnamə" və medalın təsviri təsdiq edilib. Dövlət başçısı müvafiqin Qanunun icrası ilə bağlı Fərman imzalayıb. Fərmana əsasən, "Azərbaycan Respublikası Konstitusiyasının 30 illiyi (1995-2025)" Azərbaycan Respublikasının yubiley medalı haqqında Əsasnamə"nin 2-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir, həmin Əsasnamənin 2-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi nəzərdə tutulur, "Azərbaycan Respublikası Konstitusiyasının 30 illiyi (1995-2025)" Azərbaycan Respublikasının yubiley medalı ilə təltif etmək səlahiyyəti Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədrinə verilir.

## Prezident İlham Əliyev Viktor Orbanı təbrik edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Macarıstanın Baş naziri Viktor Orbana təbrik məktubu ünvanlayıb.**

Məktubda deyilir:

"Hörmətli cənab Baş nazir,

Macarıstanın milli bayramı münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edir, ən xoş arzularımı çatdırıram. Dost ölkə və strateji tərəfdaşımız olan Macarıstanla dövlətlərarası əlaqələrimizin bugünkü səviyyəsi məmnunluq doğurur. Şübhəsiz ki, qarşılıqlı səfərlər, mütəzəm təmaslar, sıx əməkdaşlığımız bu münasibətlərin daha sürətlə inkişafına və möhkəmlənməsinə şərait yaradır.

Hazırda ikitərəfli gündəliyimizdə duran məsələlərin əhatə dairəsi çox genişdir. Sevindirici haldır ki, Azərbaycan ilə Macarıstan arasında əməkdaşlıq gündən-günə dərinləşir, enerji sahəsində səmərəli tərəfdaşlıq münasibətləri yüksələn xətt üzrə inkişaf edir. Siyasi dialoqumuzun intensivliyi bütün sahələrdə qarşılıqlı fəaliyyətimizin yeni məzmunla zənginləşməsində mühüm rol oynayır. Beynəlxalq təşkilatlar, xüsusilə də Türk Dövlətləri Təşkilatı çərçivəsində qarşılıqlı fəaliyyətimizi ayrıca qeyd etmək istərdim. Bu il ərzində mənim Budapeştdə, Sizin isə Qəbələdə təşkilatın zirvə görüşlərində iştirakımız xalqlarımız və dövlətlərimiz arasında birliyin və həmrəyliyin daha da möhkəmlənməsinə, çoxtərəfli müstəvidə əlaqələrimizin genişlənməsinə verdiyimiz əhəmiyyətin göstəricisidir. Əminəm ki, Azərbaycan-Macarıstan dostluq münasibətlərinin və strateji tərəfdaşlığının xalqlarımızın iradəsinə uyğun olaraq daha da gücləndirilməsi və dərinləşdirilməsi yolunda birgə səylərimizi bundan sonra da müvəffəqiyyətlə davam etdirəcəyik. Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dövləti fəaliyyətinizdə uğurlar, dost Macarıstan xalqına daim əmin-amanlıq və rifah arzulayıram".

## Prezident Yaponiyanın yeni Baş nazirinə təbrik məktubu ünvanlayıb

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Yaponiyanın Baş naziri xanım Sanae Takaiçiyə təbrik məktubu ünvanlayıb.**

Məktubda deyilir:

"Hörmətli xanım Baş nazir,

Yaponiyanın Baş naziri vəzifəsinə seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Biz Azərbaycan-Yaponiya münasibətlərinin hərtərəfli inkişafına xüsusi əhəmiyyət veririk. Hazırda iki ölkə arasında əməkdaşlığın müxtəlif sahələrdə yeni məzmunla zənginləşməsi üçün yaxşı imkanlar mövcuddur.

İnanıram ki, xalqlarımızın mənafelərinə uyğun olaraq dövlətlərarası əlaqələrimizin daha da möhkəmləndirilməsi, mövcud potensialdan istifadə edərək ikitərəfli və çoxtərəfli qaydada qarşılıqlı faydalı əməkdaşlığımızın bundan sonra da genişləndirilməsi yolunda birgə səylər göstərəcəyik.

Bir daha Sizə təbriklərimi yetirir, möhkəm cansağlığı, xoşbəxtlik, dost Yaponiya xalqının rifahı naminə qarşıdakı məsul dövləti fəaliyyətinizdə uğurlar arzulayıram".

## Sahibə Qafarova Parlamentlərarası İttifaqın 151-ci Assambleyasında çıxış edib

**Milli Məclisin sədri Sahibə Qafarova oktyabrın 20-də İsveçrənin Cenevrə şəhərində Parlamentlərarası İttifaqın (PAİ) 151-ci Assambleyasında keçirilən "Böhran zamanı humanitar normaların qorunması və humanitar fəaliyyətin dəstəklənməsi" mövzusunda müzakirələrdə çıxış edib.**




Bu barədə Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən məlumat verilib.

Çıxışında bu gün dünyada münaqişələrin və təbii fəlakətlərin sayının artmaqda davam etdiyini söyləyən spiker Sahibə Qafarova bunun özü ilə yeni humanitar çağırışlar - zorakılıq, köçkünlük, böhranlar və aclıq gətirdiyini bildirib. Birləşmiş Millətlər Təşkilatının Baş katibinin bu yaxınlarda qlobal humanitar fəaliyyətin iflasa uğramaq ərəfəsində olması ilə bağlı xəbərdarlıq etdiyini xatırladan Milli Məclisin sədrinin sözlərinə görə, bu, vəziyyətin nə qədər ciddi olduğunu və birgə tədbirlərə nə qədər ehtiyac duyulduğunu açıq şəkildə göstərir. Tədbir iştirakçılarına bu ilin avqustunda Vaşinqtonda Azərbaycan və Ermənistanın Birgə Bəyannamə imzalaması haqqında məlumat verən spiker Sahibə Qafarova deyib ki, tərəflər sülh sazişini də parafladılar ki, bu da onilliklərlə davam edən Ermənistan-Azərbaycan münaqişəsinə son qoyulması istiqamətində tarixi addımdır. Milli Məclisin sədri ümidvar olduğunu bildirib ki, bu əlamətdar hadisə Cənubi Qafqazda daimi sülh, sabitlik və davamlı inkişafın yeni səhifəsini açacaq. Bu isə, hətta uzun müddətdir davam edən münaqişələrin də dialoq və siyasi iradə yolu ilə həll oluna biləcəyinə dair əminlik yaradır. Milli Məclisin sədri, assambleyada daha bir humanitar çağırış kimi itkin düşmüş şəxslərin taleyi ilə bağlı məsələyə də diqqət çəkib. O vurğulayıb ki, münaqişə illərində 4000-ə yaxın azərbaycanlı itkin düşüb və onların ailələri hələ də cavab gözləyir. Bu, təkcə milli ağrı deyil, həm də bir çox ölkələrin paylaşdığı universal humanitar narahatlıqdır.

Çıxışının sonunda Milli Məclisin sədri deyib ki, vaxtilə humanitar yardım alan Azərbaycan bu gün donor ölkə kimi çıxış edir, BMT-ni və qlobal humanitar səyləri dəstəkləyir.

**NİCAT**

## "Avropa üçün Azərbaycan yalnız enerji tədarükçüsü deyil..."

**"Avropa İttifaqı -Azərbaycan əlaqələri keyfiyyətcə yeni mərhələyə keçir. Azərbaycan xarici siyasətdə son illərdə mühüm uğurlar əldə edib. Xüsusilə, İkinci Qarabağ müharibəsindən sonra Avropa İttifaqı və onun təsisatları ilə münasibətlərdə yaranmış gərginlik mərhələsi tədricən aradan qalxmaqdadır. Avropa Şurası və Avropa Parlamentinin Azərbaycana qarşı qəbul etdiyi birtərəfli qətnamələr, eləcə də Azərbaycan nümayəndə heyətinin mandatının təsdiqlənməməsi ikitərəfli münasibətlərdə böhran vəziyyətinə gətirib".**

Adalet.az xəbər verir ki, bunu politoloq Məhəmməd Əsədullazadə deyib. O bildirib ki, lakin son aylarda baş verən diplomatik fəallıq, xüsusən Prezident İlham Əliyevin Avropa Siyasi Birliyinin Kopenhagen sammitində iştirakı və Avropa liderləri ilə keçirdiyi görüşlər nəticəsində bu böhran tədricən arxada qalır: "Fransa ilə uzunmüddətli gərgin münasibətlər Kopenhagendə iki ölkə prezidentlərinin nümayəndə heyətləri səviyyəsində apardığı görüşlə yumşalma istiqamətinə yönəlib. Eyni zamanda, İtaliyanın Azərbaycanla bağlı məsələlərdə dəstəyi, bu yaxınlaşmanı gücləndirir. Avropa İttifaqı Cənubi Qafqazda Azərbaycanın formalaşdırdığı yeni geosiyasi nizamdan iqtisadi və nəqliyyat imkanları üçün faydalanmaq niyyətindədir. Xüsusilə, Çinlə quru nəqliyyat əlaqələrinin, eləcə də Mərkəzi Asiyanın enerji resurslarının Avropaya daşınmasının əsas tranzit xətti kimi Azərbaycan ön plana çıxır. Digər tərəfdən, ABŞ prezidenti Donald Trampın Cənubi Qafqaza artan diqqəti və Orta Dəhlizin əsas hissəsi olan Zəngəzur dəhlizi - TRIP marşrutunun elan edilməsi Avropanı regionda daha fəal siyasət yürütməyə vadar edib". Politoloq deyib ki, bu proses fonunda Avropa İttifaqının Azərbaycanla münasibətlərdə yeni mərhələyə keçidi real görünür: "Gələn ilin yanvar ayında Azərbaycanın Avropa Şurasında səsvermə hüququnun bərpa olunması mümkündür. Artıq Azərbaycanla -Ermənistan arasında sülh müqaviləsinin mətni paraflanıb. Avropa İttifaqı üçün bu, regional sabitliyə və enerji təhlükəsizliyinə xidmət edir, Azərbaycan üçün isə Avropa ilə siyasi və iqtisadi əlaqələrin dərinləşməsi baxımından əhəmiyyətlidir. Azərbaycan-Avropa münasibətləri qarşılıqlı maraqlar üzərində formalaşan və keyfiyyətcə yeni mərhələyə qədəm qoyan strateji əməkdaşlıq xəttinə çevrilir. Bu vəziyyət Azərbaycanın çoxvektorlu xarici siyasətinin effektivliyini nümayiş etdirir. Avropa üçün Azərbaycan yalnız enerji tədarükçüsü deyil, həm də Cənubi Qafqazda sabitlik yaradan güc mərkəzidir".

**Vasif ƏLİHÜSEYN**

*Aqil ABBAS*

## "QARABAĞ"IN "SOSİALİST ÖHDƏLİYİ"

***Sovet hökuməti vaxtı bütün sahələr üzrə, xüsusilə də pambıq yığımında bir Sosialist öhdəliyi vardı, təkcə futboldan başqa. Yəni neftçilər öhdəlik götürürdü, amma "Neftçi" komandası yox.***

***Pambıq yığımında da ən böyük öhdəlik Bərdə rayonunda idi. Plan 100 min ton, sosialist öhdəliyi 120 min ton.***

***Rüstəm Səfərəliyev Bərdənin katibi olarkən bu öhdəliyi yerinə yetirmişdi, dövlətə 120 min ton pambıq vermişdi. İclasda Rüstəm dayıya söz atmışdılar ki, "pripiska" eləmisən. O da hirslənib demişdi:***

***- Yaxşı, deyək ki, bunun iyirmi min tonunu pripiska eləmişəm, yüz min ton ki vermişəm.***



***İndi "Qarabağ"dan elə danışırlar ki, elə bil Sosialist öhdəliyi götürüb ki, Avropa çempionu olacaq! "Qarabağ" belə bir öhdəlik götürməyib. Əsas öhdəliyi yerinə yetirib - Çempionlar liqasına düşüb və Avropanın iki məşhur klubunu da məğlub edib. Amma biz buna sevinmirik, bunu görmürük.***

***Klub son oyunda "Atletik Bilbao"ya uduzdu. Dostlar, "Atletik Bilbao"yla oynayırdı ey, "Səbail" komandasıyla yox.***

***Bu futboldu, udmaq da var, uduzmaq da. "Qarabağ" da nəinki gücü çatan qədər, gücündən də artıq oynadı. Belə demək mümkünsə, başından hündürə hoppandı.***

***Hələ qarşıda beş oyun var. İnşallah, "Qarabağ" "Qarabağ" olduğunu sübut edəcək. Uzun illərdi həm Avropada, həm də dünyada "Qarabağ"ı tanıdan Qurban Qurbanov hələ son sözünü deməyib.***

***Komanda uduzanda yanında olmaq lazımdı ey, udanda nənəm də komandanın yanında olur.***

***Başını dik tut, Xocam! Başını dik tut "Qarabağ"! Biz səninləyik! Qələbən də bizimdir, məğlubiyyətin də. Sosial şəbəkələrdə yazılanlara da fikir verməyin.***

***Amma, maşallah, ölkəmizdə nə qədər futbol bilicisi, ağzıgöyçəklər varmış.***

## "Putin istəyir ki, Kiyev və Brüssel Ukrayna ərazisinin işğalını qəbul etsin"



**"Rusiya Prezidenti Vladimir Putin amerikalı həmkarı Donald Trampla görüş yeri kimi Macarıstan paytaxtı Budapeştə seçməklə Qərb ölkələri arasında Ukrayna müharibəsində baxışda fikir ayrılığını dərinləşdirmək istəyir. Birincisi, Macarıstan Avropa İttifaqının Rusiyaya qarşı sanksiyalarını dəstəkləmir. İkincisi, Budapeşt görüşündə Avropa liderlərinin iştirak etməməsi Brüsseli narahat edir".**

Adalet.az xəbər verir ki, bunu politoloq Elxan Şahinoğlu deyib. Politoloqun sözlərinə görə, Putin sülhdə maraqlı deyil, o Donbası tələb edir:

"Rusiya 4 il ərzində Donbasın tamamını işğal etməyib. Kiyev Donbasın bir hissəsini nəzarətdə saxlayır və həmin hissəni Rusiyaya verməyəcək. Kiyev indiki şərtlər altında atəşkəsə razıdır. Ukraynanın eyni zamanda itirdiyi əraziləri geri qaytarması çətindir. Putin vaxt udmağa çalışır. O istəyir ki, Kiyev və Brüssel Ukrayna ərazisinin işğalını qəbul etsin. Kiyev və Brüssel buna razı deyillər. Donald Trampın məqsədi Rusiya-Ukrayna müharibəsində atəşkəsə nail olmaqdır. Münaqişənin həlli onu düşündürmür, çünki bu mürəkkəb məsələdir. Atəşkəs əldə olunmasa, Ağ Ev Avropa üzərində Ukraynaya hərbi texnika satmaqda davam edəcək".

**VASİF**

# Vilayət Eyvazov Kollegiya iclası keçirdi

**Daxili İşlər Nazirliyində "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizənin vəziyyətinə", "Təqsirləndirilən və xəbərsiz itkin düşmüş şəxslərin axtarışı sahəsində görülən işlərə", habelə cari ilin 9 ayının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş Kollegiya iclası keçirilib.**

Adalet.az xəbər verir ki, iclası giriş sözü ilə açan daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov müzakirəyə çıxarılan məsələlərin əməliyyat-xidməti fəaliyyətin mühüm sahələrini əhatə etdiyini, insanların həyatının, sağlamlığının, qanuni mənafelərinin, hüquq və azadlıqlarının etibarlı qorunması baxımından xüsusi əhəmiyyətini vurğulayıb.

Qeyd olunub ki, vətəndaşların qəbulu və müraciətlərinə baxılması sahəsində böyük bir iş həcmi yerinə yetirilib. Respublikanın 55 şəhər və rayonundan olan 6.279 vətəndaş qəbul edilərək əksəriyyətinin müraciəti yerində həll olunub, həmçinin 80.834 müraciətə baxılaraq təşəbbüskarlara hüquqları izah edilməklə yazılı cavablar verilib.

Cinayətkarlığa qarşı mübarizədə, ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin edilməsi sahəsində həyata keçirilən tədbirlər də bütövlükdə qənaətbəxş olub, əvvəlki dövrlərin müsbət təmayülləri daha da inkişaf etdirilib.

Daxili İşlər Nazirliyi və prokurorluq üzrə qeydə alınmış cinayətlərin 92,4 faizi açılıb. Ötən ilin müvafiq dövrü ilə müqayisədə cinayətlərin sayı 6,9 faiz, o cümlədən qəsdən adam öldürmələr, qəsdən sağlamlığa ağır zərər vurmalar, oğurluqlar, dələduzluqlar, soyğunçuluqlar, quldurluqlar, hədə-qorxu ilə tələb etmələr, xuliqanlıqlar, informasiya texnologiyalarından istifadə edilməklə, odlu silahın tətbiqi ilə və əvvəllər məhkum olunmuşlar tərəfindən törədilən, ailə münaqişəsi zəminli və qrup halında cinayətlərin sayı azalıb. Qeyri-aşkar şəraitdə baş verən, eləcə də ağır və xüsusilə ağır cinayətlərin, şəxsiyyət əleyhinə olanların, onlardan qəsdən adam öldürmə və ona cəhdlərin, qəsdən sağlamlığa ağır zərər vurmaların,



mülkiyyət əleyhinə olanların, o cümlədən oğurluqların, dələduzluqların, soyğunçuluqların, quldurluqların, hədə-qorxu ilə tələb etmələrin və avtonəqliyyat vasitəsinin qaçırmaların açılması yaxşılaşıb.

Keçmiş illərdən bağlı qalmış 284 cinayətin açılması təmin edilib. Axtarışa elan edilmiş şəxslərin 85,1 faizi tutulub, itkin düşmüş şəxslərin 90%-i, habelə mülki-hüquqi öhdəliklərin icrasından yayındığına görə axtarılan 22.268 borclu şəxs tapılaraq aidiyyəti üzrə təhvil verilib. Ağır və xüsusilə ağır cinayətlər törətmiş 408 nəfərdən ibarət 152 cinayətkar qrup zərərsizləşdirilib. Baş vermiş xırda talama faktlarının 87,7%-i açılıb. Qanunsuz dövriyyədən 4 ton 663 kiloqram, yəni ötən ilin eyni dövrü ilə müqayisədə 582 kiloqram çox narkotik vasitə çıxarılıb.

Yol-nəqliyyat hadisələrinin sayı 126 fakt, qəzalarda ölənlərin sayı 13 nəfər, xəsarət alanların sayı isə 157 nəfər azalıb. "Formula-1 Azərbaycan Qran Pri"si, III MDB Oyunları, həmçinin respublika və beynəlxalq əhəmiyyətli digər kütləvi tədbirlərdə asayiş və təhlükəsizlik etibarlı və peşəkarlıqla qorunub.

Diqqətə çatdırıb ki, daxili işlər orqanlarında xidmətin müasir tələblər səviyyəsində təşkili, əməkdaşların peşəkarlığının artırılması, təcrübəli və yüksək ixtisaslı kadr korpusunun formalaşdırılması, təhsil müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi və beynəlxalq təcrübəyə uyğunlaşdırılması üzrə zəruri tədbirlər davam etdirilib, gənclərin xidmətə qəbulunun təşviqi və təbliği məqsədilə ali və orta ümumtəhsil müəssisələrində mütəmadi görüşlər keçirilib.

Gündəlikdəki məsələlər barədə Nazirliyin aidiyyəti baş idarələrinin rəisləri həyata keçirilmiş tədbirlər, əldə edilmiş nəticələr, yol verilmiş nöqsanların aradan qaldırılması üzrə görülmüş işlər barədə məruzə edib, eyni zamanda məruzəətrafı çıxışlar dinlənilib.

Kollegiya iclasına yekun vuran nazir general-polkovnik V.Eyvazov xidməti vəzifələrin və qarşıya qoyulan tapşırıqların hesabat dövründə bütövlükdə layiqincə yerinə yetirildiyini qeyd edib, fəaliyyətin effektivliyinin artırılması ilə bağlı qarşıda duran vəzifələri müəyyən edib.

Əsas vəzifələrdən birinin vətəndaş məmnunluğunun təmin edilməsi və bu mühüm məsələdə polisin hər zaman insanların güvən yeri olduğunu xatırladaraq ərazi orqanlarının rəislərindən vətəndaşların müraciətlərinə bundan sonra da həssaslıqla yanaşılmasını, bütün araşdırmaların keyfiyyətlə aparılaraq qaldırılan məsələlərin qanuni və operativ həlli üçün səylərin gücləndirilməsini və tapşırılmış sahəyə məsuliyyətin daha da artırılmasını tələb edib.

Antinarkotik təbliğatın gənclər arasında, təhsil müəssisələrində, mediada və sosial şəbəkələrdə gücləndirilməsinin vacibliyi, xüsusən cinayətkar qruplaşmaların yeni metodlardan - internet informasiya resurslarından istifadə etməklə narkotiklərin satışını həyata keçirmək cəhdlərinin qarşısının alınması üzrə fəaliyyətin səmərəsinin yüksəldilməsi barədə konkret vəzifələri müəyyən edib.

Cinayətkarlıqla mübarizədə, xüsusən informasiya texnologiyalarından istifadə edilməklə törədilən cinayətlərin açılması və belə hüquqazidd əməllərə yol verən şəxslərin məsuliyyətə cəlb olunması işinin gücləndirilməsinin vacibliyini də diqqətə çatdıraraq bu sahədə təbliğat işinin effektivliyinin artırılmasının, müasir dövrün tələblərinə cavab verən maarifləndirmə materiallarının hazırlanıb ictimaiyyətə çatdırılmasının zəruriliyini nəzərə çatdırıb.

**İlin başa çatmasına az müddət qaldığını diqqətə çatdıran general-polkovnik Vilayət Eyvazov əldə edilmiş müsbət nəticələrin davam etdirilməsini, arxayınçılığa yol verilməməsini, şəxsi heyətin peşəkarlığının artırılması, icra intizamının daha da yüksəldilməsi, yeni informasiya texnologiyalarının geniş şəkildə tətbiqi üçün bütün qüvvə və imkanların səfərbər olunmasını, əməliyyat işinin səmərəsinin yüksəldilməsini tələb edib, bu istiqamətdə konkret tapşırıq və tövsiyələrini verib.**

# «Orta dəhlizin inkişafı» birgə layihəsi regiona nə vəd edir?

**" Azərbaycan Prezidenti İlham Əliyevin və Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin iştirakı ilə "Orta dəhlizin inkişafı" (Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu) birgə layihəsinin təqdimatı olub. Təqdimat zamanı Orta dəhlizin strateji əhəmiyyəti xüsusi vurğulanıb və 2030-cu ilədək Çindən Azərbaycana daşımaların həcminin 3 dəfə artmasının proqnozlaşdırıldığı bildirilib".**

Adalet.az xəbər verir ki, bunu millət vəkili Vüqar Bayramov deyib. O bildirib ki, birgə layihə Orta dəhlizinin regional imkanlarının daha da genişlənməsinə xidmət edəcək: "Hər iki dövlət Orta Dəhlizin genişlənməsinə töhvə verirlər. Azərbaycan ilə Qazaxıstan arasında nəqliyyat-logistika əməkdaşlığı iqtisadi artım və regional bazarların inteqrasiyası üçün yeni imkanlar açan strateji əhəmiyyətli istiqamət hesab olunur. 2024-cü ildə Azərbaycan ilə Qazaxıstan arasında tranzit daşımaları əvvəlki dövrlə müqayisədə 20 faiz artaraq 3,5 milyon tondan çox olub. Bu isə daha çox Orta Dəhlizin ötürmə imkanlarının artırılması ilə bağlıdır. Son illər Orta dəhlizin əhəmiyyətinin daha da artması müşahidə olunur. Bir tərəfdən İrana qarşı sanksiyalar artır, digər tərəfdən isə Yaxın Şərqdəki hələ də sönməyən gərginlik Cənub üzərindən yüklərin daşınmasında çətinlik yaradıb. Həm də Rusiyaya qarşı sanksiyalar tətbiq olunduğundan Avropa İttifaqının Orta dəhlizə marağı artıb. Yalnız 2024-cü ildə Orta dəhliz vasitəsi ilə daşınan yüklərin həcmi 63 faiz artaraq 4.8 milyon tona çatıb. Beləliklə, Orta dəhliz vasitəsi ilə Qazaxıstan, Azərbaycan və Gürcüstan üzərindən, eləcə də qardaş Türkiyə vasitəsilə yüklərin Şərqdən Qərbə, yəni Asiyadan Avropaya daşınması artır. Azərbaycan Orta dəhlizin genişlənməsinə töhfə verən ölkələrdəndir. Həm infrastrukturun genişləndirilməsi, həm Ələt limanının istifadəyə verilməsi, həm də elektron xidmətlərdən geniş istifadə edilməsi Azərbaycan üzərindən yüklərin daşınmasına marağın artmasına səbəb olub. Həmçinin Zəngəzur dəhlizinin istifadəyə verilməsi ilə bağlı aparılan müzakirələr və bu istiqamətdə gözləntilər də Orta dəhlizin regionda əhəmiyyətini artıracaq. Çünki Zəngəzur dəhlizi Orta dəhlizə inteqrasiya olunacaq və bu da Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu vasitəsilə daha çox yükün Qazaxıstan və Azərbaycan vasitəsilə daşınmasına imkan yaradacaq".



**Vasif ƏLİHÜSEYN**

*Rüstəm Hacıyev*



# Donald Tramp daha bir cəhd edəcək...

*ABŞ prezidentinin administrasiyasının açıqlamalarına görə, oktyabrın 16-da, hər iki ölkə liderləri arasında növbəti telefon danışıqları baş tutub. Ağ Evin mətbuat katibi Kerolayn Livittin verdiyi məlumata görə, telefon danışıqları səmərəli keçib, Tramp və Putin gələn həftə yüksək səviyyədə görüşmək barədə razılığa gəliblər.*

*Amerikan prezidentinin sözlərinə görə, Vladimir Putinlə görüş Budapeştdə baş tutacaq. Görüşdə tərəflər bir daha Rusiya-Ukrayna münaqişəsinin həlli məsələsini müzakirə etməyi planlaşdırırlar. Bu günədək bütün münaqişələrin həlli istiqamətində istənilən nəticəni qazanmağa nail olan Donald Tramp bu dəfə Vladimir Putini danışıqlara başlamaq üçün, ən azından atəşin dayandırmasına razı sala biləcəkmi? Macarıstanın baş naziri Viktor Orban, Vladimir Putinlə Donald Tramp arasında görüşün Budapeştdə keçiriləcəyi xəbərini şərh edərkən bildirib ki, "Bu xəbər dünyanın sülhsevər adamları üçün çox xoş xəbər oldu. Biz hazırıq".*



*Xatırladırıq ki, Donald Tramp Ağ Evdə jurnalistlərlə son görüşündə, Rusiya prezidenti Vladimir Putini "müharibəni dayandırmaq istəməməkdə" günahlandırmışdı. Lakin, dünənki telefon danışıqlarından sonra, inandırıcı görünməsə də, çox güman ki, Rusiyalı həmkarını müəyyən güzətlərə getməyə razı sala bilib. Ona görə də, gələn həftə Budapeştdə görüşmək qərarına gəlib.*

*Ağ Evin mətbuat katıbının məlumatına görə, liderlər arasında Budapeştdə keçiriləcək görüşdən əvvəl, Donald Tramp Ukrayna prezidenti Volodimir Zelenskiylə də görüşməyi və onunla da, münaqişənin həlli istiqamətində müzakirə aparmağı planlaşdırır. ABŞ prezidenti, atəşkəsə nail olmaq naminə yəqin ki, Zelenskinidə müəyyən güzəştlərə getməyə çağıracaq.*

*Bu il "Nobel sülh mükafatını" (hərçənd ki, buna layiq idi) ala bilməyən Donald Tramp, Ukrayna münaqişəsin danışıqlar yolu ilə başa çatması üçün novbəyi dəfə "bəxtini sınayacaq"...*

*Alınacaqmı?.. Ümid edək ki, ABŞ prezidentinin bu cəhdi uğurlu olacaq və daha bir münaqişə zonasında atəş səsi eşidilməyəcək...*

# Azərbaycanda moped idarə etmək üçün sürücülük vəsiqəsi tələb olunacaq



**Azərbaycanda moped idarə etmək üçün sürücülük vəsiqəsinin tələb olunması nəzərdə tutulur.**

Adalet.az xəbər verir ki, bu barədə məsələ Milli Məclisin plenar iclasında müzakirə edilən "Yol hərəkəti haqqında" qanunda dəyişiklik edilməsi haqqında qanun layihəsində öz əksini tapıb. İclasda bildirilib ki, qanun layihəsinin əsas məqsədi moped nəqliyyat vasitələrinin istismarına dair tənzimləmələrin təkmilləşdirilməsi, sürücülərin bilik və bacarıqlarının artırılması və ümumilikdə yol hərəkəti təhlükəsizliyinin yüksəldilməsidir. Belə ki, sənəddə təklif edilən mühüm dəyişikliklərdən biri moped idarə etmək üçün sürücülük vəsiqəsinin alınmasının tələb olunmasıdır. Bu dəyişiklik sürücülərin müəyyən bilik və bacarıqlara malik olmalarını təmin edəcək və nəticə etibarilə yol hərəkəti təhlükəsizliyini artıracaq.

Digər edilən təkliflərə görə moped nəqliyyat vasitəsinin anlayışı daha dəqiq müəyyən edilməsi, mopedlər dövlət qeydiyyatına alınaraq uçota götürülməsi nəzərdə tutulur. Həmçinin qanun layihəsində mopedlər üçün əvvəllər mövcud olan yalnız yolun sağ kənar zolağı ilə hərəkət etmək tələbinin aradan qaldırılması nəzərdə tutulur. Bundan başqa, sözügedən qanun layihəsində motosikletin və mopedin uzunlu və ya eni üzrə qabaritlərindən 0,5 metrdən artıq kənara çıxan və ya motosikleti, mopedi idarə etməyə mane olan yük aparmaq qadağan edilir.

Müzakirələrdən sonra məsələ səsverməyə qoyularaq I oxunuşda qəbul edilib.

**NİCAT**



*Səxavət MƏMMƏD*

## Böyük dövlətlərə demokratiya maraqlı deyil

**Kapitalizm və demokratiyanın qüsurları dünyada böhranlı vəziyyət yaradıb. Qaynaqlar uğrunda mübarizə açıq müstəviyə keçib. Təsadüfi deyil ki, dünyanın demək olar hər yerindəki münaqişə ocaqları alovlanır, yeniləri yaranır və bu proses davam edəcək.**

**Hazırkı münaqişələrə baxdıqda qazananın olduğunu deyə bilmərik. Bunu İsrail-Fələstin, Rusiya-Ukrayna, Hindistan-Pakistan, Əfqanıstan-Pakistan, İran-İsrail və digərlərinin timsalında görə bilirik.**

**İsrail HƏMAS arasında toqquşma da bir neçə reallığı ortaya çıxardı. İsrail HƏMASın hücumuna cavab olaraq Qəzza zolağında sözün əsl mənasında daşı-daş üstündə qoymadı.**

**Yəhudilərə insanlar daha çox Holokosta görə hörmət qoyurdu - soyqırıma məruz qalmış xalq. Ancaq soyqırıma məruz qalan xalq canlı yayımda soyqırım törədəndə bütün dünya buna etiraz etməyə başladı. Etirazların önündə gedənlərin bir çoxu da İsrail vətəndaşı olmayan yəhudilər idi. Bundan əlavə İspaniya, İtaliya, Fransa kimi dövlətlər də ortaya mövqe qoydu. Xüsusilə İspaniya xarakter nümayiş etdirdi. Məsələ hətta o həddə gəlib çıxdı ki, ABŞ prezidenti Donald Tramp İspaniyanı NATO-dan çıxarmaqla hədələdi. Bəhanəsi vəsait olsa da, reallıq İspaniyanın qoyduğu qadağalar idi. Yəhudilərin özlərinə verməli olduğu əsas sual "tarix boyu niyə ancaq bizi məhv etmək istəyiblər?" olmalıdır.**

**İsrail və onun dəstəkçiləri İranda türklərin sıxışdırılmasını daha çox qabardır. Baxırsan, İranda çoxlu sayda yəhudi yaşayır, onlar öz dinlərini də qoruyub saxlayırlar, milli kimliklərini də. Hətta 12 günlük toqquşmadan sonra belə İranda yəhudilərə qarşı hansısa neqativ addım atılmadı. Türklərin sözdə müdafiəsi kimlər üçünsə bəhanə, kimlər üçünsə artistlik mövzusundan başqa bir şey deyil.**

**Trampın ən çox istədiyi şey Nobel sülh mükafatı almaq idi. Bunun üçün dəridən qabıqdan çıxırdı. Kimsə çıxıb kənardan deyə bilər ki, bu da bir siyasət idi. Əgər bu siyasət idisə də, çox düşük bir siyasət idi. Nobel sülh mükafatı heç kimin tanımadığı, Venesuelalı Maria Corina Maçadoya verildi.**

**Xeyli müddətdir dünyada demokratiya sözü demək olar unudulmuşdu. Qəflətən Nobel komitəsinin yadına Venesuela xalqının hüquqları düşür. Demokratiya uğrunda yorulmaz mübarizəsi, eləcə də ölkəsinin diktaturadan demokratiyaya ədalətli və dinc keçidinə nail olmaq cəhdlərinə görə də Maçadoya Nobel sülh mükafatı verir.**

**Bu həm də o zaman yada düşür ki, ABŞ Venesuelanı hədəfə götürüb, böyük ehtimalla da Maduronu devirmək üçün müdaxilə edəcək. Maria Corina Maçado isə bildirir ki, Venesuelanın neft yataqları özəlləşdirilməlidir və ABŞ-yə verilməlidir. Ümumiyyətlə, uzun illərdir ki, mükafatlar ədalətli şəkildə verilmir, hətta "Qızıl top" mükafatı belə(!), hər bir mükafatın arxasında ciddi siyasi amillər dayanır. Dünya sürətlə Azərbaycanlaşır.**

**Hazırda davam edən Rusiya-Ukrayna müharibəsinin dayandırılması yönündə addımlar atılır. ABŞ-nin Ukraynaya "Tomaqavk" raketləri verəcəyi iddia olunurdu. Ancaq Tramp-Putin telefon danışığından sonra adı gedən raketlərin verilməyəcəyi iddia olundu. Qeyd edim ki, "Tomaqavk" raketləri Rusiya ilə ABŞ arasında bu günün yox, illər öncənin gərginliyidir. Gəmi və sualtı qayıqlardan atılan bu raketləri ABŞ qurudan da istifadə etmək niyyətini ortaya qoyanda Rusiya buna etiraz etməyə başlamışdı. Çünki 1987-ci ildə imzalanmış Orta Mənzilli Nüvə Qüvvələri (INF) müqaviləsi 500-5500 km arası yerüstü raketlərin yerləşdirilməsini qadağan edirdi. Rusiya "Tomaqavk" raketlərinin "Aegis Ashore" sistemləri vasitəsilə quruya yerləşdirilməsini bu müqavilənin pozulması kimi qiymətləndirirdi. ABŞ bu sistemləri Rumıniyada və Polşada quraşdırıb. Rusiya "Aegis Ashore" sistemlərini Rusiyanın Avropadakı təhlükəsizlik balansına təhdid kimi görür.**

**Yeri gəlmişkən ABŞ 2 avqust 2019-cu ildə Trampın zamanında, rəsmi olaraq INF (Orta Mənzilli Nüvə Qüvvələri) müqaviləsindən çıxıb. Hazırkı gərginlik təkcə Ukrayna müharibəsi ilə bağlı deyil. Hesab edirəm ki, "Tomaqavk" raketlərinin Ukraynaya verilməsi müharibənin şiddətini daha da artıracaqdı. Ona görə də, ABŞ və Rusiya müəyyən mənada uzlaşmaya gedəcəklər.**

**Dünyada böyük dövlətlərə nə ukraynalılar, nə venesuelalılar, nə türklər, nə də fələstinlilər maraqlıdır. Demokratiya heç maraqlı deyil. Böyük dövlətlər açıq şəkildə qaynaqlar uğrunda mübarizə aparır. Qurban seçilmiş xalqlar dastanlar yazır, qarnını qəhrəmanlıq dastanları ilə doyurur, qurbanlıq edənlər isə o xalqları sümürür, yeyir və idarə edir.**

# AQİL ABBAS HİNDARXDA SEÇİCİLƏRLƏ GÖRÜŞDÜ







**Ayın 18-də millət vəkili Aqil Abbas Ağcabədi rayonunun Hindarx qəsəbəsində bu il istifadəyə verilmiş orta məktəbdə seçicilərlə görüşüb. Həm seçicilərin, həm də müəllimlərin problemlərini dinləyib. Görüşdə Ağdam rayonundan gəlmiş şikayətçilər də iştirak edib.**

**Millət vəkili qaldırılan problemləri aidi orqanlara çatdıracağını bildirib.**

**Eyni zamanda sakinlər 12 nəfər şəhid ailəsinin yaşadığı və iki orta məktəbin yerləşdiyi küçənin bərbad olduğunu və asfaltlaşmasını istəyiblər.**

**Bundan başqa, millət vəkili ayrı-ayrı kəndlərdə - Taynaqda və Bilağanda, Ağdamın yeni salınmış Saricalı və Qasımbəyli qəsəbəsində olub və şikayəti olan şəxsləri qəbul edib.**

**Fərhad ƏLİYEV**

# Ekspert: "Məsuliyyətsizlik faciə ilə nəticələnir"

**Xəbər verdiyimiz kimi oktyabrın 20-də saat 12 radələrində Sabunçu rayonu Zabrat qəsəbəsində uşaq ölümü ilə nəticələnən yol-nəqliyyat hadisəsi baş verib.**

Qəsəbə sakini 1992-ci il təvəllüdlü Tural Süleymanov 7 yaşlı oğlu Usamə Süleymanlını qucağına alaraq "BMW" markalı avtomobilə əyləşib. Bu zaman azyaşlı uşaq sürüşərək sürət pedalına sıxılıb. Nəticədə avtomobil hərəkətə gələrək hasara çırpılıb.

Hadisə nəticəsində azyaşlı U.Süleymanlı hadisə yerində ölüb, T.Süleymanov isə ağır xəsarətlər alaraq xəstəxanaya yerləşdirilib. Onun vəziyyəti həkimlər tərəfindən ağır qiymətləndirilir.

Mövzu ilə bağlı Adalet.az-a danışan nəqliyyat məsələləri üzrə ekspert Aslan Əsədov hadisənin qanuni tərəfi ilə yanaşı, məsuliyyətsizliyin faciəvi sonluqla nəticələnməsindən də danışıb:

"Bu kimi hadisələr təkcə yol- nəqliyyat hadisəsi deyil, həm də bir ailənin faciəsidir. Bir vətəndaş kimi əlbəttə, baş verənlər bizə də təsirsiz ötüşmür. Faciəvi sonluqla bitən hadisələr həmişə sarsıdıcıdır.

Belə məsələdə sürücü diqqətli olmalıdır. Hadisədən göründüyü kimi kiçik bir xəta



bir körpənin həyatına son qoydu. Və bir gənc atanın da səhhətində ağır problemlər yaratdı. Düşünürəm ki, sürücülər yol hərəkəti qaydalarından əvvəl vətəndaş mövqeyini qorumalıdır. Hər bir şəxs öz doğmalarını qorxumalıdır, hətta daha çox azyaşlı yaxınları ilə diqqətli davranmalıdır. Məlumdur ki, bir ata hadisənin faciə ilə bitəcəyini bilsəydi, oğlunu qucağında ələşdirib maşın sürməzdi. Ancaq onu da bilmək lazımdır ki, bu, bir qayda pozuntusudur. Çünki sürücü əyləşdiyi oturacaqda( sükan arxasında) tək əyləşməli və ona kənar müdaxilə olunmamalıdır. Azyaşlılar isə nə sürücünün yerində oturmalıdır, nə də sürücünün sağ tərəfindəki qarşı oturacaqda. Görünən budur ki, belə hadisələr insanları məlumatlı olmağa və hər hansı bir nəqliyyat vasitəsiylə daha da məsuliyyətli davranmağa səsləyir. Axı biz nəqliyyat vasitələrinə həyatımızı etibar edirik. Əks halda məsuliyyətsizlik sözügedən faciə ilə nəticələnir".

**Əntiqə KƏRİMZADƏ**

# "Onda dünyasını dəyişmiş insanların da pensiya kapitalı ailələrinə verilə bilərdi..."

**"Ölkədə işləyənlərdən toplanan sosial sığorta və digər ödənişlər elə həmin dövrdə pensiyaçılara verilir. Yəni hər il nə qədər vəsait yığılırsa, elə həmin il də xərclənir. Amma əsas problem budur ki, yığılan pul verilməli olan puldan azdır. Ən pisi və qorxulusu da odur ki, bu fərq getdikcə böyüyür. Məsələn, ötən il pensiyaları ödəmək üçün 1,2 milyard manat çatmamışdı və bu fərq dövlət büdcəsindən transfer olunmuşdu. Bu il isə bu çatışmayan pul daha 400 milyon manat artaraq 1,6 milyard manata çatıb".**

Adalet.az xəbər verir ki, bunu iqtisadçı Eldəniz Əmirov deyib. Onun sözlərinə görə, çünki, 2025-ci ildə fonda 6 milyard yığılması gözlənildiyi halda fondun verməli oldiuğu pensiya məbləğləri 7,6 milyard manata yüksəlib: "Göründüyü kimi fərq ildən-ilə böyüyür və bu, prosesin hansı istiqamətə getdiyini çox açıq göstərir. (Hələ Fondunun milyardlarla ölçülən və ildən-ilə artan debitor borclarını demirəm) Ən diqqətçəkən məqam budur ki, 2026-cı ildə dövlət büdcəsinin



artım tempi cəmi 0,3 faiz proqnozlaşdırılıb. Yəni büdcə faktiki olaraq yerində qalıb, amma pensiya xərcləri ildən ilə böyüyür. Deməli, qarşıdakı artımı büdcə hesabına qarşılamaqla bağlı çətinliklər qaçılmazdır".

İqtisadçının sözlərinə görə, belə vəziyyətdə bu fərqi bağlamaq üçün iki yol qalır: "Birinci yol müvəqqəti transferlərdir. Dövlət ehtiyat mənbələrindən, xüsusilə Neft Fondundan vəsait yönləndirilməsi ilə bu fərq bağlana bilər. Amma bu davamlı həll deyil. İstifadə etmək olar, amma müəyyən həddə qədər. Bu ölkənin strateji valyuta ehtiyatıdır və ehtiyatsız xərclənməsi ciddi risklər yaradar. Heç bir ölkə bu modeli uzun müddət davam etdirə bilməz. İkinci yol inkişaf etmiş ölkələrin demək olar ki, 99 faizində tətbiq olunan yoldur. Bu gəlirlərin və şəffaflığın artırılması yoludur. Bu çətin yoldur, amma "ölümsüz" yoldur". E.Əmirov deyib ki, yəni, əgər iqtisadiyyat inkişaf edib əməkhaqları yüksələrsə, sosial sığorta ödənişləri də artacaq: "Məsələn, bu gün 1000 manat maaş alan şəxsin bu gəlirinə görə fonda təxminən 250 manat toplanır. Əgər həmin şəxs 3000 manat maaş alsaydı, toplanan məbləğ 750 manat olardı. Bu isə Pensiya Fondunun gəlirlərini 3 dəfə artırararaq, 6 milyard deyil, təxminən 17-18 milyarda çatdırardı. O zaman nə pensiya yaşının artırılması bu qədər müzakirə mövzusu olardı, nə də pensiyaların artırılması bu qədər çətin. Hətta dünyasını dəyişmiş insanların da pensiya kapitalı ailələrinə rahat şəkildə verilə bilərdi. Yəni, bu məsələ sadəcə sosial məsələ deyil. Bu, soyuq riyaziyyat və uzunmüddətli iqtisadi baxış tələb edən ciddi bir məsələdir. Əgər bu gün iqtisadi bazanı genişləndirməsək, sabah bu fərqi bağlamaq daha da çətinləşəcək. Dövlət büdcəsi bu yükü sonsuzadək daşıya bilməz. Amma üçüncü bir yol da var. Bu yol nə iqtisadiyyatı böyüdür, nə də gəlirləri artırır. Sadəcə pensiya yaşı artırılaraq, fiskal yükün azaldılması təmin edilir və perspektiv risklər idarəolunan səviyyəyə endirilir".

**Vasif ƏLİHÜSEYN**

# MEDİA və "Euronews"un birgə təlim proqramı başlayır

**Medianın İnkişafı Agentliyi (MEDİA) və "Euronews" telekanalının birgə əməkdaşlığı çərçivəsində "Euronews Academy"nin "TV və canlı jurnalistika" mövzusunda təlim proqramı fəaliyyətə başlayır.**

Adalet.az xəbər verir ki, bu barədə MEDİA məlumat yayıb. İngilis dilində tədris olunacaq təlimdə iştirak üçün gənc jurnalistlər, jurnalistika və kommunikasiya ixtisası üzrə təhsil alan, həmçinin media sahəsinə marağı olan sonuncu kurs bakalavr və magistratura pilləsi tələbələri müraciət edə bilərlər. Təlimlər "Euronews" telekanalının televiziya yayımı sahəsində böyük təcrübəyə malik mütəxəssisləri - "Euronews"un Astana bürosunun rəhbəri Bojan Brkiç və "Euronews"un Avropa İttifaqı üzrə




baş müxbiri Sergio Kantonenin iştirakı ilə keçiriləcək. Cari ilin noyabr ayının ikinci həftəsini əhatə edən layihə çərçivəsində "Televiziya xəbərlərinin hazırlanması", "Televiziya reportajları və canlı yayım", "Xəbər istehsalı (yayıma hazırlıq)", "Kamera qarşısında danışmaq" və "Müsahibə" modulları istiqamətində tədris prosesi təşkil olunacaq.

Qeyd edək ki, kursu uğurla başa vuran iştirakçılara sertifikat təqdim olunacaq.

Təlim proqramına müraciət qəbulu 1 noyabr 2025-ci il 18:00 tarixinədək davam edəcəkdir.

# Senat "hücuma" keçir

**ABŞ prezidenti Donald Trampla Rusiya Feferasıyasının prezidenti Vladimir Putin arasında Budapeştdə keçiriləcək görüş ərəfəsi, Birləşmiş Ştatların senatı, deyəsən Trampın mövqeyini möhkəmləndirmək üçün "hücuma" keçir.**



Axios portalın qanunverici orqan nümayəndələri və onların köməkçilərinə istinadən yazır ki, Senatın beynəlxalq əlaqələr komitəsi, Rusiyaya təyziqi gücləndirmək məqsədiylə üç qanun layihəsi hazırlayıb. Birinci sənəd, Rusiya ilə ticari əməkdaşlıq edən ölkələrə qarşı daha sərt sanksiyaların tədbiq olunmasını nəzərdə tutur. Belə ki, Rusiyadan neft, qaz, uran və digər resurslar alan ölkələrə qarşı 500 faiz rüsumlar tədbiq ediləcək. Qəbul ediləcək ikinci sənədə görə, Rusiya "terrorizmə dəstək verən ölkələrin" siyahısına əlavə ediləcək. Üçüncü sənəddə isə, Vaşinqton Rusiyanın dondurulmuş aktivlərindən gələn gəlirlərin Ukraynaya verilməsi planlaşdırılır.

Əslində, Senatın tam heyyətdə bu sənədləri nə zaman müzakirə edəcəyi tarixin bildirilməməsi onu göstərir ki, ABŞ Budapeşt görüşləri ərəfəsi, Putinlə Ukrayna münaqişəsinin danışıqlar yolu ilə aparılması məsələsinin müzakirələri zamanı, prezident Donald Trampın "əlini möhkəmləndirməyə" xidmət edən siyasi manevrdir. Çünki, hər kəs bilir ki, nə Vladimir Putin, nə də Volodimir Zelendki Rusiya-Ukrayna müharibəsinin dayandırılmasına, məsələnin danışıqlar yolu ilə müzakirəsinə hazır deyillər. ABŞ prdzidenti Donald Tramp administrasiyası da, bunu yaxşı bilir. Sadəcə olaraq, ABŞ prezidenti ən azından qan tökülməsini dayandırmaq məqsədiylə atəşkəsə nail olmaq istəyir. Atəşin dayandırılmasına isə, həm Ukraynanın, həm də Rusiyanın irəli sürdükləri şərtlər imkan vermir. Donald Tramp məhz bu şərtləri yumşaltmaq məqsədiylə hər iki ölkə rəhbəri ilə görüşüb onları kompramisə getməyə razı sala biləyəyinə ümüd edir. Lakin hələ ki, əsasəndə Rusiya prezidenti "nu" deyib durur ki, durur.

**Ağ Evin rəhbəri hələ ki, səbrlə tərəfləri razı salmağa çalışır. Gözləyək... inandırıcı görünməsə də, Budapeşt görüşündən atəşkəs xəbərini gözləyək...**

**Rüstəm HACIYEV**

# Zəfər paradında hansı silahlarımız nümayiş olunacaq?

**"Bildiyimiz kimi, noyabrın 8-də Azərbaycanın Ermənistan üzərində qələbəsinin beş illiyinə həsr olunan Zəfər paradı keçiriləcək. Azərbaycan son illərdə bir neçə dəfə hərbi paradlar keçirib. Lakin bu Zəfər paradının bir qədər daha geniş miqyasa malik olacağı gözlənilir. Çünki bu ilk yubiley paradıdır. Artıq biz qələbəmizin beş illiyini qeyd edirik".**

Bunu Adalet.az-a açıqlamasında hərbi ekspert Ədalət Verdiyev deyib.

Onun sözlərinə görə, paradda təbii ki, bizim qələbə bayrağımız, Quru Qoşunlarının, Hərbi Dəniz Qüvvələrinin, Dövlət Sərhəd Xidmətinin, Xüsusi Təyinatlı Qüvvələrin, eyni zamanda müttəfiq və dost ölkələrin parad heyətlərinin iştirakı gözlənilir:



"Bunun vacib kompanentlərindən biri də Azərbaycan Silahlı Qüvvələrinin silahlanmasında mövcud olan və yeni əldə olunan silah və texnikalarının bir hissəsinin nümayişindən ibarət olacaq. Silah, texnika, vasitə və avadanlıqların bir hissəsi yeni əldə olunub və onlar əvvəlki paradlarda nümayiş etdirilməyib. Hesab edirəm ki, bu paradda Vətən müharibəsindən sonra əldə etdiyimiz və operativ təyinatlı "Akınçı" PUA-ları, JF-17 döyüş təyyarələri və yerli müdafiə sənayesinin istehsal etdiyi digər vasitələr ilk dəfə nümayiş etdiriləcək". Ə.Verdiyev bildirib ki, bundan başqa parad zamanı Cənab Prezidentin çıxışı da olacaq:

"Bu çıxış zamanı Cənab Prezident Silahlı Qüvvələr qarşısında yeni vəzifələr qoyacaq. Çünki daha əvvəl Ali Baş Komandan tərəfindən verilən vəzifələr artıq yerinə yetirilib. Azərbaycanın ərazi və sərhəd bütövlüyü tamamilə təmin olunub. Suverenliyimiz bərpa edilib. Bundan sonra isə ordu quruculuğu sahəsində yeni vəzifələrin təyin edilməsi də gözlənilən- dir".

**Sübhan**

# Politoloq: "Bu, Paşinyanın mövqeyini gücləndirəcək..."

**"Azərbaycanın Ermənistana yük tranziti ilə bağlı işğaldan bəri mövcud olan bütün məhdudiyyətləri aradan qaldırması və ilk belə tranzit yükü olan Qazaxıstan taxılının Ermənistana daşınmasına başlanılması baş nazir Nikol Paşinyanın ölkəsi daxilində mövqelərini gücləndirəcək. Bu Azərbaycanın da maraqlarına uyğundur".**

Adalet.az xəbər verir ki, bunu politoloq Elxan Şahinoğlu deyib.

O bildirib ki, Nikol Paşinyan gələn ilin iyun ayında keçiriləcək, çünki parlament seçkilərinə hazırlaşır:

"O erməni cəmiyyətinə Azərbaycanla sülhün vacibliyini təlqin etdiyi halda, radikallar, o cümlədən kilsə bunun əleyhinə çıxırlar.

Yüklərin Azərbaycan üzərindən daşınmağa başlanılması Paşinyanın tərəfdarlarının sayını artırmaldır. Təsadüfi deyil ki, erməni rəsmilər bir ağızdan Azərbaycan Prezidenti İlham Əliyevin qərarını alqışlayıblar.

Paşinyana qarşı radikal mövqedə olanların arqumenti zəiflədi. Onlar deyə bilməzlər ki, Azərbaycan üzərindən tranzit yükləri qəbul etməyin".

**Vasif**

**Araz Hüseynov**



# "Sırtıq"

**Azərbaycanda yaxşı yaşamaq üçün, yəni cəmiyyətimiz üçün "sırtıq" olmaq lazımdır. Başqa çarə yoxdur. Azərbaycan elə yerdi ki, burda sırtıqlığın da növləri var: biri var gördüyün işlərdə sırtıq olasan, biri də var həyati məsələlərdə.**

**Gördüyün işlərdə sırtıq olmaq sənə yaxşı yaşayış, həyat, status vəd edə bilər. Amma hörmətdən, izzətdən, həyadan salacaq. Sonda isə ləyaqətsiz insana çevriləcəksən. Məsələn, yüz manat qazandığın yerdə sırtıqlığına salıb, əyri işlərə girib ləyaqətsizlik edəcəksən. Bu, hələ sıradan, xırda misaldır.**

**Amma həyati məsələlərdə "sırtıq" olsan, ömrün uzanacaq, yaşayışın mənəvi cəhətdən düzələcək. Ən azı, quruca da olsa ayaq üstdə durmağı bacaracaqsan. Əgər sürünə-sürünə də olsa, çox yaşamaq istəyirsənsə, sırtıqlıq edin.**

**Elə zamana gəlmişik ki, xüsusilə getdikcə, daha peşəkar şəkildə sırtıqlaşmalısan. Çünki elə getdikcə də həyat şərtləri çətinləşir.**

**Düşünürəm ki, problemlərdən dolayı sırtıq insanlar heç vaxt intihar etməz, məsələn. İndiyə qədər ailəvi problemlərə, başına gələn faciələrə dözməyib intihar edən insanlar sırtıq olmayanlardır. Sırtıq sözü sərt səslənsə də, deyəndə adamın xətrinə də dəyə bilər. Amma neyləmək olar?**

**Belə olmalısan, bunu bacarmalısan. Əslində bu həm də həyalı, abırlı qalmağın antonim növüdür. Bu dünyada acı çəkməyən heç kim yoxdur. Elə dərdlər, ağrılar var ki, onlar yaşayış səviyyəsindən, kimliyindən, nəcəliyindən asılı olmayaraq hamını tapır.**

**Ona görə də sırtıq olmaq haqqında məsləhətimi əldə bayraq edib, başqa əməllərə yol verməк olmaz!**

**Məsələn, sırtıqlıq edib adamları bezdirməyə ehtiyac yoxdur. Tutalım, bir yerdə ki səni istəmirlər, sırtıqlığına salıb ora getməyə ehtiyac yoxdur. Adamın abır- həyası olar. Sırtıq olanda nə olar? Bu məsələdə qətiyyən sırtıqlıq eləmək olmaz. Dediyim kimi, sadəcə və sadəcə, həyati şərtlərdə, problemlərdə. Bunu bir dəfə dostumun atasının dilindən eşitmişdim. Oğul ölüb, qız ölüb, övladlar yoxdur. Ən yaxşı halda iflic keçirəcək haldır. Lakin nəvələri üçün, yaşamaq üçün sırtıq olmalı idi... Çətin olsa da..**

**Olanları qəbul edib, çıxış yolunu özünə qəsd və yaxud dərd çəkib özünü öldürməklə deyil.**

**Qıraqdan gülməli, adi görünsə də, olduqca böyük həqiqətdir. Və həyatın nə qədər amansız olduğunu, səni özünə ram etdiyini düşünürsən... Bir az da sırtıq olsan, onu da düşünməyəsəksən.**

## *"Azərbaycan və Ermənistan arasında nəqliyyat yolları açılır"*




**"Azərbaycan Prezidenti İlham Əliyev Qazaxıstan taxılının Ermənistana tranzit daşınmasına icazə verib. Qazaxıstan məhsulları Bakı-Aktau xətti vasitəsilə Azərbaycanın ərazisindən keçərək Ermənistana çatdırılacaq. Prezident İlham Əliyev bu qərarla sülhün təkcə kağız üzərində deyil, praktik müstəvidə reallaşdığını vurğulayıb".**

Adalet.az xəbər verir ki, bunu politoloq Məhəmməd Əsədullazadə deyib. O bildirib ki, Ermənistan Baş naziri Nikol Paşinyan da bu addıma görə Azərbaycan prezidentinə təşəkkürünü bildirib". "Qarşılıqlı jest olaraq, Ermənistan Türkiyədən Azərbaycana gedən TIR-ların öz ərazisindən keçməsinə icazə verib. Bununla da iki ölkə arasında beynəlxalq nəqliyyat əlaqələrinin faktiki bərpası reallaşır. Azərbaycanın bu qərarı regionda iqtisadi inteqrasiyanın və qarşılıqlı etimadın güclənməsinə xidmət etməklə yanaşı, Ermənistan daxilində də mühüm siyasi nəticələr doğuracaq. Seçkilər ərəfəsində bu addım Paşinyanın mövqelərini möhkəmləndirə bilər". Politoloqun sözlərinə görə, Rusiya Ermənistan daxilində hakimiyyət dəyişikliyi üçün müxalifətə dəstək verməklə sülh prosesini pozmağa çalışır: "Lakin Azərbaycanın bu diplomatik və iqtisadi addımı Moskvanın bölgədəki təsir imkanlarını ciddi şəkildə zəiflədə bilər. Azərbaycan və Ermənistan arasında de-fakto sülhə nail olunduğunu söyləmək mümkündür. İki ölkənin qarşılıqlı şəkildə nəqliyyat blokadasını aradan qaldırması, regional iqtisadi əlaqələrin genişlənməsinə və Cənubi Qafqazda sabitliyin təmin olunmasına yeni imkanlar açır".

**Vasif ƏLİHÜSEYN**



Faiq QİSMƏTOĞLU
faiqqismetoglu@box.az

# Pulum yoxdu...

**Bu sözləri avtomobil qəzaları zamanı bəzi sürücülər işlədirlər.Hər hansı belə bir sürücü qəza törədəndə yalvarıv - yaxarır və deyir ki, kasıb adamam, pulum yoxdu, məni yola verin! Təbii ki, onları yola verən də olur , yola verməyən də! Əsas məsələ odur ki, qəza zamanı ölüm- itim olmasın!**

**Belə bir hadisə baş versə, yəni qəza zamanı kimsə rəhmətə getsə, kimsə, ağır xəsarət alsa, onda sürücünü vəziyyəti ikiqat ağırlaşır. Bunun da , əsas günahkarı aydındır qəza tötətmiş sürücüdür. Əgər o sürücü nəqliyyat vasitəsini normal sürətlə idarə etsə, yol hərəkəti qaydalarına riayət etməyi bacarsa, belə ağır qəzalar baş verməz.**

**Bəzi adamlar sükan arxasında əyləşən kimi, elə bilirlər ki, avtomobili ən yüksək sürətlə idarə etmək heç bir təhlükə yaratmır.Hər gün respublika ərazisində neçə-neçə yol- nəqliyyat hadisəsi baş verir. Məhz bunların bir çoxu sürət həddinin aşması nəticəsində yaranır! Ölümlə nəticələnən qəzalarda sürücü ilə zərər çəkmiş arasında əksər vaxt xoşagəlməz anlar yaşanır.Bəzən də zərərçəkmişlər ondan elə şeylər tələb edir ki, gedib həbsxanada cəza çəkmək deyilən pul məbləğin verməkdən daha yaxşı yoldur.Hadisələr acı bağırsaq kimi, elə hey uzanır.**

**İllah da sürücü imkanlı adam ola! Və zərərçəkmiş adam onu soğan qabığı kimi soyacaq, anasından əmdiyi südü burnundan gətirəcək və o, dediyi məbləğ almasa, istintaq orqanlarına bağışlanma ərizəsi verməyəcək! Onu da qeyd edək ki, tərs sürücü də var, tərs zərərçəkmiş də! Belə anları yaşamamaq üçün sadəcə olaraq yol hərəkəti qaydalarına əməl etmək lazımdır! Nə başqasının maşın vurub əz, nə də hansısa, piyadanı vurub get! Sükan arxasında əyləşmək hər bir sürüdən son dərəcə yüksək məsuliyyət və diqqət tələb edir. Diqqətli olun ki, danışdığımız bu hadisələr sizin başınıza gəlməsin!!!**

## *Sağol, Fikrət!*

**Park , bağ salmaq çətindir,amma onu qoruyub saxlamaq ondan da çətindir. Gözəl bir park tikirlər, orda Cənnət yaradırlar, ancaq bəzən bir müddət keçdikdən sonra baxımsızlıq üzündən o park məhv olub gedir. Burada bir atalar sözü yadda düsür : " Bağa baxarsan bağ olar, baxmazsan dağ".**

**Bakının Suraxanı rayonunun Yeni Günəşli qəsəbəsində " Fatimeyi - Zəhra" məscidinin yanında gözəl bir park tikilib və insanların istifadəsinə verilib.Məscidin və parkın açılışında cənab Prezident İlham Əliyev özü iştirak edib. Doğurdan da bu parkının öz gözəlliyi var; bir- birinə bənzəməyən ağaclar , güllər, çiçəklər , yaşıl otlar... Hələ**



**biz oturacaqları,gecələr bərq vuran işıq lampalarını demirik... Və buların hamısı parka əsrarəngiz bir gözəllik verir...Parkın bağbanı isə Qarabağ qazisi Fikrət qardaşımızdır! O, bu gözəlliyə adi bağban kimi baxmır.Ona balası kimi, göz bəbəyi kimi baxır. Hər gün səhər saatlarında gəlib bütün yaşıllıqları, ağacları suvarır.**

**Tullantıları bir- bir yığıb toplayır, sonra isə tullantılar parkdan çıxarılır. Oktyabrın 18- də yenə səhər saatlarında onun parkda işlədiyini gördüm. Gördüm ki, bəzi ağacların lazımsız budaqlarını təmizləyir və səliqə ilə bir yerə yığır. Sonra da yanındakı adamlar həmin tullantıları toplayıb parkdan kənara aparır. Bu parkda istirahət edən adamlara , eləcə də mənə çox xoş oldu.Ona görə də , hamımız bir ağızdan dedik: " Çox sağol, Fikrət!" O isə dillən-di:" Bu, mənim borcumdur!" Fikrət qardaşımız, kaş hamı sizin kimi öz vəzifə borcuna belə məsuliyyətlə yanaşaydı! Bax , onda bütün parklar, xiyabanlar, bağlar Cənnətə dönərdi!!!**

**EMİL FAİQOĞLU**

## *Bəhmənlinin futbol stadionu...*



**Azərbaycanda futbolu inkişaf etdirmək üçün hər rayonda, hər qəsəbədə, hər kəndə birmənalı olaraq stadion olmalıdır. Və orda məhəllə futbolu, uşaq futbolu inkişaf etməlidir.**

Çünki uşaq futbolu inkişaf etməkdən böyük futboldan danışmağa dəyməz.Bütün məşhur futbolçular uşaq futbolundan böyük futbola gəliblər.Ona görə də, bu gün ölkəmizdə uşaq futbolunun inkişafına ehtiyac çoxdur. Füzuli rayonunun Böyük Bəhmənli kəndində də həmişə futbolun inkişafına önəm verilib. Ona görə Bəhmənli futbol komandası rayon üzrə keçirilən yarışda birinci yerə çıxıb. Və yüksəkiş gəncləri bir qədər də ruhlandırıb.

Füzüli şəhərinin və kəndlərinin erməni işğalından azad edildiyi gündə- yəni oktyabrın 17- də Böyük Bəhmənli kəndində futbol stadionunun təməli qoyulub.Bu barədə qezetimizə Allahyar Əliyev adına tam orta məktəbin direktoru, gözəl ziyalı Həsən Rzayev məlumat verib. Həsən müəllim deyir ki, biz bu günü çoxdan gözləyirdik.

Bu işdə kəndimizin Rusiyada yaşan iş adamları və eləcə də, başqa insanlar belə xeyirxah işə dəstək olublar. Belə bir gözəl addımın atılması tək futbolsevərləri yox, bütün kənd camaatının sevincinə olub. Allahın köməkliyi və yaxşı insanların dəstəyi ilə Bəhmənli futbol stadionu tezliklə tikilib istifadəyə veriləcək . Burada biz möhtəşəm futbol oyunlarının şahidi olacağıq!!!

## *Payız ayları...*



**Payız aylarında meyvələr daha çox olur. Xüsusilə də, alma, armud, nar, xurma, şatalı bu aylarda yaxşı yetişir və dadlı olur. Və buna heç kimin sözü yoxdu.**

Amma camaatın sözü onadır ki, ötən daha ucuz olan üzüm, mandarin, naringi, limon indi baha qiymətə satılır. Onları rayonlarda fermerlər ucuz qiymətə satırlar, ha! Ancaq Bakıya gəlib çıxana qədər bu məhsullar əldən- ələ keçir və dəfələrlə qiymət artımı olur!

Məsələn Astaradan olan fermer Nazim Aslanov deyir ki, biz məhsulumuzun bir kiloqramın hazırda 40- 50 qəpiyə satırıq. Hətta bəzən mandarini, limonu ondan da ucuz veririk. Amma eşidirik ki, Bakıda onu ikiqat artıq qiymətə satışa çıxarırlar. Bax, bu ədalətsizlikdir.

Biz ilboyu əziyyət çəkib, qəpik- quruş qazanırıq, lakin işbazlar nə yoğurur, nə yapır, yaxşı pul qazanırlar.Göründüyu kimi, payız fəsli olsa da, bolluq yaransa belə yenə işbazlar meyvələrin qiymətlərinin aşağı düşməsinə imkan vermirlər və nəticədə aztəminatlı ailələrin büdcəsinə ziyan dəyir!

## *Dabaq tutmuş heyvanları ucuz qiymətə alıb, Bakıya gətirirlər*

**Xeyli vaxtdır ki , bir çox rayonlarda iribuynuzlu heyvanlarda dabaq xəstəliyi yaranın. Bu barədə ayrı fermerlər kütləvi informasiya vasitələrinə məlumat veriblər.**

Onlarin dediyinə inansaq artıq mal- qaranın çoxu bu xəstəlikdən qırılıb.Edilən müalicələrin heç bir köməkliyi yoxdur. Fermerlər isə yardım məqsədilə müxtəlif qurumlara müraciət ediblər, ancaq bunun da elə bir yaxşı nəticəsi olmayıb. Xəstəliyə tutulan heyvanlar dilindən yara çıxır, ağzından su axır, heç nə yemir və bir neçə gündən sonra ölürlər. Artıq vaxtında tədbir görülmədiyinə görə, bu xəstəlik respublikamızın əksər rayonlarında heyvanlar arasında yayılıb.

Çox təəssüf ki, Kənd Təsərrüfatı Nazirliyi də kəndli fermerlərə lazımi köməkliyi göstərə bilmirlər. Biz başa düşmürük adı olub, özü olmayan nazirlik kimə lazımdır. Əgər dabaq xəstəliyinin tüğyan etdiyi bir vaxta kəndliyə məlum qurum arxa dura



bilmirsə, bəs onda bu nazirlik kimə lazımdır? Amma kənd təsərrüfatı naziri də var, nazir müavinləri, baş idarə rəisləri də ! Heyvanlarına əlac tapılmayan fermerlər isə çıxılmaz vəziyyətə düşüblər.

Və onların Allahdan başqa heç kimə ümidləri qalmayıb! Deyilənlərə görə, ayrı- ayrı şirkətlərə məxsus yük maşınları xəstə heyvanlar olduğu rayonlara gedir, o mal- qaraları ucuz qiymətə alaraq kəsib ətləri bazarlara , yeməkxanalar, dönərxanalra paylayırlar. Bunun isə nə dərəcədə təhlükəli olduğunu hamı yaxşı bilir.

Amma bu işlə məşğul olan işbazlar belə cinayət əməllərindən çəkinməlidir. İnsanlar isə artıq ehtiyat edib ət köşklərindən, bazar- dükandan ət almaq istəmirlər. Deyirlər ki, bir- iki ay keçsin, baxaq görək nə olur?

## *Atmosferə normadan artıq zərərli qazlar atılırsa...*




**Oktyabrın 20-dən noyabrın 20-dək respublika ərazisində "Təmiz hava" aylığı keçirilir.**

Bu gün dünyada atmosferin çirkləndirilməsinin qarşısının alınması üçün çox böyük layihələr həyata keçirilir. Eyni zamanda respublikamızda da bu problemlər daim diqqət mərkəzindədir. Ona görə də, atmosferin çirkləndirilməsinin qarşısının alınması üçün Dövlət Proqramı uğurla davam etdirilir. Həmin Proqramın tərkib hissələrindən biri də Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə birlikdə Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsinin ildə iki dəfə keçirdiyi " Təmiz hava" aylığıdır.

Təbii ki, bu tədbirlər təmiz havamızın qorunmasında önəmli əhəmiyyət kəsb edir! Bu nöqteyi-nəzərindən bu tədbirlərin gerçəkləşdirilməsi çox zəruridir! Əlbəttə, bütün bunlar insanların sağlam həyat tərzi yaşamasına əsaslı kömək köstərir. Bax bunu görə də respublika ərazisində oktyabrın 20-dən noyabrın 20-dək hər iki qurumun nümayəndələrinin birgə iştirakı ilə " Təmiz " hava " aylığı keçirilir.

Bu məqsədlə artıq tədbir başlamazdan öncə Baş Dövlət Yol Polisi İdarəsinin əməkdaşları sürücülər,eləcə də fiziki, hüquqi, vəzifəli şəxslər arasında izahat aparmağa başlayıb. Müxtəlif istehsalat sahələrinin rəhbərləri, avtomobil qarjlarının vəzifəli şəxslərinin nəzərini çatdırılır ki, onlar tabeliyində olan şəxslərin nəzərinə çatdırsınlar ki, öz üzərinə düşən vəzifələri vaxtında yerinə yetirsinlər! Baş Dövlət Yol Polisi İdarəsinin avtotexniki müfəttişlik şöbəsinin rəisi, polis polkovniki Xalid Əzimov bizimlə söhbətində bildirdi ki, Oktyabrın 20-dən noyabrın 20-dək respublika ərazisində "Təmiz hava" aylığı keçiriləcək.Bu məqsədlə əvvəlcədən qabaqlayıcı tədbirlər həyata keçiririk.

Belə ki, əməkdaşlarımız istehsala sahələrində, böyük avtomobil qarjlarında olur, sürücülər arasında səmimi söhbət aparır, maarifləndirmə işləri görür. Hər bir sürücünün nəzərinə çatdırır ki, nəqliyyat vasitələrini saz vəziyyətdə saxlasın, mövcud nöqsanları vaxtında aradan qaldırsınlar. Texniki cəhətdən nasaz avtomobillər təkcə atmosferə normadan artıq zərərli qazla atmır, həm də yolda sıradan çıxanda digər avtomobillər üçün qəza şəraiti yaradır. Heç şübhəsiz, göstərdiyimiz bu nöqsanları sürücülər daim diqqət mərkəzində saxlamalıdır.

**Çünki yolda sıradan çıxan və təhlükəsizlik tədbirləri görən məsuliyyətsiz sürücülərin səhlənkarlığı üzündən ölümlə nəticələnən ağır yol-nəqliyyat hadisələri baş verib.Birmənalı olaraq deyə bilərəm ki, oktyabrın 20-dən noyabrın 20 - dək keçiriləcək"Təmiz hava" aylığı göstərdiyimiz problemlərin həllində önəmli rol oynayacaqdır.Ona görə də , bir daha sürücülər diqqətli olmalı,yol polisinin tövsiyələrinə əməl etməlidirlər!!!**



**EMİL FAİQOĞLU**



Məzahir ƏHMƏDOĞLU

# MURADIN KÖHNƏDƏNQALMA SAMOKATI

## (Murad Köhnəqalanın gəlişi münasibətilə təkrar dərc)

**... Məsələ burasındadır ki, bu il IV sinfə gedəcək nəvəmin yığılıb qalmış qəzet-jurnalları arasından tapıb çıxardığı və tez-tez dodaqları qaça-qaça oxuduğu həmin o qəzet köşəsi də ən azı iki ay bundan qabaqkı bir əhvalat idi. Nəvəm vunderkind-zad deyil, sadəcə jurnalist olduğumu anlayan və bəzən də bizə gələndə yazılarımı tapıb ucadan oxumağı ilə özünəməxsus münasibətini bildirən müasir uşaqdı. Özü də tək mənim qəzetimi oxumur, harda şəkilli yazı (köşə) görürsə, heç olmasa, bir-iki abzas oxuyur, bəzən həm də gülür. Bilmək olmur, müəllifə, o cümlədən babasına gülür, yoxsa məqaləyə.**

**Bu dəfə isə həm gülümsəyir, həm də ciddi görkəm alırdı. Əlindəki qəzetdən qoşa səhifəni aralayıb gözlərimin önünə tutaraq soruşurdu:**

**... Bu kepkalı əminin məqaləsini oxumusan, düzünü de oxumusan?..**



**Məqsədini elə o anda bilməsəm də razılaşdım ki, bəli oxumuşam. Onsuz da istədiyi cavabı almasaydı köşəni mənə zorla oxutduracaqdı.**

**Mən hər gün orta hesabla 6-7 qəzet alır, ala bilmədiklərimi də müəyyən vasitələrlə izləyirəm. Öz qəzetimi on illərdir ki, nömrələyib tikirəm. Qalan qəzet-jurnalları da mümkün qədər ora-bura yığıb saxlayıram. Yəqin təkcə mən belə etmirəm, başqa həmkarlarımı da nəzərə alıram. İndi ay uşaq, sən də gəl yüzlərlə qəzetin içindən yazar qardaşımız Murad Köhnəqalanın köhnədənqalma bir köşəsini tap çıxar və oxuyub babanı xəsislikdə, bəlkə də başqa bir "vkus"da günahlandır ki, iş bilmişəm. Muradın incə bir yumorla, bəlkə də sarkazmla yazdığı köşənin mənasını nəvəm, təbii ki, olduğutək anlaya bilməzdi. Burada onun diqqətini cəlb edən başlıqdakı "Samokat" sözü olmuş və oxuduqca da Murad əminin özünün də yazı boyu samokat "sürməsi" onu heyrətləndirmişdi.**

**O, öz uşaq təxəyyülü ilə mənə sübut etməyə çalışırdı ki, mənim ona "sən daha yekə oğlansan, samokat sürən vaxtın deyil" öyüd-nəsihətim almaq istəməməyimin bəhanəsi imiş. Uşaq məndən yay tətili üçün samokat istəmişdi ki, hərdən düşüb həyətdə sürsün. Mən də buna qıyımsızlıqdan deyil, ehtiyat etdiyimdən razı olmayıb "daha yekə oğlansan" demişdim. Çünki atasının elə o yaşlardan samokata, velosipedə, rəis oğlu olduğuna görə sürücülük vəsiqəsiz-filansız maşına meylliyi, müəyyən məqamlarda hətta avtoşluq etməyi barədə əhvalatlar eşitmişdim. Doğrusu, qorxurdum bu samokat məsələsindən. Çünki həyətdən qıraqda bağ var, bağın o tərəf-bu tərəfində də "Gənclik"ə doğru maşınlar şütüyən basırıq yollar, hətta qəfil peyda olan avtobuslar...**

**Sevimli Murad bəy tamam ayrı əhvalatdan yazsa da, bizim bu dirənc uşaq bir məsələnin üstündə ayrıca dayanıb durmuşdu: kepkalı əminin samokatı var!!! Sonra da qəsdən mənə təkrar-təkrar izah edirdi ki, kepkalı əmi özü yazır samokatla disk axtarmasını, metroya girməyini, "vosmoya" getməyini, bazara çatanda tormoz verməyini... Samokatnan gəzir da hər yanı!**

**Çətinə düşmək bax buna deyərlər. Mən hətta çətin nədir, oyuna düşmüşdüm. Çünki uşağa heç cür izah edə bilməzdim məsələnin əsl mahiyyətini. Əksinə, uşaq Murad bəyin "samokat sürmək" fantaziyasını bir az da qabarıqlaşdırıb köşəyə həmmüəllifik iddiasında idi. Deyirdi ki, əmi samokatı ona görə bütün şəhərdə belə bərk qova bilir ki, sürməyə başlayanda kepkasını tərs qoyur, bax bu cür (başındakı günlüyü tərsinə çevirərək əyanilik yaradır). Köşədə isə Murad belə bir təsvir verməyib , nəvəmin özünəməxsus fantaziyasıdır bu. Uşağı başa salmağa çalışıram ki, bu, köhnə qəzetdir, həm də dərslərin başlanmasına az qalır, sən gəl bu 20-25 günü kitab-dəftərinlə məşğul ol, ağıllı balam!**

**Ağıllı balam razılaşmır. Özünə sərf edən asan yol tapır deyir ki, sən samokat al, 4-5 gün sürüb qoyacam atamın qarajına, bir də gələn yay çıxaracam. Əlacım qalmır...**

**Samokatı aldıqdan sonra təşəkkür edib boynuma sarılan nəvəm bic-bic gülümsəyərək bu sözləri deməyi də unutmur: "Babacım, o kepkalı əmini görəndə de ki, biz onu çox sevirik...**

# Bir yuxunun şöləsi

**Bir neçə gün öncə, gecənin dərin qatında, yuxunun astanasında tanınmış şair Qulu Ağsəsi gördüm...**

Şair sükutun içində əyləşmişdi.

Önündə böyük bir çıraq yanırdı. Amma bu adi işıq deyildi.

Şairin pıçıldadığı hər söz, çırağa toxunurmuş kimi şölələnir, qığılcımlanır, havada əriyib nur olurdu. Onun hər misrası alova çevrilir, ürəyindəki sözlər tüstülənən çıraqda əriyib ruhumu aydınladırdı.

O danışdıqca, sanki söz deyil, səmadan süzülən ilahi bir zər seli idi. Hər kəlməsi dilsiz bir dua kimi, qaranlığın içində işıq yoluydu.

Çıraq tüstülənirdi...

Bəlkə də bu, şairin içindəki dərdin, ruhundakı iztirabın görünən sədasıydı.

Mən susub ona baxırdım. O, isə sözün nə qədər müqəddəs bir alov olduğunu sübut edirdi...

Şair qeybdən gələn səs kimi əks-səda ilə pıçıldayırdı...

Mən əks-sədanın təsirində, yuxu ilə gerçək arasındaydım...

Oyandım və həmən, şairin şeirlərinə baş vurdum. Tanış misraların ziddinə bu qədər getməmişdim bu vaxtacan. Bu yuxu məni qaranlıqdan işığa doğru apardı. "Ələddinin sehirli çırağı"nı xatırladım, amma bu o səsin işığı, sehri idi...

Mən bir neçə şeir tapdım və şeirləri diqqətlə oxumağa başladım.

Qulu Ağsəsin özünəməxsus poetik dünyasının səsini dinləmiş oldum. Elə ilk oxuduğum fəlsəfə dolu şeir oldu. Şeirin hər bəndində duyduğum səsi yazmaya bilmədim:

*"Görsən ki, qaranlıq çökür aləmə,*
*Görsən ki, axşamdı fikir eləmə.*
*Bir uçuq yuxudu gecənin boyu*
*Nə qədər imkan var rahatlan, uyu..."*

Şair bu bənddə gecəni, qaranlığı, axşamın çöküşünü təbii və labüd bir hal kimi qəbul edir və oxucuya "fikir eləmə", yəni tələşa düşmə mesajı verir. Gecə müvəqqəti bir "yuxu" kimi təqdim olunur. Yəni çətinliklər, qaranlıq anlar keçici və yuxu kimidir. Bu bənd təskinlik və təmkin aşılayır.

Sonrakı bənddə:

*"Qəflətən bir çağa salar hay-həşir*
*Səhər - körpəsidi doğan Günəşin.*
*Onu ovutmağa tələsər hamı,*
*Beləcə, salarlar yenə axşamı..."*

Burada səhər yenidən doğan ümid, başlanğıc, işıq kimi təqdim olunur. Günəşin "körpəsi" deyimi çox incədir, səhər yeni doğulmuş, səs-küylü, təlatümlü bir körpə kimidir. Hər kəs onu "ovutmağa" çalışır, yəni hər kəs öz gününü qurmağa, həyatın tələblərinə cavab verməyə çalışır. Ancaq bu səyin sonu yenə axşamla nəticələnir - həyatın dövranı, fəsillərin dəyişməsi, zamanın axarı dayanmır. Hər doğan səhər gecəyə çevrilir və bu da zamanın faniliyinin poetik təsviridir.

Nəhayətində isə deyir:

*" Təzədən qaramat basar dünyanı,*
*Hanı doğan Günəş?körpəsi hanı?*
*... Görsən hər tərəfdən əlin üzülür,*
*Görsən üşüyürsən...yandır özünü..."*

Bu bənddə isə ümidsizlik, qaranlığın qayıdışı, tənhalıq hissləri güclənir. "Hanı doğan Günəş?" sual təkcə fiziki deyil, həm də mənəvi boşluğun ifadəsidir. Bu zaman şairin çox güclü fəlsəfi çağırışı gəlir: "yandır özünü" bu özünü alışdır, yəni içində işıq yarat, ümidi, ruhunu oyat deməkdir. Başqalarından ümid kəsiləndə öz içindəki işığa sarıl. Sonuncu misradakı "yandır özünü" fikri ilə şeir kəskin fəlsəfi sonluğa çatır və oxucunu düşünməyə vadar edir.

Böyük şair Qulu Ağsəs bu şeirdə həyatın ziddiyyətlərini, işıq və qaranlıq, rahatlıq və təlaş, ümid və ümidsizlik arasında insanın mövqeyini poetik dillə təqdim edir. Ən çətin anda belə, ümidi içində axtarmağı təlqin edir. Bu, həm fərdi, həm də universal bir çağırışdır. Hər bir nsan öz içindəki Günəşi yandırmalıdır.

Sonrakı şeirlərin biri şairin ən çox sevdiyim şeiri oldu:

*"Canım-gözüm, şükür de ki,*
*Ölsən də başın üstdəki -*
*Pəmbə buluddu, daş deyil..."*

Şair deyir: "Şükür et, çünki başımızın üzərindəki göy, yəni tale, sərt daş yox, yumşaq pəmbə buluddur." Bu, taleyin hələ də ümidverici və yumşaq olduğunu, tamamilə daşlaşmadığını göstərir. Yəni, həyat nə qədər çətin olsa da, ümid var.



*"Sevməyi var, sancmağı var*
*Baxma hərdən uçmağı var -*
*Ürək yuvadı, quş deyil..."*

Musealaeda sevginin həm gözəlliyi, həm də ağrısı vurğulanır. "Ürək yuvadı, quş deyil" misrası çox dərin bir deyimdir. Ürək yuva kimidir, davamlılığı və sabitliyi var, ancaq quş kimi uçub qaçmaz. Bu, sədaqətin, bağlılığın ifadəsidir.

*"Neynəyərəm görən sənsiz?!*
*Ha istədim öləm sənsiz*
*Baxdım ki, mənlik iş deyil..."*

Ayrılığın, sənsizliyin ağrısından dərd edir şair. Ölüm istəyi olsa da, bu ağrını belə yaşamaq ona yazılıb. Yəni sevgi o qədər güclüdür ki, ondan qaçmaq, onu unutmaq mümkün deyil. Ayrılıq düşüncəsi belə çarəsizliklə nəticələnir.

*"Bu da mənim baxtımdandı,*
*Gözüm Tanrı taxtındadı*
*Onun da yeri boş deyil..."*

Axırıncı bənddə şair taleyi qəbul edir: "Bu da mənim alın yazımdı." Amma ümidi də Tanrıdadır.

"Onun da yeri boş deyil" misrasında bir az ironiya, bir az da qismətin doluluğunu ifadə edir. Tanrı hər şeyi görür, bilir, yerindədir. Amma bəlkə də, hamı kimi şair də ona ümid edir, amma cavab gözləyir.

Şair bu şeirdə sevgidəki ağrını, taleyin oynadığı rolları və insanın daxili çarəsizliyini öz dilində ifadə edir. Sevgi həm yuvadır, həm də sancıdır. Taleyə ümidlə baxmaq var, amma həm də boyun əymək... Sonda isə bütün dualar Tanrıya yönəlir, çünki nə ürək qaçır, nə də tale dəyişir... Şairin daha bir tək bəndi çıxdı qarşıma, bəlkə bir neçə bənddi, amma mən tək bu bəndi oxudum:

*"Heç yanı ağrımaz sevgi vurmuşun,*
*Budanmış ağacam,qurumuş suyam.*
*Hərdən bir səs eylə ay cənnət quşu,*
*Bilim cəhənnəmin harasındayam"*

Bu bənd Qulu Ağsəsin özünəməxsus üslubunu, poetik sərtliyini, ironiyasını və sevgi ilə ölüm, səssizlik və haray arasında qalan daxili təlatümünü aydın şəkildə əks etdirir.

Sözün çəkiciliyinə bax:

*"Heç yanı ağrımaz sevgi vurmuşun"*

Şair sevginin vurduğu adamın ağrıya, acıya alışdığını, artıq heç bir yerinin "ağrımadığını" deyir. Bu, həm fiziki, həm də mənəvi hissin itməsi kimi yozula bilər. Sevgi insana elə bir zərbə vurub ki, o, duyğular baxımından uyuşub artıq heç nə hiss etmir.

*"Hərdən bir səs eylə ay cənnət quşu"*

"Cənnət quşu" ümidin, xilasın, nurun simvoludur.

Şair Tanrıya, mələyə, və ya daha mücərrəd bir ruha müraciət edir. Hərdən səs ver, bir işarə ver, həyatımın tam susqunluğunda bir titrək nəfəs kimi...

Qulu Ağsəs yaradıcılığı sevgidən doğan dərin boşluğu, insanın daxili əriyib yox olmasını, həm ruhən, həm mənən aşılayır oxucusuna...

Hər misra ayrıca sevginin romantikliyindən çox, onun dağıdıcı, əzici tərəfinə tutulan poetik güzgüdür.

Şairin hansı şeirinə baş vursan təsirindən çıxmaq olmur:

*"Dilimdən düşmür bir ad"*
*....nöqtələr...*

Burada şairin içində daşıdığı, unutmadığı, bəlkə də çəkdiyi bütün iztirabların qaynağı olan bir insanın adı var. Ad çəkilmir, amma bütün şeirdə onun varlığı hiss olunur. Mən "nöqtələr"i nöqtələrsiz oxudum və çalışdım ki, o boşluğa öz fikrimi yerləşdirim:

*"Tanrıdan gözəl cəllad"*

Qeyri-adi bir təsvirdir: Həm gözəl, həm cəllad. İnsan Tanrını gözəllik və mərhəmətlə bağlayır, amma burada "gözəl" olan məhv edəndir. Şairin sevdiyi şəxs həm ilahi qədər gözəl, həm də onu məhv edən qədər amansızdır.

Şeir haqqında uzun danışmaq olar. "Nöqtələr" burda həm gizlədilən, həm oxucuya buraxılan, həm də başa çatdırılmayan fikirlərin ifadəsidir. Bu, şeiri açıq sonlu edir və hər kəs öz içindən gələnə görə bu "nöqtələri" doldura bilər...

Şair deyir ki, sevgi bəzən yaşadan yox, öldürən olur. Fədakarlıq gözəldir, amma hər sevgi qarşılıqlı olmur. Şair bu ziddiyyətin içində sevgini itirməkdən çox, ona yük olmaqdan qorxur...

Belliklə, sözü, özü, düşüncəsi fərqli, səsinin rəngində belə bəmbəyaz bir sehr olan şair, Qulu Ağsəsin bir neçə şeirini necə deyərlər, ələk-vələk edib, eşitdiyim səsi, gördüyüm rəngləri və duyduğumu yazdım...

Mən çağdaş ədəbiyyatımızın parlaq "Ulduzu", hörmətli Qulu Ağsəsə söz aləminin ən yüksək zivəsini fəth eyməyi arzulayıram...

**Əfşan Yusifqızı**
**AYB-nin üzvü**



Əbülfət MƏDƏTOĞLU
madatoglua@mail.ru

# GÜN KEÇDİ...

## Bəs sevgi?..

Axşam göy üzü elə qarışmışdı ki, hətta ulduzlar da görünmürdü. Elə qatı bir qaranlıq hakim kəsilmişdi ki, sanki yerlə göy birləşmişdi. Çünki yerdə də qatı duman var idi. Mən bu mənzərənin içərisində ürəyimin sıxıldığını bir kənara buraxıb gözümü ayağımın ucuna zilləmişdim. Sanki bütün bu anın günahkarı ayaqlarım idi. Amma...

Belə bir müdrik kəlam var. Aqillər deyib ki, ürək istəyən yerə ayaq yüyrək gedər. Deməli, bu qaranlığın hakim kəsildiyi gecə mənim nə ürəyimin, nə də ayağımın istəyi idi. Bu, sadəcə payız fəslinin bir şıltaqlığı, üzü qışa doğru atdığı bir addım idi. Və mən də payızın yarpaq tökümünün ağrılarını içimdə üyüdə-üyüdə, yaddaşımda yarpaq-yarpaq ovuda-ovuda nə edəcəyimi, nə deyəcəyimi qərarlaşdırmaq istəyirdim. Lakin alınmırdı, gücüm çatmırdı, elə bil ki, əlim-qolum bağlanmışdı, elə bil ki, dünyanın sonu idi. Bir anlıq dünyanın sonunun yaxınlaşdığına inandım. Çünki yaşadığım məhəllədə, hətta avara, sahibsiz küçə itlərinin də səsi gəlmirdi ki, həyat əlaməti hiss edəydim. Sükut və qaranlıqdan başqa bu anıma heç nə hökm edə bilmirdi. Birdən...

Telefonuma zəng gəldi. Sanki qaranlıqda qığılcım çaxdı. Danışdıq, əhvallaşdıq və soruşdum ki, səsin də qəribdi, özün də yad adam kimi danışırsan. Nə olub, nə baş verib? Sual yağışının altında lal olsan da, amma düzünü deyim ki, bu telefon zəngi bir azca ümid oldu, bir azca işıq oldu, bir azca yaşamağım üçün ipucu verdi. Və mənə anlatdı ki, hələ dünyanın sonu deyil. Bax, mən də bu anın ovqatını elə telefona pıçıldadım.

*Bir azca tənhalıq var,*
*bir azca da inciklik...*
*Bir az da uzaq durub -*
*axtardığımız dinclik!*
*Bu bir azlar məngənə*
*səssizcə sıxar ruhu...*
*Ürək keçir cənginə -*
*həmi də qaçır yuxu...*

*Bir az fikir dolaşır,*
*bir az da xəyal küsür...*
*Nə dinir, nə danışır -*
*hətta divar da susur...*

*...Bir azca səsin gələ,*
*özün də bir az yaxın...*
*Onda siz pəncərəmdən -*
*bir azca mənə baxın!..*

Bəli, bu misraları yaza-yaza içimdə baş qaldıran bir sual var. Üz-üzə dayanıram. O sual da zamanla bağlıdır. Yəni insan ovqatı zamandan qidalanır. Hadisələrdən bəhrələnir. Bax, bu üzdən də mən bir anın pıçıltısını payızın qış qapısında dayanmasından bir sarı yarpaq kimi dərdim. Və ovcumdan sürüşüb düşən o sarı yarpaq mənə ötən, artıq tarixləşən bir günün mənzərəsi oldu. Deməli, BİR GÜN də keçdi. Elə bu sözün arxa qatında məşhur bir filmimizin adı da yaddaşımda təzələndi. Şəxsən mənim sevə-sevə izlədiyim "Gün keçdi" filmi. O filmin qəhrəmanı Oqtayın (yəni baş rolun ifaçısı Həsən Məmmədov) və bir də Əsmərin (Leyla Şıxlinskaya) yaratdıqları səhnə bir həyat gerçəkliyidir, birpərdəli, hardasa ilğımı xatırladan uzaq bir sevginin əks-sədasıdır. Həmin o günün içində o uzaq sevgi bizə yaxın gəlir, bizimlə təmas qurur və uzaqdan gəldiyi üçün, ilğım olduğu üçün, zamanında qarşılıq almadığı üçün yenə qoşulur keçən günə. Beləcə, BİR GÜN özüylə bir sevgini də aparır. Sizi deyə bilmərəm, mən gün keçdi deyə bilirəm, amma sevgi keçdi deyə bilmirəm. Axı günün keçməsi ayın, həftənin, ilin, konkret ölçülü zaman kəsiyini özüylə aparır, yeniləyir, amma gerçək sevgini zaman alıb apara bilmir. Onu ya nağıla, ya da dastana çevirir. Və beləcə yaşadır. Mən də bu yaşamın içində günün keçməsini istəmirəm. Çünki insan durduğu yerdə, oturduğu yerdə, ümumiyyətlə, olduğu yerdə özünü təsdiqləyə bilirsə, özü olduğuna çevrəni inandıra bilirsə, o yeri, o çevrəni dəyişmək heç vaxt ağlımın ucundan da keçməyib. Bunu ona görə xüsusi vurğulayıram ki, bir bəndə olaraq həmişə olub-keçənləri özümdə, iç dünyamda, yaddaş kartımda saxlamağa, yaşatmağa çalışmışam və hələ də çalışıram.

Bu günlərdə qəribə bir hadisə yaşadım. Yanından ötüb-keçdiyim məscidin qarşısında bir anlıq dayanıb əlimi Tanrıya açıb dünyasını dəyişən dostlar, doğmalar üçün adbaad dua etdim. Duanı dinləyən ən yaxınım titrək səslə dedi ki, deməli, dostlarının əksəriyyəti artıq köçüb. Özü də o dostlar ki, onlar sənin üçün alınmaz qala idilər. Sözləri söz, şəxsiyyətləri də yerində...

Bu, gerçəkdi. Və mən gerçəyi bir daha etiraf edim ki, hətta o dostlarımın mobil nömrələri də telefonumdan silinməyib. Və hər dəfə həmin nömrələrdən dostlarımın övladlarının hansı biri



zəng vuranda mən yenidən dostlarımın səsini yenidən eşitmək ümidi ilə açıram telefonu, qoşuluram xəttə.

*Ağlıma yüz fikir taxdım*
*Saqqala, həm bığa baxdım...*
*Baxdıqca əridi vaxtım -*
*Gün keçdi...*

*Səsləndim, çatmadı səsim*
*Külək deyildim ki, əsim!..*
*Ayaq tutanda həvəsim -*
*Gün keçdi...*

*Xaldı dizimdə döyənək*
*Sinəmdə yumruq - dəyənək...*
*Düşündük... bəlkə bəyənək?! -*
*Gün keçdi...*

*Səndən sevgini umunca*
*Ömrümün adın duyunca...*
*Gözümü açıb-yumunca -*
*Gün keçdi!*

*Çaxmaq gözləyən fitildim,*
*O qədər zaman itirdim...*
*Bu şeri yazıb bitirdim-*
*Gün keçdi!*

Bir ömürdü, gecəsi də var, gündüzü də, xeyiri də var, şəri də, sevinci də var, kədəri də, olumu da var, ölümü də. Amma bu ömürdə mənə görə ən önəmlisi olum və ölümdü. Çünki biri ilə başlayıb o biri ilə də bitirik. Və hər keçən gün də bizi başlanğıcdan bitəcəyimiz yerə yaxınlaşdırır. Düşünməyin ki, mən yenə yazının əvvəlində xatırlatdığım aqillərimizin deyimini yada salmayacam. Yox, deməsəm namərdlik olar. Axı...

Dedim ki, ürək istəyən yerə ayaq yüyrək gedər.

**Əbülfət MƏDƏTOĞLU**

## Zahid Oruc: "Kimisə "ata"lıqda görməmişik, bizi Rəhbərin gözündən sala bilməyəcəklər"



**Milli Məclisin İnsan hüquqları komitəsinin sədri, Sosial Tədqiqatlar Mərkəzinin rəhbəri Zahid Oruc barəsində yazılanlara münasibət bildirib.**

Adalet.az xəbər verir ki, komitə sədri barəsində yayılan iddiaları "böhtan" adlandırıb:

"36 ildir həyatda olmayan atamın adını da qarışdırıb 25 ildir sədaqətlə və şərəflə gəldiyimiz yola-Ulu öndər Heydər Əliyev və qalib lider İlham Əliyev kursuna, ideallarına xidmətə böhtan və şər yaxılması bizi dövlətimizə, xalqımıza, nəhayət, Qələbəmizə dönmədən, usanmadan, son nəfəsimizədək xidmətdən geri çəkindirə bilməz. 1993-cü ildən bu günədək bir əqidədə olmuşuq-fərqindəyik, çoxları ondan narahat olublar. Üstəlik, bəzən, qələm fəhləliyimizi də çoxları hansısa maraqlarına təhlükə sayıblar. Lakin indi Ramiz Mehdiyevin ağır dövləti cinayətləri və ondan bəhs edən məqalədə üstümüzə atılan böhtanı görəndə susa bilmərik. Kimliyindən asılı olmayaraq, hakimiyyət çevrilişinə cəhd və dövlətə xəyanət ən sərt cəzaya layiqdir. Lakin hər kəs əməlinə özü cavab verməlidir və verəcək. Dövlətə və cənab Prezidentə xəyanət bağışlana bilməz. Ona görə də iki gün əvvəl söylədik: xəyanətin siyasi mənsubiyyəti və yaşı olmur. Xüsusilə xarici kəşfiyyatla əlaqəli baş verən bir qəsdin bəraəti yoxdur.

Lakin 2003-cü ildə dövlətə qarşı daş atanlar indi o silahları sədaqət və ləyaqətlə Dövlətə xidmət edən Zahid Orucun adını ləkələmək üçün atırlar. Bilin və agah olun-alnım o qədər açıqdır ki, heç bir gizli layihədə, görüşdə, xarici kəşfiyyat mərkəzləri ilə əlaqədə, yaxud dövlətimizin əleyhinə planda iştirakımız olmayıb, kimisə "ata"lıqda görməmişik, heç bir şəxsin kölgəsinə sığınıb klan, tayfa, qrup və ya siyasi birlikdə iştirak etməmişik, nəhayət, kiməsə saxta obraz düzəldib onun xəstə planlarına xidmət etməmişik. Heç vaxt ola bilməz  Qanımız və canımızla hamını əmin edirik. Dövlətimizin etimad göstərdiyi sahələrdə fəhlə kimi çalışmışıq: gecə-gündüz, yalnız bir amalla yorulmadan işləmişik.

Bir siyasi əqidədə yol gələrkən, hər zaman möhtərəm cənab Prezidentdən yüksək ehtiram görmüşük. Yüksək ideallarla xidmət üçün bundan böyük dayağımız olmayıb. Qoy kər kəs bilsin - zərrə qədər şübhəsi ola varsa da inansın - mən Zahid Oruc, o böhtanlara əsas verəcək bircə əməlin sahibi deyiləm. Tam əksinə, bir beyin mərkəzinin təmsilçisi və siyasət adamının görə biləcəyi nə varsa, onu etmişik - Prezidentə və Dövlətə ləyaqətlə xidmət. Əmin edirik, bizi böhtan və şərlə Rəhbərin gözündən sala bilməyəcəklər".

**NİCAT**

## Siz də ətrafınızdakı insanları dəyişmək istəyirsiniz?

**Yaşadıqca hər addımda bizi dəyişmək istəyən adamlara tez-tez rast gəlirik. Bəzən tale elə gətirir ki, bizi dəyişmək istəyən insanlarla bir ailədə yaşayırıq. Lakin ən məşhur psixoanalitiklərin də fikrincə, həyatın ən sərt həqiqətlərindən biri də budur ki, insan nə qədər çalışsa da başqasını dəyişə bilmir.**



Biz çox vaxt həyatımızdakı problemlərin səbəbini başqalarında görürük. "Ərim dəyişsə hər şey düzələr", "Uşağım sözə qulaq assa hər şey yoluna düşər", "Dostum məni anlamağı öyrənsə münasibətimiz yaxşı olar"...

Sanki  xoşbəxtliyimizin açarı başqa insanların cibindədir və biz onlardan asılı vəziyyətdəyik.

Əslində isə, ətrafdakı insanları dəyişmək cəbalarımız onları idarə etmək istəyindən doğur. Bizə uyğun davranmayan insanları "düzəltmək" arzusuna düşürük. Amma bu, yanlış mövqedir. Çünki heç kim başqasının layihəsi deyil. Hər bir insan öz daxili dünyasının məhsuludur və onun yaşam tərzi öz seçimidir. Əslində, biz başqalarında nə qədər dəyişiklik tələb edirikse, bir o qədər daxili narahatlıq yaşayırıq. Çünki bütün gücümüzü mümkün olmayan bir şeyə sərf edirik. Bu cür enerji yeyən yorucu mübarizələr isə mənasız və sonsuz konfliktlər yaradır.

Psixoanalitik Ziqmund Freydin fikrincə insanların çoxu dəyişiklikdən instinktiv olaraq qaçır. Çünki dəyişmək "məlum" olan komfort zonasından "naməlum" olan risk zonasına keçmək deməkdir. Bu isə psixoloji müqavimət yaradır. Kimisə dəyişməyə məcbur etmək bu müqaviməti gücləndirir, nəticədə qarşı tərəf ya daha sərt müdafiəyə keçir, ya da üzdə uyğunlaşsa da daxilən narazı qalır.

Bir həqiqəti qəbul etmək lazımdır: heç kim başqasının xoşbəxtliyinə borclu deyil. Yəni, kimisə dəyişməyə məcbur etmək onu itirməyin ən qısa yolu olacaq. Odur ki, öz həyatını və ətrafındakıları yaxşıya doğru dəyişmək istəyirsənsə mütləq birinci növbədə özünü təkmilləşdirməlisən.

Humanist psixologiyanın nümayəndələri, xüsusilə Karl Rocer hesab edir ki, insan yalnız anlayışla qarşılandığı  və empatiya mühitində dəyişə bilər. Bu o deməkdir ki, başqasını dəyişməyə çalışmaq əvəzinə, ona dəyişməsi üçün şərait yaratmaq daha effektivdir.

Məşhur filosof Makiavelli isə bu məsələyə bir qədər radikal mövqedən yanaşaraq baltanı lap kökündən vurub: "İnsanları dəyişməyə çalışmayın, onları olduğu kimi rədd edin!.."

**Murad KÖHNƏQALA**

# *Qəşəm Nəcəfzadə:* "Məmməd İsmayıl da, İsa İsmayılzadə də məni heç vaxt çap etməyiblər"

*İnsan taleyi də yol kimidir. Harda enişi olacaq, harda yoxuş görəcəksən, bəlli olmur. Ancaq insan həyatın bütün məqamlarında çaba göstərmək məcburiyyətində olur. Müsahibim Əməkdar mədəniyyət işçisi, şair Qəşəm Nəcəfzadə də ən çətin anlarında sözün aliliyinə inanan insanlardandır. Özü deyir ki, həmişə çıxış yolum bədii söz olub:*

**-Son zamanlar sevgi şeirlərinizdən daha çox uşaq şeirləriniz sevilir. Sizin üçün sevgi şeirləri yazmaq asandır, yoxsa uşaq şeirləri?**

-İnanın ki, ikisi də bir- birindən çətindir. Bir sevgi şeiri yazmaq çətindir, bir də uşaq şeiri. Düşünürəm ki, nəvə də ilk sevgi kimidir. Məhz bu səbəbdən bu şeirlərin çətinlikləri oxşardır. Başqa mövzularda bir az publisistikaya enirsən, bir az pafos qatırsan, bir az nağılvari nəsə uydurursan. Amma uşaq şeiri və sevgi şeirlərini belə ”aldada bilmirsən”. Digər şeirlərin müəyyən informasiyası - ayrılıq, göz yaşı, hicran olur.  Amma uşaq şeirlərində bu yoxdur.

**-Uşaq şeirində nə var?**

-Uşaq şeirində uşağın özü var. Gərək uşaq uşağa oxşasın. Bəzi adamlar üçün uşaq şeiri yazmaq asandır, amma mənim üçün çətindir. Ona görə onlara asandır ki, onlar özlərini yazırlar,uşaq yox. Uşağı öz düşündükləri kimi danışdırırlar, pafosu gətirib uşağa verirlər. Həmin mərhələdə uşaq özünü gizlədir. Uşaq deyir ki, Ay mənə gülür.

Məsələn, Ayın əksi suyun üzərində düşəndə uşaq deyir ki, Ay suya düşüb. Bir çox belə misallar çəkmək olar. Uşaq demir ki, mən əlaçı olacam, mən ”5” alacam. Yəni, uşaqlar daha çox xəyallarla yaşayır, qətiyyətlə yox. Əsl uşaq şeiri yazmaq çətindir.

**- Sizi həmişə gənc yazarlara dəstək olan insan kimi tanımışıq.  Bəs sizin gəncliyinizdə yolunuzu kəsənlər çox olub?**

- O qədər

**-Məsələn?...**

-Məmməd İsmayıl məni heç vaxt çap etməyib. Çünki bəyənmirdi. İsa İsmayılzadə də məni bəyənməyib deyə çap etməyib. O zamanlar onlardan nəsə soruşmaq üçün də bir ”boyum” yox idi. Sadəcə şeirləimi götürüb gedirdim.

**-Bəs Sabir Rüstəmxanlı?**

-Sabir Rüstəmxanlı mənim yaradıcılığımı bəyənib, hətta ilk kitabımın çap olunmağına kömək edib.

**-Bir zamanlar o da yolunuzu kəsənlər sırasında olub?**

-Yox, sadəcə elə olur ki, insan insanı gec tanıyır. Əvvala adama inanmırlar, sən özünü sübut edəndən sonra qiymətləndirirlər.

**-Doğrudanmı bəzi insanlar üçün özünüzü sübut etməyə məcbursunuz?**

- Bu, çoxları üçün belədir. Amma mənim üçün elə deyil. Arzu Əliyarqızı adlı yazar var, Cəlilabadın hansısa kəndində yaşayır. O, şeirlərini mənə göndərdi, jurnalda dərc olunacaq. Mən ona demədim ki, bu qız tanınsın, digər dərgilərdə çap olunsun sonra biz dərc edək. Ancaq əvvəllər belə deyildi. Heç kəs kənddə oturub şeir yazan bir gənci dərc etmirdi. Məndən soruşanda ki, sənə yol göstərən, xeyirxahın kim olub? Mən heç kəsin adını çəkə bilmirəm.

Bu yerlərə gəlmək üçün bir az iradə, dözüm lazımdır. Heç vaxt ruhdan düşməmişəm. Bu halı özümdə hiss edən kimi uşaq şeiri yazmışam. Sonra keçmişəm hekayə yazmağa, daha sonra esseyə üz tutmuşam.

Mən bir zamanlar ”Ədalət” qəzeti ilə əməkdaşlıq edirdim. Aqil Abbas ”Pərvanə” ədəbi məclisi üçün qəzetində 8 səhifə yer verirdi. İsa İsmayılzadənin ”Ulduzların ad günü” kitabını bütöv orda çap etmişəm. Baxmayaraq ki, İsa İsmayılzadə məni çap etməmişdi. Amma mən onu çap etdim. 1967-ci ildə çap olunmuş kitabını öz arxivindən tapıb qəzetdə dərc etdim.

**-Təxminən 20 il əvvəl ”Pərvanə” ədəbi məclisi, 10 il əvvəl isə ”Gənc Ədiblər Məktəbi” var idi. İndi bunların heç biri yoxdur. Artıq ədəbi məclislərə gərək yoxdur, yoxsa o qədər istedadlı gənc yazar tapmaq çətindir?**

-Bütün ədəbi məclisləri, poeziya müzakirələrini sosial şəbəkələr öldürdü. Texniki vasitələr toplanıb şeir oxuyub, müzakirə etməyi üstələdi. Sosial şəbəkələr kağız mətbuata da təsir etdi, şeir məclislərinə də. Gənc yazarlar sosial şəbəkə vasitəsiylə daha geniş yayımlana bilirlər. Ancaq ”Pərvanə” sosial şəbəkələrdən əvvəl bağlandı. Aqil Abbas sağolsun, bizi( ”Pərvanə”ni) qəzetə gətirdi. Qəzetdən də televiziyaya keçməli idik. Ancaq burda dayandıq. Və nəticədə bağlandı. Bütün zamanlarda belə olub. Müəyyən bir dövrdə təkanla güclü bir dalğa gəlir və birdən dayanır.

**-Məşhur şeirinizdə deyirsiniz ki, ”Ölürəm mən sənin 3-dən ötrü, Verdiyin 5-lərə naz eyləyirlər”. Sizin ”3-nüzdən” ötrü ölən olub?**

- Bilmirəm. Eşitməmişəm. Mənə belə xəbər gəlib çatmayıb. *(gülür)*

**-Siz həmişə ədəbi mətni ədəbi tənqiddən üstün tutmusunuz...**

-Tənqid də gərək ön sözlərdən, ad günlərindən yox, məhz yazıdan bəhs etsin.Tənqid şeirin (mətnin) arxasınca gəlir. Həmişə deyirəm ki, tənqid şeirin ayağının tozudur.



Ədəbiyyat olmasa, mətn olmasa tənqid necə yaranar?

**-Tənqid edənləri bəyənirsiniz?**

-Təhlil edənləri bəyənirəm. Elə tənqid var ki, o mənə təsir edir. Və mən ordan şeir yazıram. Rüstəm Kamalın essevari tənqidlərindən, Cavanşir Yusiflinin, Tehran Əlişanoğlunun yazılarından çox təsirlənirəm. Siyahını genişləndirmək də olar, çox ad çəkərdim...

Publisistika şairi şeirlərindən uzaqlaşdıra bilməz. Bir çox mətbu orqanlarda işləmişəm, televizyada proqram aparıcısıyam, amma heç vaxt şeirdən qopmamışam. Poeziyadan televiziyaya gedən gənclər var idi, şeir yazmağı unutdular.

**-Buna çörək arxasınca qaçmaq deyək..?**

-Yox. Sadəcə onlar özlərindən aslı olmayaraq dayanmaqdan ötrü bəhanə axtarırdılar. Mənim həyatımın bütün çıxış yolları bədii sözdən keçir. Bədii söz mənim xilasımdır. Mən publisistikaya ilişəndə tez gəlib bədii sözdən yapışıram. Ümumiyyətlə, bədiilik çox şeylərdə məni xilas edir. Həyatda sosial və iqtisadi çətinliklərdən də xilas edir. Publisistika məni öldürə bilməz. Mənim şair kimi ölmək vaxtım keçib. Bütün acıları görmüşəm. Şeir dəftərim qoltuğumda geri qayıtmışam. Kitabım gec çap olunub. Mən yaşlı insanlardan heç nə öyrənə bilmirəm. Gənclərdən isə hər gün yeni nəsə öyrənirəm. Məsələn, sənin şeirindən öyrənmişəm. Ağdamla bağlı şeirin var idi, işğalı o qədər həssas təsvir etmişdin ki,o misralar adama toxunmaya bilməzdi. Amma mənim yaşıdım olan bir şairdən belə öyrənə bilmirəm.Gənclər daha çox adama şeir yazmaq üçün xammal verir, nəinki yaşlı nəsil. Böyük yazıçı və şairlər var ki, yaşlı nəsildir. Onlar yaşanmış və bitmiş hesab olunur. Onun yaradıcılığı sənə aydındır. İnsan ona qaranlıq qalan hər şeyin arxasınca getməlidir.

**-Gəncliyin böyük bir hissəsi siz sevir. Həm də böyük bir hissəsi sevmir...**

-Əleyhimə yazanlara yaradıcılıq uğurları arzulayıram. Heç birinə cavab vermirəm, heç onları nankor da adlandırmıram. Çünki onun həqiqəti odur. Məsələn, Tural Turan deyir ki ”Turan birliyi” ordeni almaqdan ötrü gərək təxəllüsün Turan olsun. Bu onun öz həqiqətidir. Buna görə onu necə qınayım?

Şəhriyar Del Gerani tələbəm olub. Onu çox istəyirəm, amma gah yaradıclığımı bəyənir, məni dərk edir, gah da deyir Qəşəm köhnədir. Bu ”get-gəl”lərin özü də bir ədəbiyyatdır. Adam nə qədər sadiq qala bilər axı.. Sədaqətin özü də adamı yorur. Akif İslamzadə necə oxuyur?- ”Bezdirdin sən məni sədaqətinlə”.  Doğrudan da belədir. Demirəm ki, adamlar sədaqətsiz olmalıdır. Xeyr, əsla. Sən bir adamı nə qədər sevə bilirsənsə, o qədər sev. Görürsən ki, onu sevə bilmirsən, ayrılıb getmək lazımdır. Məsələn mən Şəhriyarı da, Qisməti də, Sevinc Elsevəri də, Emil Rasimoğlunu da, Tural Turanı da bəyənirəm.Çox uğurlu şairlərdir. Mən bu gənclərin sədaqətinə yox, ədəbi mətnlərinə ümidliyəm.

**-Bu düşüncə bütün münasibətlərə aiddir?**

-Birmənalı şəkildə hamısına. Məsələn, bir zamanlar ağlaya- ağlaya danışdığın qızla söyüşlə ayırlırsan. Sevgi olmayan yerdə çox hörmətə nail olursan. Sevgi olan yerdə dava ilə ayrılmalısan. Eyni zamanda da istedad olan yerdə belə olmalıdır.

**-Uğurlu bir evliliyiniz var. Heç yorulmadınız sadaqətli olmaqdan?**

-Təbii ki, yoruluram. Həm də xatırlayıram axı   Biz səfərlərə çox gedirik. Getdiyimiz yerdə anidən ötənləri xatırlayıram. Ona deyirəm ki, yadına gəlirmi mən ilk dəfə səni görəndə yaşıl don geyinmişdin və sən saçlarını ”kare” kəsdirmişdin. Biz təzədən illər əvvələ qayıdırıq. Oradan yol başlayıb bu günə qədər gəlirik. Övladlarımızın körpəliyini xatırlayırıq. Deyirəm yadına gəlirmi Kəramət ayaqqabıya ”ayıcı”, rizyaziyyat dəftərinə ”türmə dəftəri”, suya ”düvə” deyirdi. O da gülür, mən də gülürəm. Baxıram ki, ikimiz də qıpqırmızı qızarmışıq. Adam bu gün sədaqətdən yorula bilər, amma öz keçmişindən yorulmaq olmur. Xatirələrimiz çoxdur. O tələbə idi. Mən onun yanına getmişdim. O, 4-cü mərtəbədən baxdı ki, hansısa yazar bir xanımla söhbət edirəm. O məni qısandığını boynuna almırdı. Amma əslində qısqanmışdı. Hər dəfə o qızı məndən soruşurdu. Məsələ burasındadır ki, biz həmin anda orda  bir yurd-yuva, sevginin ön sözün qoyub gəlmişdik. Adam da var ki, ora qayıda bilmir. Dünəndən o tərəfə gedə bilmir. Amma bizim sevginin 40 illik ömrü var axı

**-Yazmadıqlarınız sizi yorur?**

-Elə yazılarım var ki, yarımçıqdır. Onları bitirmək istəyəndə məni üşütmə tutur. Əllərim, ürəyim, beynim üşüyür. Bilirəm ki, onu yaza bilməmişəmsə, demək onu yazmağa mənim gücüm çatmayıb. Yazmaq istəyəndə bütün unutduğum işləri görməyə başlayıram. Baxıram ki, bütün işimi bitirdim yazı yenə qaldı. Deyirəm cümə günü yazaram. Sonra deyirəm qarşıda şənbə- bazar var, onda yazaram. Belə- belə bəhanlərlə özümü aldadıram. Amma görürəm ki, o yazılar məni qorxudur. Məni qorxudan yazılar var. Nə onlardan qaça bilirəm, nə də onları yaza bilirəm.

**Əntiqə KƏRİMZADƏ**

# Ağıllı insanlar daha uzunömürlü olur

**Edinburq Universitetinin alimləri müəyyən ediblər ki, insanın uşaqlıq dövründə ölçülən intellekti onun ömür uzunluğu ilə genetik səviyyədə bağlıdır.**

Adalet.az xəbər verir ki, tədqiqatın nəticələri ”Genomic Psychiatry” jurnalında dərc olunub.

Professor Devid Hill və Yan Diri rəhbərliyində aparılan araşdırma ilk dəfə sübut edib ki, zehni qabiliyyətlə uzunömürlülük eyni bioloji köklərə malikdir. Mütəxəssislər uşaqlıqda intellekt səviyyəsi ölçülən 12 mindən çox insanın, həmçinin valideynlərinin ömür uzunluğu haqqında məlumat toplanan 390 min iştirakçının genetik məlumatlarını analiz ediblər.

Nəticələr göstərib ki, intellekt və uzunömürlülük arasında genetik əlaqə 0,35-dir, yəni zehni qabiliyyətlərə təsir edən genlərin təxminən üçdə biri həyat uzunluğu ilə də əlaqəlidir. Alimlər intellektin irsiliyini 27%, uzunömürlülüyün isə 29% səviyyəsində qiymətləndiriblər.



Tədqiqatçılar vurğulayıblar ki, ölçmələrin uşaqlıq dövründə aparılması işin əsas üstünlüyüdür.

**Əvvəlki iri miqyaslı epidemioloji tədqiqatlar da bu əlaqəni təsdiqləmişdi. Tədqiqatların birində bir milyondan çox insanın məlumatları göstərib ki, uşaqlıqda IQ-nun hər standart artımı ölüm riskini 24% azaldır. Yeni araşdırma isə bu təsirin genetik əsasını ilk dəfə ortaya qoyub. Alimlər ”genetik statistikada ən etibarlı üsullardan biri” sayılan LD-regressiya metodundan istifadə edərək təsadüfi amillərin təsirini istisna ediblər. Mütəxəssislərin fikrincə, bu nəticələr gələcəkdə xəstəliklərin erkən profilaktikası və beyin sağlamlığının qorunması üçün yeni strategiyaların hazırlanmasına kömək edə bilər.**

**Sübhan**



*MƏMMƏD TAHİR*

# CANLI XARAKTERLƏR YARADA BİLƏN YAZIÇI

## Adəm Asnı yaradıcılığına bir baxış

**Adəm Asnı imzasını son illər tanımışam. Tanıdığım gündən də onun ədəbi yaradıcılığı diqqətimi çəkib. Həm nəzm, həm də nəsr əsərləri ilə. Adətən bir qələm adamı haqqında qısa fikir yürütmək üçün nəsr əsəridisə bir neçə abzası, şeirdisə bir bəndi oxumaq kifayət edir. Ancaq mən azacıq da olsa yanılmamaq üçün onu bütünlüklə oxumaq qərarına gəlirəm. Bu, bir neçə günümü alsa da, sonda səmərəli olur, fikrim qətiləşir. Xalq şairi Nəriman Həsənzadənin Adəm Asnının"Sığallı xatirələr" kitabına yazdığı "Ön söz" isə bu qətiyyətimi bir az da artırır:"Yazıçı oxucuya köhnə tanışı, dostu, təsvir elədiyi iştirakçısı gözü ilə baxır, həmsöhbət olur".**

Adəm Asnının hekayələrini oxuduqca onun bir fikri məni rahat buraxmır: Hər bir kitabı oxuyandan sonra oxuduqlarının təsiri ilə oxucuda hər hansı fikir, duyğu, təəssürat yaranırsa, deməli, kitab nahaq yazılmayıb və nahaq oxunmayıb.

"Dönüş" hekayəsinin qəhrəmanı Əhməd kənddə doğulub, ali təhsil alıb, Cəzaçəkmə müəssisəsində dəstə rəisi işləyir. Dürüst bir insandır.El-obasını sevən, ata-anasının qulluğunda durmağa çalışan, hər şeydən əvvəl mənəviyyatını qorumağa çalışan bir vətəndaşdır. Dostluğu da uca tutan Əhmədə Mərdanın etdiyi rüşvət təklifi qarşısında atdığı addım onun necə mükəmməl bir xarakterə malik olduğunu sübut edir. Sonda bu dürüstlük bir məhkumun yenidən cəmiyyətə qayıtmasına, dürüst bir insan kimi həyatına davam etməsinə zəmin yaradır. Bu hekayədə yazıçı real bir qəhrəman təsvir edir, oxucuda onun həyatiliyinə heç bir şübhə yeri qalmır.

"Mişka" hekayəsində kənd bütün reallığı ilə gözlərimiz önündə canlanır. İki dostun- Həsənlə Məftunun timsalında kənd, onun təbiəti, adamları bütün müsbət və mənfi tərəfləri ilə təsvir olunur. Kənddə heç kəsə qaynayıb-qarışmayan Alxas ailəsi, bu ailənin son aqibəti yazıçı tərəfindən çox real cizgilərlə təsvir edilmişdir. Onu da qeyd edək ki, bu hekayədə povestə xas olan detallar da diqqəti cəlb edir. Bu da yazıçının daha geniş yaradıcılıq diapazonuna malik olduğundan xəbər verir.

"Dəb" hekayəsində hadisələr maraqlı bir fikrin ətrafında cərəyan edir. Qaraqaş kəndində yas məclislərində hər kəs bacardığı qədər dəbdəbəli ehsan verməyə çalışır. Hətta ən kasıb adamlar belə dəbdən geri qalmaq istəmir. Borc-xərc edib ehsanı yüksək səviyyədə yola verməyə çalışır. Yası düşənlərin bir çoxu verdiyi ehsan sayəsində ağır borca düşür, illərlə o borcu qaytara bilmir. Günlərin bir günü kənddə bir sözü iki edilməyən Qulam kişi düşünür ki, belə dəbdəbəli ehsan verməyə heç bir gərək yoxdur. Yas zamanı sadəcə stolun üstündə limon, qənd kifatətdir. O, bu fikrini yas məclislərindən birində kənd camaatına çatdırır. Əvvəl buna etiraz edənlər olur.Lakin tədricən onun bu təklifi müsbət qarşılanır və kənddə yeni ehsan vermə qaydası dəbə minir.

"Soyuducu" hekayəsinin iki qəhrəmanı var. Ata Müzadil və oğul Müzamil. Hər iki xarakterin taleyi sonda kəndlə bağlı olur. Şəhər həyatına alışa bilməyən Müzadil və şəhərdə yaşayan Müzamilin şəhərdəki evinin darısqallığı üzündə kəndə gəlməsi və burada yaşamaq məcburiyyətində olması. Nəsillər arasında olan bağllıq və əlaqə məişət qayğısı və bu qayğının mərkəzində dayanan yayda daha çox ehtiyac hiss olunan soyudu problemində özünü daha çox hiss etdirir.

"Gülsatan" hekayəsində hadisələr Rusiyanın mərkəzi şəhərlərindən birində-Lesnayada cərəyan edir. Hüquq fakültəsində təhsil alan Samid tələbə dostları ilə topladığı pulla müəllimlərinə gül almaq üçün gül dükanına gedir. Məlum olur ki, gülsatanlar azərbaycanlılardır. Samid düşünür ki, yerliləri olduğu üçün gülü ona ucuz satarlar. Lakin düşündüyünün əksi olur. Gülü almağa pulu çatmır. Geri qayıdanda cavan bir oğlan onu saxlayır. Məlum olur ki, həmsöhbəti gülü ona baha qiymətə satmaq istəyən oğlanın ortağıdır. Əvvəlki satıcıdan fərqli olaraq Valid adlı bu gənc ona istədiyindən artıq gülü pul almadan bağışlayır. Samit geri qayıdıb yerlilərinin səxavətindən söhbət açır və qürur hissi keçirir.

İllər ötür.Samit məhkəmədə hakimdir və növbəti cinayət işinə baxmalıdır.Məlum olur ki, cinayəti törədən illər öncə ona gülü baha satmağa çalışan adamın qardaşıdır, indi xahişə gəlib. Ertəsi gün isə ona gül hədiyyə edən Valid xahişə gəlir. Samid zərəri öz cibindən ödəyərək məhkumu azad edir. Bu hekayədə yazıçının bir məqsədi var. Heç vaxt yaxşılığı unutmamaq, hər bir yaxşılığa yaxşılıqla qarşılıq vermək.



Adəm Asnınn "Zavallı Məsud", "Dərs", "İşarə", "Vəsiyyətnamə", "Məhəbbətin ətri", "Son arzu" , "Başdaşı" və başqa hekayələrində kənd həyatı, o kənddə yaşayan insanların saf duyğu və düşüncələri təbiət fonunda yazıçı qələmi ilə çox ustalıqla təsvir edilir, şirin və rəvan bir dillə müxtəlif həyat hekayələrindəki o həyata, o həyatın rəngarəngliyinə bələdçilik edilir.

Adəm Asnı yaradıcılığındakı sənətkarlığı dəqiq ifadə etmək üçün onun iki hekayəsindəki ideyanı müqayisə etmək kifayətdir. "Qismət" və "Dilənçinin" yığdığı" hekayələrində iki fikir yazıçı qələminin ustalığından xəbər verir. Birinci hekayədə dürüst, namuslu, öz halal əməyi ilə yaşayan Qismət, ikinci hekayədə başçılıq etdiyi idarəni çapıb-talayan, kələkbaz, hamını aldadan, öz ailəsinə qarşı belə dürüst davranmayan Mərdəli obrazları yazıçı ustalığı ilə rənglənir , birincisi məhəbbət, sevgi, ikincisi isə oxucu nifrəti qazanr.

Adəm Asnı yaradıcılığında bir mühüm məqam da diqqəti cəlb edir. Yazıçı təsvir etdiyi hadisələri əsasən iki zamana, iki dövrə ayırır. Bu dövrlər arasında on illər, bəzən daha çox vaxt seçilib yazıçı ideyasına xidmət etdirilir. Əsərin qəhrəmanı müəyyən mərhələlərdən keçir, bəzi zəruri məqamları yaşayır, hadisələrin həlli bir neçə il sonra oxucuya xəbər verilir. Görünür bu da Adəm Asnı yaradıcılığına məxsus bir ədəbi priyomdur.

"Məzən olsun" hekayəsi adi məişət məsələlərinə həsr edilib.Əsl adı Knyaz olan bir gənc kənddə "Qaraca" adı ilə tanınır. Zəhmətkeş, öz əməyi ilə dolanan bir adamdır. Günlərin bir günü Qaraca İcra Hakimiyyətində məsul bir vəzifədə çalışan Məmmədəli müəllimin qızı Əsmərə elçi göndərir. Məmmədəli müəllim isə "Çobana-çoluğa verəcək qızım yox" deyib elçiləri qapıdan qovur. Əsmər isə gizlicə Qaracaya-Knyaza qoşulub qaçır. İllər keçir, Məmmədəli müəllim bir kərə də olsun Qaracanın qapısını açmır.Amma...bir gün açır o qapını. Eşidəndə ki, yeni icra başçısı ilə Qaraca arasında iş münasibəti var. Sonda məlum olur ki, Qaracanın tanıdığı iş adamının adı Əlizadə Həsənov, İcra başçısının adı Əlizadə Nəcəfdir. Adlar arasında oxşarlıq onu çaşdırır, həqiqəti öyrənəndən sonra Məmmədəli müəllim kürəkən qapısı açmağına peşman olur. Bu hekayədə hadisələr o qədər inandırıcı və real təsvir edilir ki, oxucu özünü həmin hadisələrin mərkəzində hiss edir. "Yad" hekayəsində müsəlman Ələsgərlə rus qızı xristian Qalinanın ailə səadətindən, dini münasibətlərin onların xoşbəxtliyinə kölgə salmadığından, "Təsəlli"də Taleh ilə Həmzənin dostluq tellərindən, Həmzə dostu Talehi ölümdən xilas edərkən həlak olmasından, Həmzənin ölümündən sonra Talehin ona olan sədaqətindən söhbət açılır. "İzahatın "səsi", "Qonşular", "Qaranquş yuvası". "Çıxış yolu" hekayələrində yazıçı tanıdığı, bələd olduğu həyatdan, özü çıxdığı doğma mühitdən söhbət açır. Onun qəhrəmanları öz ətrafında olan insanlardı. Təsvir etdiyi hadisələrə dərindən bələddi. Onun qəhrəmanları müxtəlif sahələrin adamlarıdır. Yazıçı onları yaxşı tanıyır. Ona görə də yazıçı öz qəhrəmanlarını belə dəqiq, hər şeyi yerli-yerində təsvir edə bilir. Adəm Asnı yaradıcılığında bir cəhəti də qeyd etməyi lazım bilirik. Adətən nəsr əsərlərində dialoqlar mühüm əhəmiyyət kəsb edir. Dialoqlar nə qədər canlı, xarakterə uyğun olarsa, əsər bir o qədər qazanmış olur. Bu mənada Adəm Asnı qəhrəmanlarını canlı danışıq dilində danışdırır, oxucunu hadisələrin təbiiliyinə inandıra bilir.

Yazıçı öz qəhrəmanlarının xarakterini tamamlamaq üçün müəyyn vasitələrdən, effektlərdən istifadə edir. "Dönüş" də Zülfüqarın müsbət xarakterini idmana olan sevgisi tamamlayırsa, "Mişka" da Alxanın dəyənəyi onun pis, mənfi tərəflərini ifadə etməyə yardımçı olur. "Gülsatan" hekayəsində Valid Rusiya bazarlarından birində gül satır,lakin ticari maraqları onun müsbət xarakterini korlaya bilmir. Əksinə o, təmənnasız gül hədiyyə etməklə də özünün müsbət xarakterini bir daha sübut etmiş olur.

Adəm Asnı bütünlüklə həyatı, insanları təbiəti müşahidə etmək üçün yaradıcı gücə malik isti ürəyə və iti qələmə sahib bir yazıçıdır. Şair Əbülfət Mədətoğlunun fikrincə isə "Onun konkret ünvanlara, gəzib gördüyü yerlərə bir rəssam, bir səyyah və bir az da məftunluq nəzərlərlə baxması dediklərimin əyani təsviridir."

Biz bu yazımızda Adəm Asnı yaradıcılığının nəsr tərəfindən, əsasən hekayəri haqqında danışdıq. Onun yaradıcılığının poeziya, şeir tərəfi isə ayrıca bir yazının mövzusudur.

**Adəm Asnı yaradıcılığının məsul dövrünü yaşayır.Yazır-yaradır,öz oxucusuna yeni söz deməyə, yeni fikirlər aşılamağa çalışır.Şübhə etmirik ki, qələm dostumuz gələcəkdə də yeni uğurlu əsərlər yazacaq, yeni duyğularla oxucusunun könlünü sevindirəcək. Biz də qələm dostumuza bu yolda uğurlar arzulayırıq.**

---

# *Psixoloq:* "Əgər xəyanət varsa, insan boşana bilər, sonu qətl olmamalıdır..."

**Xəbər verdiyimiz kimi, Tovuzda Səbuhi Hacızadənin əvvəl həyat yoldaşı Mətanət Hacızadəni bıçaqlayaraq qətlə yetirməsi və ardınca isə özünü asaraq intihar etməsi ölkədə böyük rezonansa səbəb oldu. S.Hacızadə intihar etməmişdən öncə yaydığı videoda hadisəni qısqanclıq zəminində törətdiyini bildirib.**

Məsələylə bağlı Adalet.az-a danışan psixoloq Nabat Mirzəyeva bildirdi ki, bu cür ağır qətllərin baş verməsi sözsüz ki, sadələşdirilməməlidir:

"Bu bizim cəmiyyətimizə də, düşüncələrimizə də, fikirlərimizə də təsir edir və istər-istəməz artıq insanlar bu cür hallara qarşı daha da sərt münasibətlər bildirməyə başlayırlar. Çünki həqiqətən də ortada övladlar, qətl və cinayət var. Onu demək istəyirəm ki, belə bir vəziyyətdə bu, təkcə ailədə baş verən faciə yox, bütün qohum-əqrəbanın, sistemin əslində zərbəyə və zədəyə gəlməsi deməkdir. Yəni burda təkcə ailə yox, bir psixoloji sistem çökür".



Psixoloqun sözlərinə görə, təəssüf ki, faciəvi hal olduğuna görə övladlar anasız, atasız qalırlar və bu şiddətə onlar körpə, uşaq yaşlarından şahid olurlar: "Bu adi, sadə bir hal deyil. Bu hal heç bir zaman qəbul olunmaz və oluna da bilməz. Ancaq xəyanət və xəyanətdən sonrakı yaranan gərginliklər əslində bir günə iki günə yaranmır. Bu aylarla, illərlə hər iki tərəfin bir-birinə yığılmış, toplanmış sstresi, psixolojik ağırlıqları və yaşanan sstresslər səbəb olur. Söhbət xəyanətdən getmir. Ümumiyyətlə, bir ailənin daxilində ağır bir gərginliklər varsa, bunlar bir, iki, üç, dörd günə deyil, aylarla toplanır. Biz burda xəyanətdən, sevgidən, duyğudan danışsaq belə artıq ortada qətl, cinayət var".

Psixoloq bildirib ki, bir insanın yaşadığı hər nə olursa olsun qanuni olaraq mütləq çözümü var:

"Yəni xəyanət varsa, insan boşana bilər, qarşı tərəf bir-birilərini qəbul etmirlərsə, oturub danışıb ayrılmaya gətirə bilərlər. Aralarında nə qədər gərginliklər baş versə də bunlara bir ortaq yol tapıla bilər. Amma biz heç bir zaman istər davalar, böyük mücadilələrin sonunda cinayət və qatil olmaqla bunu dırnağarası desək dəyərləndirməməliyik. Yəni hər hekayənin sonunu cinayət görməməliyik. İnsan həyatı həqiqətən də sıradan bir həyat deyil. Biz insan olaraq mükəmməl yaradılmışıq. Həyatda nə yaşayırıqsa yaşayaq ilk öncə canımıza və qarşımızdakı insana qıymamalıyıq. Çünki bu canı biz yaratmamışıq ona da qıyaq".

N.Mirzəyeva deyib ki, ona görə də biz övladlarımızı böyütdüyümüz zaman onlara gücü öyrətməməliyik:

**"Onlara deməli deyilik ki, sən güclü olmalısan, sən kişisən, sən qadın üzərində hökm etməlisən, sən qadınların deyil, qadınlar sənin dediyinlə oturub-durmalıdır, sən ağlamamalısan, gələcəyin kişisisən. Biz oğullarımızı sevgiylə, dəyərlə, diqqətlə böyütməliyik. Əgər bir yerdə uyğunluq yoxdursa, oturub danışaraq onu çözməyi övladlarımıza öyrətməliyik. Cəmiyyətdə bununla bağlı maarifləndirici söhbətlər aparılmalıdır və bu sahədən mütəxəsisslərimiz də var".**

**Vasif ƏLİHÜSEYN**

**VAQİF YUSİFLİ**
**Filologiya elmləri doktoru**



# PROFESSOR XALİD ƏLİMİRZƏYEV HAQQINDA MONOQRAFİYA

**İki professor tənqid və ədəbiyyatşünaslıq aləmində iki tanınmış elm adamı. Xalid Əlimirzəyev və Nizaməddin Şəmsizadə. Onlar bir-birlərini yaxşı tanıyırdılar, aralarında yaş fərqi olmasına baxmayaraq (Xalid müəllim Nizaməddindən 22 yaş böyük idi) dost idilər. Yazdıqlara əsərlərə hər biri öz münasibətini bildirirdi. Amma çox təəssüf ki, indi onların heç biri həyatda yoxdur. Amma Xalid müəllimin vəfatından sonra Nizaməddin ömrünün son illərində X.Əlimirzəyevin həyat və yaradıcılığı haqqında bir monoqrafiyanı yazıb tamamladı. ”İdeal və həqiqət” adlı bu monoqrafiya ”Çapar” nəşriyyatı tərəfindən lap bu yaxınlarda oxuculara çatdırılıb. Kitabın redaktoru Xalid müəllimin qızı - filologiya üzrə fəlsəfə doktoru Rəvayət Əlimirzəyevadır.**

Görkəmli ədəbiyyatşünas, filologiya elmləri doktoru, prfessor Xalid Əlimirzəyevin keçdiyi ömür yolunu, bir SÖZ ADAMI kimi yaşadığı ayları, illəri gözdən keçirərkən onun öz əsərlərində tez-tez müraciət etdiyi, hətta bir neçə kitabının sərlövhəsnə çıxardığı İDEAL sözünü xatırlayırsan. İdeal, yəni estetik ideal bütün əsrlər boyu sənətkarların kamil həyat və kamil insan haqqında təsəvvürlərini özündə əks etdirir.

İdeal həyat və ideal insan İnsanlar bütün ömürləri boyu ideal həyat arzusunda olmuşlar, əslində, ədəbiyyatın da başlıca missiyalarından biri bu olmuşdur. Lakin real həyatda bu, heç vaxt mümkün olmamışdır, yalnız sənət əsərlərində, utopiyalarda ideal cəmiyyətlə, ideal dövlətlə və ideal şahla qarşılaşmışıq. Dünya və Azərbaycan ədəbiyyatında buna aid onlarla misallar gətirə bilərik. İdeal insan obrazlarına isə həm həyatda, həm də bədii ədəbiyyatda tez-tez təsadüf olunub. Qədim Yunanıstanda mütəfəkkir-filosof ideal insan hesab edilirdi. Amma insanların dünyagörüşünə, həyat və ideal insan haqqında təsəvvürlərinə uyğun olaraq bu məsələdə müxtəlif fikirlər yaranmışdır. Deyək ki, feodal Avropasının zadəganları cəsur cəngavəri və müti monaxı, xalq kütləri isə sənətkarları özləri üçün ideal hesab edirdilər. İntibah dövrünün humanistləri alim müdrikliyini, rəssam istedadını, döyüşçü şücaətini özündə cəmləşdirən, ahəngdar inkişaf etmiş şəxsiyyət idealını irəli sürürdülər. Sonrakı əsrlərin ədəbiyyatında da ideal insan obrazları məhz bu aspektdə diqqəti jəlb etmişdir.

Professor Xalid Əlimirzəyevin bir tənqidçi-ədəbiyyatşünas kimi başlca tədqiq obyekti məhz Azərbaycan ədəbiyyatında ideal həqiqətlərdir, bu həqiqətlərin bədii təcəssümüdür. Nizaməddin Şəmsizadənin ”İdeal və həqiqət mücahidi” monoqrafiyasında da biz Xalid Əlimirzəyevin ideal insan və ideal sənətkar axtarışlarının şahidi oluruq.Onun bütün yaradıcılığı elə bu problem üzərində köklənib. X.Əlimirzəyev Nizaminin, Xaqaninin əsərlərindən, Vaqif poeziyasının lirik qəhrəmanından, Axundovun ideal və sənət dünyasından, Cəlil Məmmədquluzadə yaradıcılığından söz açır və bu yazıların hamısında belə bir fikir öz əksini tapır: ”Əsl şeirin, sənətin məqamı-mənəvi-əxlaqi gücü, təsiri böyük, şərəfli olduğu kimi onu yaradan şairin, sənətkarın da şəxsiyyəti ülvidir, hər cür şan-şöhrətdən, imtiyazdan yüksəkdir, ucadır”.

N.Şəmsizadə monoqrafinın ilk fəslində X.Əlmsmpzəyevin tənqidçi şəxsiyyətindən söz açır. Yazır ki: ”X.Əlimirzəyev filologiyada ən çətin sahəni-tənqidi seçdi. Tənqidçi bədii ədəbiyyatın yiyəsidir. Oxucu bədiilik aləminə tənqid körpüsündən keçib gəlir. Tənqidçi üçün əsas şərt estetik meyarın bədii mahiyyətə uyğun gəlməsidir Məhz bu fyaktor obyektiv tənqidin əsasıdır”. O, X.Əlimirzəyevin hər şeydən əvvəl professional tənqidçi olduğunu qeyd edir. Professional tənqidçi isə ilk növbədə, obyektiv olmalı, haqqında söz açdığı sənətkarın əsərlərini sənət meyarları işığında təhlil etməlidir. X.Əlimirzəyevin ilk tənqidi kitabı ”Ədəbi qeydlər”dir ki, burada Rəsul Rza, Əhməd Cəmil, Nəbi Xəzri, Mirvarid Dilbazi, İsmayıl Şıxlı, İsa Hüseynov, Yusif Əzimzadə, İlyas Əfəndiyev yaradıcılığından söz açır. N.Şəmsizadə X.Əlimirzəyevin bu sənətkarlar haqqında söylədiyi bəzi fikirləri misal gətirir: Məsələn: ”Rəsul Rzanın sənətkarlıq cəhətdən kamil saydığımız şeirlərinin əqli, mənəvi gücü, çəkisi, hər şeydən əvvəl müasir gerçəklikdir, idrak prosesi ilə bağlılığıdır. ”Rənglər” həyat, insan, təbiət haqqında oxucunu düşündürən, mühakimələrə çağıran fəlsəfi şeirlərdir”.

Hər bir görkəmli söz adamının həyatında Xilaskar rolunu oynayan, Simurq quşu kimi vaxtında köməyə yetişən Ustadlar olur. Xalid Əlimirzəyevin həyatında da belə bir rolu ədəbiyyatımızın inkişafında böyük xidmətləri olan, həm bir nasir kimi, həm də ədəbiyyatşünas kimi çoxlarının xatirəsində əbədi iz buraxan Mir Cəlal Paşayev oynamışdır. O Mir Cəlal ki, uzun illər Universitetin Azərbaycan ədəbiyyatı tarixi kafedrasının müdiri olmuş, ömrünün sonunacan həmin kafedrada təkcə dərsliklər, dərs vəsaitləri hazırlamaqla kifayətlənməmiş, həm də sonralar Azərbaycan ədəbiyyatşünaslıq elminin görkəmli nümayəndələrinə çevrilmiş professorlar yetişdirmişdir. Budur onlar: Bəxtiyar Vahabzadə, Firidun Hüseynov, Cəlal Abdullayev, İnayət Bəktaşi, Təhsin Mütəllimov, Xalid Əlimirzəyev, Abdulla Abbasov, Kamil Mirbağırov, İfrat Əliyeva, Qara Namazov və daha kimlər

Xalid müəllim Mir Cəlal haqqında ”Böyük yazıçı, alim, görkəmli maarif xadimi” adlı geniş bir məqalə yazmış və bu yazıda Mir Cəlalın həm bədii yaradıcılığını, həm də elmi fəaliyyətini əks etdirmişdir. Lakin onun geniş ürəkli bir insan və kafedra müdiri, əslində böyük Azərbaycan ziyalısı kimi portretini ”Mənəvi borc” (”Mir Cəlal haqqında xatirələr”) kitabında daha dolğun və müfəssəl canlandırmışdır. Bu gün Mir Cəlal haqqında yazılan məqalələrin, monoqrafiyaların əvvəlki illərlə müqayisədə xeyli dərəcədə artdığı göz qabağındadır. Bu yazıların heç birinin dəyərini aşağı salmadan deyə bilərəm ki, Xalid müəllimin yazdığı kitabda mən əsl Mir Cəlalı gördüm. O, bir çoxları kimi mənim də müəllimim olmuşdur.

Xalid müəllim Mir Cəlalı həm də qürurlu, heç kimdən xahiş-minnət götürməyən, yalnız istedadının gücü ilə qapılar açan bir ziyalı kimi təqdim edir. O, 1969-cu ildə Universiteti partiya təşkilatının geniş tərkibdə plenumunu xatırladır və bu plenumda Mir Jəlalın ünvanına yağdırılan böhtanlar haqqında söz açır. Xalid Əlimirzəyevin həmin plenumda çox çətinliklə söz alıb Mir Cəlalı və həmçinin bir sıra Azərbaycan ediblərini (Rəsul Rzanı, Cəfər Cəfərovu) müdafiə etməsi həmin dövr üçün doğrudan bir qəhrəmanlıq idi. İttihamlardan biri də bu idi ki, guya Mir Cəlal müəllimin rəhbərlik etdiyi kafedra ədəbiyyatımızın, klassik irsimizin bütün dövrlərini əhatə etdiyi halda Mir Cəlal elə bil Cəlil Məmmədquluzadədən başqa yazıçı, ədib tanımır. Aspirantlara verdiyi namizədlik və doktorluq dissertasiyaları mövzularına görə, doxsan faizi ancaq Cəlil Məmmədquluzadə yaradıcılığına aiddir.




Təbii ki, Xalid Əlimirzəyev ulu öndərin-Heydər Əliyevin iştirak etdiyi o plenumda böhtançı çıxışçılara tutarlı cavablar verir. ”Mənəvi borc” kitabında bu haqda geniş söhbət gedir və mən də təfərrüata varmıram.

Ancaq burada mənim nəzərimi cəlb edən bir məqama diqqət yetirmək istəyirəm: o da Mir Cəlalın Mirzə Cəlilə olan böyük sevgisidir.

Son altmış ilin Mirzəcəlilşünaslığını nəzərdən keçirsək, burada dörd şəxsiyyətin adı ilə bağlı olan inkişaf mərhələləri ilə üz-üzə gələrik. Birinci mərhələ Mir Cəlal Paşayevin adı ilə bağlıdır. Onun böyük ədibin yaradıcılığına həsr etdiyi məqalələri öz elmi səviyyəsi ilə digər müəlliflərin yazılarından əhəmiyyətli dərəcədə seçilirdi. O, əlinci, altmışıncı illərdə yazdığı bir sıra məqalələrində Mirzəcəlilşünaslığın yeni düşüncə tərzini ortaya qoymuşdur. Çox sadə şəkildə izah edirdi ki, Mirzə Cəlilin yaradıcılığında həyat həqiqəti hər şeydən üstündür. Həm də bu əsərlərdə böyük bir qəlb çırpınır. Məzlumların halına yanan, qurtuluş yoluna axtaran, bütün mədəniyyət aləmini köməyə çağıran qüdrətli bir səs eşidilir.

Bu səsin daha gur və aydın eşidilməsi, Mirzə Cəlil yaradıcılığını bütün aspektləri ilə ədəbiyyatşünaslığın başlıca mövzularından birinə çevirmək Mir Cəlalın tələbəsi Xalid Əlimirzəyevin öhdəsinə düşdü. O, 1964-cü ildə ”Cəlil Məmmədquluzadənin ədəbi-ictimai görüşləri” mövzusunda namizədlik, 1972-ci ildə ”Cəlil Məmmədquluzadənin dramaturgiyası” mövzusunda doktorluq dissertasiyası müdafiə edir.Sizə xatırladım ki, 60-cı illərin sonlarında və yetmişincə yeganə televiziya kanalımız olan AZ TV-də Xalid müəllim dəfələrlə Cəlil Məmmədquluzadənin yaradıcılığı barədə çıxışları tamaşaçıların böyük marağına səbəb olmuşdu. Xalid Əlimirzəyevtn Mirzə Cəlil haqqında tədqiqatları 2010-cu ildə ”Elm və təhsil” nəşriyyatı tərfəindən işıq üzü görmüş ”Dahi sənətkar, böyük vətəndaş” monoqrafiyasında cəm olub. Beş fəsil ənənəvi xarakter daşıyır: burada Mirzə Cəlilin həyatı, dövrü, ədəbi-mədəni mühiti, onun dramaturgiyası, bədii nəsri, ”Molla Nəsrəddin” curnalındakı fəaliyyəti və ədəbi-tənqidi görüşləri tədqiq hədəfinə çevrilir. Yetmişinci illərdə yazılan bu əsərlər həmin illərdə böyük ədibimiz haqqında ilk böyük monoqrafiq tədqiqatlar idi. Burada qeyd etməyi vacib hesab edirəm ki, Xalid Əlimirzəyevin Cəlil Məmmədquluzadə haqqında tədqiqatları həm də ədəbiyyat tarixinin böyük bir səhifəsini təşkil edir. Mirzə İbrahimovun ”Böyük demokrat” monoqrafiyası, Mir Cəlalın məqalələrindən sonra müəyyən boşluqları doldurdu. Mirzə Cəlil ilk dəfə olaraq milli və bəşəri aspektlərdən təhlil olunur. Bu əsərlə tanış olan hər bir oxucu Cəlil Məmmədquluzadə kimdir sualına ətraflı və dolğun cavablar tapacaqdır. Ona görə də Xalid Əlimirzəyevin Mirzə Cəlilə bağlı tədqiqatları böyük ədəbin yaradıcılığını öyrənmək baxımından ikinci mərhələ kimi yadda qalır. Nigarançılıq olmasın deyə, Mirzəcəlilşünaslıqda üçüncü mərhələ mərhum Yaşar Qarayevin (əsasən səksən-doxsanıncı illərdə) tədqiqatları, xüsusilə, Azərbaycan realizmi ilə bağlı əsərlərində Yaşar Qarayev elmi-nəzəri səviyyəsinin sanballı olması ilə diqqəti cəlb edir. Mirzəcəlilşünaslıqda dördüncü mərhələ akademik İsa Həbibbəylinin apardığı araşdırmalarla, xüsusən, dahi ədibin həyatının, tərcümeyi-halının indiyə qədər açılmayan cəhətləri ilə bağlıdır.

Xalid Əlimirzəyevin mövzular aləmi öncə qeyd etdiyim kimi zəngin və çoxcəhətlidir. Əvvəla, bu onu bir ədəbiyyat tarixçisi kimi yüksək qiymətləndirməliyik - Xaqani, Nizami, Füzuli, Vaqif, İsmayıl bəy Qutqaşınlı, Mirzə Fətəli Axundov, Aşıq Ələsgər, H.B.Vəzirov, Ə.Haqverdiyev, Süleyman Sani Axundov, F.Köçərli, Cəlil Məmmədquluzadə, M.Ə.Sabir, Əliqulu Qəmküsar, Nəriman Nərimanov, Seyid Hüseyn, Abbas Səhhət , H.Cavid, Cəfər Cabbarlı, M.Müşfiq, Səməd Vurğun, Rəsul Rza, Osman Sarıvəlli, Mehdi Hüseyn, Mir Cəlal yaradıcılığı ilə bağlı elmi oçerkləri yan-yana düzsək, doğrudan da bir ədəbiyyat tarixinin ərsəyə gəldiyi ilə tanış olarıq. Ümumiyyətlə, Xalid Əlimirzəyevin müraciət etdiyi tənqid janrları içərisində elmi oçerklər öz səviyyəsi ilə seçilir.

N.Şəmsizadənin monoqrafiyasında Xəlimirzəyevin ”Kitabi Dədə Qorqud” dastanından ”şəxsiyyət və cəmiyyət”, ”Nizami Gəncəvinin insan konsepsiyası”, ”M.F.Axundovun ideal və sənət dünyası”

Monoqrafiyalarından da geniş və əhatəli təhlillərlə rastlaşırıq. Xüsusilə, Nizami və Axundov iris X.Əlimirzəyevin təhlillərində bu böyük sənətkarlara yeni elmi baxışın şahidi oluruq. N.Şəmsizadə X.Əlimirzəyevin nizamişünaslığa və axundovşünaslığa gətirdiyi yenilikləri nəzərə çarpdırır.

Xalid Əlimirzəyev həm də nəzəriyyəçi alimdir. Onun monoqrafiyalarında və məqalələrində irəli sürülən elmi fikir və mülahizələr müəllifin nəzəri səviyyəsinin yüksək olduğuna dəlalət edir. 2011-ci ildə nəşr etdirdiyi ”Ədəbiyyatşünaslığın elmi-nəzəri əsasları” tədris vəsaiti haqqında ayrıca söz açmaq olar. Ancaq bu qiymətli kitab haqqında onu deyə bilərəm ki, Mikayıl Rəfilinin, Cəfər Xəndanın və Mir Cəlalın ”Ədəbiyyat nəzəriyyəsi” kitablarından sonra nəşr edilən tədris vəsaitləri içərisində ən sanballısıdır.

Xalid Əlimirzəyev teatr və dramaturgiya haqqında da sanballı yazıları ilə diqqəti cəlb edib. 1960-1980-ci illəri əhatə edən ”Ədəbi-tənqidi məqalələr” toplusunda, həmçinin, ”Dramaturgiya, teatr və səhnə sənəti” kitabında Xalid Əlimirzəyevin son əlli ilin dramaturgiyası, həmçinin teatr tamaşaları haqqında qələmə aldığı resenziyalar, məqalələr də bunu sübut edir. X.Əlimirzəyev bəzi həmkarlarından fərqli olaraq ədəbiyyata vahid platformadan yanaşır, bizim ədəbi ənələrimizin bu gün uğurla davam etdirilməsini qələmə alır. ”Sən həmişə mənimləsən”, ”Ölülər”, ”Közərən ocaqlar , ”Bağ qoşuları”, ”Nazirin xanımı”, ”Yol ayrıcında”, ”Yağışdan sonra”, ”Qarabağ əfsanəsi”, ”Atabəylər”, ”Oqtay Eloğlu” bu tamaşalar haqqında isti-isti söz deyən tənqidçilərdən biri də Xalid Əlimirzəyev olmuşdur. O, sırf ədəbi tənqidlə bağlı bir məqaləsində yazır ki, ədəbi tənqid dərin ictimai, bəşəri məzmun daşıyan, yüksək sənətkarlıq nümunəsi olan bədii əsərlərə arxalanması heç vaxt ümumi mühakimədən, adi nəzəriyyəbazlıqdan uzağa gedə bilməz. Bu baxımdan yanaşdıqda Xalid Əlimirzəyevin yazılarında Azərbaycan dilinin gözəllikləri, sadəliyi və dərinliyi, incəliyi və zərifliyi öz əksini tapmışdır.

**Nizaməddin Şəmsizadənin Xalid Əlimirzəyevin həyat və yaradıcılığına həsr etdiyi ”İdeal və həqiqət mecahidi” monoqrafiyasını oxuyub başa çatdırdım. Hət iki professora ”Allah rəhmət eləsin”, ”Siz heç vaxt unudulmayacaqsınız” deyirəm.**



Ələmdar MƏMMƏDOV

# Mən bu zamana sığmazam

## Zirvəyə doğru: İlyas - İlahi qüvvə, köməyə gələn

(əvvəli ötən saylarımızda)

**İllər ötəcək, SSRİ dağılmaq üzrə olanda, torpaqlar bir-bir işğal olunanda sovet dövlətinin qüdrətinə güvənən iqtidar liderləri ”böyük qardaşın” ədalətli mövqe tutacağına xalqı inandır-mağa, müxalifət liderləri daha irəli gedərək torpaqların işğalı ilə barışmayan xalqı - ”Almanlar Moskvaya gəlib çatmışdılar, lakin qələbə sovetlərin oldu” fikri ilə ovundurmağa çalışacaqlar!..**

Separatçı qüvvələr partiya, sovet orqanlarını ələ almaqla kifayətlənməyib, hüquq mühafizə orqanlarını da öz oyunlarına qatmışdılar. Həmin dövrdə digər hüquq mühafizə orqanları kimi prokurorluq da erməniləşdirilmişdi. Bütün vilayət üzrə, Şuşa prokurorluğu istisna olmaqla, cəmi 3 nəfər azərbaycanlı işləyirdi. Bunlar vilayət prokurorunun böyük köməkçisi Şahmalı Məmmədov, istintaq bölməsinin böyük prokuroru Qənimət Səfərov və Əsgəran rayon prokurorunun köməkçisi Siyasət Alıyev idi (bir müddətdən sonra ermənilər Siyasət Alıyevi bıçaqladılar).

Başqa sözlə, dövlət tərəfindən müəyyən edilən və sanksiyalaşdırılan, dövlət məcburetməsi ilə təmin olunan normaları həyata keçirməli olan hüquq mühafizə orqanlarının işi iflic vəziyyətinə düşmüşdü.

DQMV (Dağlıq Qarabağ Muxtar Vilayəti) adlı qurum yarandığı gündən vilayət prokuroru həmişə erməni olmuşdu. Axırıncı erməni prokuror Arkadi Babayan artıq öz erməni xislətini gizlətmirdi. O, hətta DQMV sovetinin sessiyasında Dağlıq Qarabağın Ermənistan SSRə birləşdirilməsi barədə antikonstitsion qərarın lehinə səs vermişdi.

Azərbaycan rəhbəliyində separatizmə qarşı qəti mübarizə tədbirlərini ilk olaraq Respublika prokuroru İlyas İsmayılov həyata keçirdi.

Belə ki, İlyas müəllim 1988-cı ilin fevral ayında Stepanakertdə (Xankəndi) DQMV-nin rayon şəhər prokurorlarının və ətraf rayonların - Kəlbəcər, Ağdam, Füzuli, Ağcabədi, Laçın, Qubadlı rayonlarının prokurorluğunun əməkdaşlarının iştirakı ilə müşavirə keçirdi.

İ.İsmayılov müşavirədə separatizmi kəskin tənqid etdi.

Bu hərəkətləri SSRİ və Azərbaycan Respublikası konstitusiyasının cinayətkarcasına pozulması kimi xarakterizə etdi. Bu konstitusiya pozuntularının qarşısının alınmasında qanunların və əsas qanun olan Konstitusiyanın icrasının təmin olunmasında prokurorluq orqanlarının müqəddəs vəzifəsindən danışdı. Öz çıxışında İ.İsmayılov vilayətin prokurorluq orqanlarının baş verən separatçı hərəkətlərin qarşısının alınmasında, bu konstitusiyaya zidd hərəkətlərin təşkilatçılarının mütləq məsuliyyətə alınmalarını tələb etdi. Vilayət, rayon (şəhər) prokurorlarını bir-bir ayağa qaldıraraq onlardan müəyyən edilmiş vəzifələrini başa düşüb-düşmədiklərini soruşdu. Onlar öz vəzifələrini düzgün başa düşdüklərini və onları layiqincə yerinə yetirəcəklərini vəd etdilər.

Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi haqqında Ermənistan SSR Ali Sovetinin qərarının SSRİ Ali Soveti tərəfindən ləğv edilməsi üçün, SSRİ Baş Prokurorluğuna rəsmi təqdimat verdi. SSRİ Baş Prokurorluğunun bu məsələyə ciddi yanaşmadığını görən İ.İsmayılov yenə karyerasını zərbə altına qoyaraq, kollegiya iclaslarının birində, SSRİ Baş prokurorluğu rəhbərliyinin bu sahədə fəaliyyətsizliyini tənqid etdi.

...Müşavirədən bir neçə gün sonra İ.İsmayılov həmin vaxt Respublika prokurorluğunun şöbə rəisi İ.Əsgərovla Yerevan şəhərinə getdi. Ermənistan SSR prokurorluğunda bu məsələ ilə bağlı kollegiya iclası keçirildi. Kollegiya iclasında, hətta, bəzi çıxışlarda iki xalq arasında düşmənçilik yaratmamaq üçün Dağlıq Qarabağın Ermənistana birləşdirilməsinin müsbət hal olması barədə fikirlər də səsləndi. İ.İsmayılov burada da öz çıxışında qətiyyətlə bildirdi ki, Azərbaycanın ərazi bütövlüyünün pozulmasından söhbət gedə bilməz. Əgər iki xalqın dostluğunu istəyirsinizsə, onların Azərbaycanın tərkibində - Dağlıq Qarabağ vilayətində dostcasına yaşamasını təmin etməliyik.




Müşavirədə söz verməlirinə baxmayaraq DQMV-də fəaliyyət göstərən prokurorluq əməkdaşları separatçıları dəstəkləməyə davam edirdilər.

1988-ci ilin mart ayının 14-də Respublika Prokurorluğunun geniş kollegiya iclası keçirildi. İ.İsmayılovun təklifi ilə kollegiyanın qərarına əsasən vilayət prokuroru A.O.Babayan və Martuni rayon prokuroru İ.R.Saakyan tutduqları vəzifələrindən çıxarılaraq prokurorluq orqanlarından xaric olundular. Vilayət prokurorunun müavini K.A.Sarkisyan, Hadrut rayon prokuroru R.A.Davidyan tutduqları vəzifələrdən azad edildilər. İ.İsmayılov Moskva havadarlarının dəstəyinə arxalanan separatçı vilayət rəhbərlərinin bu qərarın yerinə yetirilməsinə hər cür müqavimətini dəf edərək, icrasını təmin etdi.

Belə ki, 1988-ci ilin mart ayında kompromis variant kimi vilayət prokuroru vəzifəsinə Valeri Vladimiroviç Vasilenko təyin edildi (vilayət prokurorunun işdən azad edilməsi və vəzifəyə təyin edilməsi SSRİ Baş prokurorunun səlahiyyətinə aid idi). Qeyd etmək yerinə düşər ki, yarandığı tarixdən ilk dəfə idi ki, vilayət prokuroru qeyri erməni millətindən idi. Eyni zamanda vilayət prokurorunun müavini vəzifəsinə sonralar bir neçə rayonda prokuror işləyən Mübariz Bayramov gətirildi.

**Haşiyə:** Moskvanın nümayəndəsi kimi V.Vasilenkonun ədalətli mövqe tutmasından çox şey asılı idi. Bu təyinatdan sonra baş tutan kollegiya iclaslarından birində həmin dövrdə Respublika prokurorluğunun Ümumi Nəzarət şöbəsinin rəisi işləyən İsaxan Vəliyevin təklifi ilə Masallı rayon prokuroru Əzizağa Həsənovun, Kirovabad (Gəncə) şəhər Gəncə rayon prokuroru Mahmud Nəbiyevin, Əli-Bayramlı (Şirvan) şəhər prokuroru Eldar Sultanovun iştirakı ilə V.Vasilenkonun şərəfinə verilən ziyafətdə Ona Qarabağ həqiqətlərini çatdırmağa çalışırdıq. V.Vasilenko, öz növ-bəsində, Azərbaycanın haqlı olduğunu, qanunların düzgün tətbiq olunmasına çalışacağını əminliklə bildirdi. Təsadüfi deyil ki, ermənilər V.Vasilenkonu Azərbaycana rəğbətdə təqsirləndirir, ona silah tuşlamaqdan belə çəkinmirdilər Bu səbəbdən V.Vasilenko ailəsini Xankəndidə deyil, Şuşada yerləşdirmişdi.

1990-cı ilin avqustunda İlyas İsmayılov Respublika prokuroru vəzifəsindən gedəndən sonra ermənilərin şikayətləri bəhanəsilə V.Vasilenko da vəzifəsindən kənarlaşdırıldı.

İlyas müəllim bütün erməniləri deyil, separatçıları Azərbaycanın düşməni hesab edirdi. Doğrudan da, erməni millətindən olan bir çox insan özlərini Azərbaycan vətəndaşı hesab edir, separatçılara qoşulmurdu. Məsələn, Milli qəhrəmanımız Əlif Hacıyevin komendant olduğu Xocalı aeroportunun rəisi erməni qadın idi. Bu qadın vəzifəsini vicdanla yerinə yetirir, milliyyətindən asılı olmayaraq, hamıdan qaydalara əməl etməsini tələb edir, ”saqqalıları” aeroportun ərazisinə buraxmırdı. Bir gecə ermənilər həmin qadının evinə tank vuran qumbara ataraq, iki azyaşlı uşağı və əri ilə birlikdə öldürdülər, evini də yandırdılar.

### *O, qorxmaz və cəsarətli idi...*

İlyas müəllim müşavirədən əvvəl DQMV Partiya Komitəsinin binasında ”Təşkilat Komitəsinin” rəhbəri V.Polyaniçko ilə görüşdü. Hərbçilərin mühafizəsi altında olan V.Polyaniçko vilayət prokurorluğuna BTR-lə getməyi təklif etsə də, İlyas müəllim piyada getməyi qərarlaşdırdı. Şahidlərin dediyinə görə, İlyas müəllim üzlərini kin-küdurət bürümüş ermənilərin yanından keçərkən hamısı ayağa qalxırmış. Həmin dövrdə tam əminliklə demək olar ki, Dağlıq Qarabağda yalnız prokurorluğun hakimiyyəti qalmışdı.

Qasım İsmayılov (indiki Goranboy) RPK-nin birinci katibi işləmiş Əsgər Məmmədovun dediklərindən: ”İlyas müəllim 1990-cı ilin fevral ayında da rayona gəldi. Həmin vaxt erməni separatçıları qonşu Şaumyan kənd (indiki Ağcakənd) rayonunda raykom katibini girov götürmüşdülər. O, təhlükəyə baxmayaraq Şaumyan kəndə getdi. Toplaşmış insanların bir çoxu azğınlaşmışdılar. Hətta bizə tərəf daş-kəsək atanlar da var idi. Buna baxmayaraq, İlyas müəllim kütlənin içərisinə girdi və onlarla xeyli söhbət edib, qanun pozuntusunun yolverilməz olduğunu izah etdi”.

**Haşiyə:** Digər rəhbərlərdən fərqli olaraq İlyas müəllim insanlarla dialoqa girməkdən çəkinmirdi. Onda insanları inandırmaq, qanunlara hörmət etmək, qanun pozuntularından çəkindirmək qabi-liyyəti çox yüksək idi. Əzəmətli və vüqarlı duruşu, cəsarətli və inamlı danışığı ən çılğın insanları da ram edirdi.

Şahidi olduğum iki hadisəni danışmaq istəyirəm.

6 dekabr 1989-cu ildə Cəlilabad Rayon Partiya Komitəsinin 1-ci katibi Ələsgər Qocamanov və milis rəisi Mətləb Rzayev mitinqçilərin tələbi ilə istefa verdilər. 13 sentyabr 1989-cu ildən 3 ay ərzində davam edən aramsız mitinq və qarşıdurmalardan təngə gəlib, mən də istefa verdim və İmişliyə, evimizə gəldim. Axşam saat 10 radələrində məni telefona çağırdılar. Respublika prokuroru İlyas İsmayılov idi. Ona məlumat vermədən qərar qəbul edib, postumu tərk etməyə görə məzəmmət edəcəyini düşündüyüm halda, İlyas müəllim qayğılı səslə baş vermiş hadisəni soruşdu. Mən hadisəni müfəssəl danışıb, öz missiyamı başa vurduğumu və artıq işləmək istəmədiyimi bildirdim. İlyas müəllim dedi:

**- Cəlilabaddan MK-ya xeyli adam gəlib, sənin qayıtmağını istəyirlər. Sabah günorta mənim yanımda olarsan.**

Səhərisi günü saat 16 radələrində İlyas müəllimin qəbulunda oldum. İçəri girən kimi durub mehribanlıqla əl uzadıb görüşdü və məni pəncərə ağzına gətirdi. Aşağıda 30-40 nəfər şəxs əllərində plakat, İlyas müəllimin istefasını istəyirdi. O, sakit tərzdə əlini MK binasına tuşlayaraq: - Oradan göndəriblər, - dedi. Sonra aşağı düşüb, mitinqçilərin qarşısına çıxdı. İlk sözü bu oldu ki, o plakatın birində yazmısınız ki, ”Qolçomaq oğlu İsmayılov”, bildirirəm ki, atam milis işçisi olub və mən körpə olarkən, cinayətkarlarla atışmada həlak olub. Mitinqçilər həmin plakatı dərhal yığışdırdılar.

Sonra İlyas müəllim aksiyaçıları iclas zalına dəvət edib, iki saata yaxın onlarla söhbət etdi. İlyas müəllim suallara elə məntiqi cavab verirdi ki, insanlarla elə danışırdı ki, sanki onları illərdi tanıyırdı. Aksiyaçılar səhvlərini başa düşüb, razı halda dağılışdılar.

**İlyas müəllim bu hərəkəti ilə xalqla dialoqa girməyin nümunəsini göstərirdi. O, yenə məni yanına dəvət edərək bildirdi ki, sabah Mirağa Cəfərquliyev, DİN-nin müavini Nurəddin Yusifovla birlikdə Cəlilabada gedəcək. Sən də iş yerində ol. Mən baş üstə deyib, səhərisi günü Cəlilabada qayıtdım.**

**(ardı var)**

---

### *Psixoloq: “Heç bir söz, geyim və fikir ayrılığı bir insanın...”*

**Mingəçevirdə toyundan bir neçə gün sonra 19 yaşlı Ləman Məmmədli intihar edib. Ləmanın atası Murad Bayramov mətbuata açıqlamasında bildirib ki, söz-söhbət gəlinlik paltarı üstündə olub. Onun sözlərinə görə, Ləmanın nişanlısı və qayınanası onun açıqsaçıq gəlinlik geyindiyini əsas gətirərək söz söhbət yaradıblar. Buna dözməyən Ləman isə canına qıyıb.**



Məsələylə bağlı Adalet.az-a danışan psixoloq Zeynəb Əyyubova deyib ki, bəzən bir söz, bir baxış, bir tənə bir gəncin ruhunu parçalayır.

Onun sözlərinə görə, xüsusilə də qız övladları - adət, ənənə, qınaq, ”ayıb olar” çərçivəsində - öz seçimlərinə, hisslərinə, hətta geyimlərinə görə mühakimə olunurlar:

”Halbuki ailə o yer olmalıdır ki, orada insan qorxusuz, təzyiqsiz, sevgiylə qəbul edilsin. Bir gəlinlik, bir söz, bir fikir uğrunda çıxan mübahisə, bəlkə də, kənardan cüzi görünür. Amma psixoloji gərginlik, təzyiq və təhqir bəzən ən güclü insanı belə sındıra bilir. Depressiya, özünə qapanma, utanc və ümidsizlik - bunlar birdən yaranmır. Aylarla, bəzən illərlə yığılan duyğular bir gün partlayır. Burada günahkar axtarmaqdan çox, dərs çıxarmaq vacibdir. Biz uşaqlarımıza ”nə deyərlər” qorxusu yox, ”sən dəyərlisən” inancı verməliyik”.

O bildirib ki, biz cəmiyyət olaraq ”ayıb” sözünü deyil, ”anlamaq” bacarığını öyrənməliyik:

**”Hər bir gənc dinlənilməyə, başa düşülməyə, sevilməyə layiqdir. Heç bir söz, geyim, fikir və ya fikir ayrılığı bir insanın yaşamaq haqqından üstün deyil. Psixoloji dəstək, anlayış və empati - bəzən bir həyat xilas edə bilir. Xahiş edirəm, bu cür hadisələri paylaşarkən və müzakirə edərkən sensasiya yox, insanlıq tərəfini düşünək. Çünki hər belə xəbər arxasında bir ata, bir ana, bir evin sükuta qərq olmuş nəfəsi dayanır. Bir insanın ruhu sınanda, onu geri qaytarmaq mümkün deyil. Amma başqalarının sına bilməsi üçün sevgi, anlayış və dinləmə mümkündür”.**

**Vasif ƏLİHÜSEYN**

# Ucalıq düsturu

## yaxud yazıçı-publisist Şəmistan Nəzirlinin əziz xatirəsinə bir neçə söz

**Mən tanınmış yazıçı-jurnalist Şəmistan Nəzirlini çoxdan tanıyırdım. Təbiidir ki, onun dəyərli araşdırmaları və maraqlı məqalələri ilə. Sonra iş elə gətirdi ki, Şəmistan müəllimlə rəhbəri olduğum "Zərdabi-Nəşr"də şəxsən tanış oldum. Qısa müddətdə bu tanışlıq dostluğa çevrildi. İlk söhbətdən onun gözəl tədqiqatçı, ensiklopedik biliyə malik bir ziyalı olduğunu hiss etdim. Hətta, Şəmistan müəllimin sonrakı kitabları bizim nəşriyyatda çap olundu. Şahid oldum ki, Şəmistan Nəzirlinin biri-birindən oxunaqlı araşdırmaları maraqla qarşılanırdı.**

Azərbaycan ədəbiyyatı tarixininin zənginləşməsində böyük xidmətləri olan Firudin bəy Köçərli və Mirzə Hüseyn Əfəndi Qayıbov ilə bağlı apardığı tədqiqatlar, ərsəyə gətirdiyi kitablar qiymətli sənət əsərləridir. Eləcə də, onun görkəmli sərkərdələrimiz Səməd bəy Mehmandarov, Əliağa Şıxlinski, İbrahim ağa Vəkilov, Həbib bəy Səlimov, Yadigarov qardaşları və digər şəxsiyyətlər haqqında yazdığı kitabların hər birisi qiymətli tarixi əsərlərdir. Cəfakeş tədqiqatçı Şəmistan Nəzirlinin tədqiqatlarına nəzər salanda heyrətlənməyə bilmirsən; İlahi, başı yüz qovğalar çəkən bu xalqın nə qədər işıqlı insanları, qüdrətli sərkərdələri, sücaətli generalları olub?! Qəribə tale yaşayan bu generallarımızı arayıb-axçayıb üzə çıxarmaq isə əsl qəhrəmanlıqdır, əsl qeyrət işidir.

Hələ tələbəlik illərindən Şəmistan Nəzirlini müxtəlif tarixi kəsimlərdə hissə-hissə parçalanmış, aysberq kimi əriməyə məcbur edilmiş, zaman-zaman fəlakətlərlə üzləşmiş Azərbaycanın taleyi çox maraqlandırırdı. Belə bir sual onu çox narahat edirdi: "Niyə bu işıqlı ziyalıların kimliyi, onların qaranlığa pünhan qalan işləri üzə çıxarılmayıb"? Bu və ya digər sualların cavabını özü tapmağa çalışdı və qolunu çırmayıb yola çıxdı.

Yazıçı-publisist Şəmistan Nəzirli saralmış, toz basmış arxiv sənədlərindən, Qori Müəllimlər Seminariyasının arxivindən və məzunlarının söhbətlərindən, eləcə də seminariyanın müəllim və seminaristlərin saxlancında olan sənədlərdən, onların xatirələrindən, cünglərdən istifadə etməklə Azərbaycan xalqının maarif tarixinin qaranlıq səhifələrini obyektiv şəkildə tədqiq etmişdir.

Şəmistan Nəzirli, əgər belə demək mümkünsə, əlinə dəmir əsa alıb, ayağına dəmirdən çarıq geyinərək Rusiya, Gürcüstan və Azərbaycan arxivlərində uzun illər tədqiqat aparmış və onun gərgin əməyi sayəsində Azərbaycan mədəniyyəti və hərb sənəti tarixinin qaranlıq səhifələrinə ayna tutulmuşdur. Onun uzun müddətli araşdırmaları nəticəsində Azərbaycan mədəniyyəti və hərb sənəti tarixində yeni səhifələr açılmışdır.

Təkcə onu deyə bilərik ki, görkəmli tədqiqatçı Şəmistan Nəzirli əsl Azərbaycan ziyalısı kimi bütöv həyatını təmənnasız olaraq xalqına sərf etmişdir. Onun biri-birindən maraqlı tədqiqat əsərləri hər bir soydaşımızın stolüstü kitabıdır. O, Azərbaycan hərb tarixinin və Səməd Vurğun ömrünün araşdırıcısıdır. Hər iki sahədə o, silsilə əsərlər yazmışdır.

Şəmistan Nəzirlinin maraqlı, tarixi faktlarla zəngin olan əsərlərindən biri "Qoridən gələn qatar" povesti Qori və Qazax seminariyalarının fəaliyyətindən bəhs edir. Əsərdə 1918-ci ildə çox böyük əziyyətlər hesabına seminariyanın Qoridən Qazağa köçürülməsində müstəsna xidmətləri olan maarifçi-ziyalı Firudin bəy Köçərlinin fəaliyyəti ön plana çəkilir.

Bu əsəri oxuyana kimi hələ heç kəs bilmirdi ki, (elə indi də bəziləri bilmirlər) Zaqfqaziya Müəllimlər Seminariyasında oxuyan azərbaycanlı uşaqlar tez-tez manelərlə qarşılaşırdılar. Belə ki, orda çalışan erməni əsilli müəllimlər azərbaycanlı uşaqlara qarşı amansız münasibətdə olur, onlara qarşı qeyri-etik hərəkətlər edirdilər. Xalq yazıçısı İsmayıl Şıxlı (O da seminarist idi) sözügedən kitabda yazır ki, 1902-ci ildə İrəvanda işləyən qatı irticaçı, şovinist Miropoyev Qori Seminariyasına direktor təyin olunmuşdur. O, seminaristlər qarşısında çıxış edərkən deyirdi ki, mən sizə sülh və məhəbbət gətirmişəm. məni sevməyinizi xahiş edirəm.

Arxiv sənədləri, ayrı-ayrı seminaristlərin xatirələri göstərir ki, Miropoyev sülh və məhəbbət yox, seminariyaya çaxnaşma gətirib. Əvvəlki illərdə seminariyada müəllim və tələbələrin fikri-zikri yaxşı təhsil almaq olubsa, Miropyev dövründə araqarışdırma, milli ayrıseçkilik-adamgüdmə kimi pedaqoqa yaraşmayan mənfi keyfiyyətlər güclənib. Direktor Miropyev seminaristləri polis nəzarətində, kazarma rejimində saxlamağı daha çox üstün tutmuşdur. Xüsusilə, bizim Azərbaycan şöbəsinin üstündə polis nəzarəti güclü olmuşdur.



Şəmistan müəllim İsmayıl Şıxlı ilə söhbətinin bu yerində deyib ki, mən seminariyanın arxivində işləyəndə belə bir fakta rast gəldim; 1912-ci ildə müəllim Salomon Davıdoviç Ter-Arutyunovu Azərbaycan şöbəsinin bir seminaristi boğub öldürüb. Nə qədər axtardımsa da, səbəbini öyrənə bilmədim.

İsmayıl Şıxlı həmin hadisəni belə izah edib:

-Müəllimə yaraşmayan pis və nalayiq sifətlərin hamısı Ter-Arutyunovda varmış. Öcəşkən, acıdil və hətta Miropoyevdən də qatı millətçi, şovinist Salomon Ter-Arutyunov bizim Azərbaycan şöbəsinin uşaqlarını qarabaqara izləyirmiş. O, hər addımbaşı uşaqları "tatar", "vəhşi asiyalı" sözləri ilə təhqir edirmiş. Ter-Arutyunovu Borçalı mahalından Mustafa adlı bir seminarist öldürüb. Səhv etmirəmsə o, Sadaxlı kəndindən olub.

Bir gün səhər ibadətinə getməyən Mustafanı o, bərk hədələyib. Mustafa kilsə ibadətinə getmək əvəzinə qaçıb ayaqyoluna girir. Ordan çıxan seminarist Ter-Arutyunov qovmağa başlayır. Mustafa üzüaşağı seminariyanın bağına tərəf qaçır, o da dalınca qovur, tutub döymək istəyir. Mustafa bağın alt yanındakı dərəyə enir, gözü qızmış Ter-Arutyunov da dalınca gəlir. Dərəyə enən seminarist görür ki, buralar sakitlikdir, nə gələn var, nə də gedən. Ter-Arutyunovla əlbəyaxa olur. Cana doyan Mustafa onu boğub öldürür...

Bu cür hadisələr Şəmistan Nəzirlinin zəhməti hesabına üzə çıxarılb ictimaiyyətə çatdırılmışdır. Ona deyək ki, hörmətli tədqiqatçının nəzərə çatdırdığı bu olay intiqam üçün deyil, yaddaş üçündür.

Şəmistan Nəzirli həm də güclü ensiklopedik biliyə malik idi. O, Azərbaycan tarixii, ədəbiyyatını, coğrafiyasını çox gözəl bilirdi.

Bir neçə gün bundan əvvəl son mənzilə yola saldığımız hörmətli Şəmistan müəllimi düşünəkən şairlərimizdən birinin aşağıdakı misraları yadıma düşdü:

*Ölərkən dünyada bir iz qoyana,*
*Ellər yaxşı deyir: ölüm-itim yox*
*O zaman nə yas tut, nə də ağla çox...*

Yazıçı-publisist Şəmistan Nəzirlinin ağır zəhməti hesabına arxiv materialları əsasında yazdığı əsərlər ona xalq məhəbbəti qazandırmışdır.

**Elman Qasımov**
**Azərbaycan Yazıçılar və Jurnalistlər birliyinin üzvü,**
**Zərdabi Nəşr MMC-nin direktoru**



# Qaranlığın qənimi Zemfira Məhərrəmli

**İmza var ki, oxuyursan, müəllifi tanımağa çalışırsan, bir obraz yaradırsan öz aləmində. Mən adətən illər öncə yaşayan müəlliflərin də həyat tərzi, şəxsiyyəti haqda məlumat toplamağa çalışıram. İmza da var ki, müəllifi görmək, tanımaq imkanın olur və sonra, tərifləyənlər olsa belə, oxuya bilmirsən. Məni davranışları, danışıqları, üzlərindəki ifadə ilə imzasından uzaqlaşdıran müəlliflər var.**

O isə fərqlidir. İmzasını görəndə sevinirsən, qaranlıqda işıq tapan kimi. Özünü göründə insanları sevirsən, insanlığı görən kimi. Əslində belədir Zemfira Məhərrəmli. Yazıları, yeni yazıçı dili aydın, anlayışlı, şirin özü kimi. Mən heç, dünyaca məşhur olsalar da, insanları bədbəxt olduqlarına inandırmağa yönləndirən, həyatdan bezdirən əsərləri, müəllifləri sevmədim. Hər kəsin işığı olmalıdır, onu paylaşmalıdır. Əgər bu kəs həm də yazı adamıdırsa, bu onun borcudur, həm də istedadıdır. Məsələn, Vüqtor Hüqo "Səfillər"ində səfilliyin, insan ağrılarının alt qatınacan gedib. Amma əsərdə həyata, yaşamağa necə bir sevgi var, inam var. Təkcə Javerin intihar etməsi ədalətin, mərhəmətin, ləyaqətin-insanlığın ucalığıdır. Əsərin əvvəlində yepiskop Mirielin Jan Valjana dediyi "siz artıq xeyirin ixtiyarındasınız" sözləri əsərin bütün bədxahlarının məğlubiyyətidir.



Həyat-yaşam asan deyil, problemlər, çətinliklər, ağrı-acılar olur. Yazıçının ustalığı işığı tapmağa kömək etməkdir. O işığı göstərə bilməkdir. Zemfira Məhərrəmli məhz belədir: özü də, sözü də işıqpaylayandır. Sevimlidir, sevilendir, sevgi doludur. Öz yeri var yaradıcı aləmdə. Bu yeri zəhməti, istedadı, yaratdıqları ilə tutub.

Zemfira xanım addım-addım gəzib bütün yaradıcılıq yollarını, bütün mərhələrindən keçib. Yəni pillə-pillə yüksəlib. Bakı Dövlət Universitetini fərqlənmə diplomu ilə bitirib əmək fəaliyyətinə müxbir kimi başlayıb. İndi isə mən tələbə həyatından sonra müxbir kimi çalışmağa başlayan pedaqoq alim, yazıçı, publisist Zemfira xanımdan danışıram. Bu illərdə o, böyük bədii, elmi, publisist söz xəzinəsi yaradıb. Baxdığım son tamaşa Zemfira Məhərrəmlinin son əsərlərindən olan "Ümid işığı"dır. Tamaşaya baxanda mövzusundan çox əsərin verdiyi mesajı düşündüm. Adi baxışla mühakimə yürütsək, gənclərin dolaşıb qaldıqları məhəbbət mövzusudur. Amma diqqətli oxucu, tamaşaçı, valideyn, vətəndaş, insan kimi düşünsək bir pedaqoq yazıçının bizə demək istədiyi məsləhətdi: ailədə qarşılıqlı anlaşma mühümdür. Uşaqlara yalnız övlad kimi baxmayın-onların hər biri ayrı fərddir, şəxsiyyətdir. Onlarla dost olun. Sirdaş olun. Sizinlə bölüşsünlər. Kənarda özlərinə sirdaş axtarıb, daha böyük səhvlərə getməsinlər. Zemfira xanımın çox yazılarında bunu izləyirsən. Hadisələrə, həyata münasibəti yaradıcı olsa da, pedaqoq yazıçı olmaya da bilər.Amma bir söz adamının, yazıçının pedaqoq olması vacibdir. O öz yazılarında mütləq cəmiyyətə -insanlara doğruya üz tutmağı, problemlərə düzgün yanaşmağı, sevinməyi bacarmağı və s. kimi mesajlar ötürməlidir. Məhz bunu bacarır Zemfira Məhərrəmli. Onun dissertasiya mövzusu da diqqətimi çəkdi. Jurnalistika fakultəsinin məzununun "İbtidai məktəb və məktəbəqədər tərbiyə" jurnalında tərbiyə problemi" mövzusunda müdafiə etməsi də maraqlı oldu mənimçün. Bu elmi tədqiqat işinin pedaqogikaya və jurnalistikaya nəzəri yenilik gətirən bir əsər kimi qiymətləndirilməsi də təsadüfi deyil. Bu fərqlilik onun yazılarında hiss olunur. Onun publisitikasında, hekayələrində, ümumilikdə yaradıcılığında bir öyrətmən duyumu, təhlili, yanaşması var. Məsələn, "12 yaşın sevinci" kiçik bir hekayədir. Bədbəxt bir ailənin kədərli həyat hekayəsidir. İçki aludəçisi ata, xəstə ana və bu ağır yükün altında böyüyən uşaq. Bu bədbəxtliyi necə çözür yazıçı? Qələbə ilə! Pula ən çox ehtiyacı olduğu vaxtda 12 yaşlı oğlan zorakılığa məruz qalmış gənc qızın bahalı telefonunu tapır. Telefonu sahibinə qaytarmaqla bir ailəyə sevinc yaşatması onun içində olan saf duyğuların, dürüstlüyün, doğrunun, sevginin qələbəsidir. Bu qələbə sevincini 12 yaşlı oğlan bir ailəyə yaşadır və özü də yaşayır. Qızın anası çoxlu hədiyyələrlə məhz oğlanın doğum günündə onlara gəlir, onun alicənablığından, gözəl tərbiyə görməsindən söz edir. Və bu zaman hekayənin əsas mahiyyəti aydın olur: Oğlu haqqında xoş sözlər eşidən sərxoş ata ayılır, xəstə ana yataqdan qalxır... Nağıllardakı kimi xeyir qalib gəlir!

Zemfira xanımın ən çox sevdiyim cəhəti onun yazılarında işığın olmasıdır. Onun qəhrəmanlarının oxucuya da yansıyan Ümid işığı var. İnsanın özünü görməsi var. Zemfira xanım deyir ki, hər insan səhv edə bilər, yanlış seçə bilər yolunu. Amma hər insan da öz səhvini görə bilər, öz yanlış yolundan dönə bilər. "Özünüzə baxmağı, özünüzü görməyi bacararsınız" deyir oxucusuna.

Onun yaradıcılığında müxtəlif mövzular, eləcə də Vətənpərvərlik, Qarabağ mövzusu özünəməxsusluğu ilə seçilir. Qələbədən əvvəl də, sonra da bu onun mövzusudur: "Döyüşə qızlar gedir", "Qarabağda savaş var", "Ötür durna qatarı", "40 qız dastanı" və b. nəsr nümunələri bunun göstəricisidir. Zemfira xanım özü təkcə bu mövzuda yazmayıb, həm də bu mövzuda yazan müəlliflərin yaradıcılığına nəzər salıb, təhlil edib və oxuculara təqdim edib. Dəyərli prof. Vaqif Yusiflinin qeyd etdiyi kimi "Z. Məhərrəmli müasir nəsrimizdə, publisistikamızda da Qarabağ həqiqətlərini əks etdirən əsərlər haqqında yazıları ilə mətbuatda çıxış edib və o yazılar heç də faktların sıralanması deyil, Qarabağ ruhunun - Azərbaycançılıq ideyasının nəsrimizdə və publisistikamızda ədəbi hadisəyə çevrilə biləcək nümunələridir". Bu fikir Vaqif Yusiflinin "Bədii düşüncədə Qarabağ" kitabı haqqında yazısındandır.

Onun yaradıcılığının mənəvi yükü çoxdur. Klassik səslənsə də, tərbiyəvi əhəmiyyəti çoxdur. Bütün gözəl duyğuları qoruyan, yaşadan sevgi öndədir. Həyata sevgi ilə dopdoludur özü də, yaratdıqları da. Zemfira xanım ruhən, içdən duyduqlarını yazır. Onun dilinin belə rahat anlaşılması, aydın olması bunun nəticəsidir. Şair, yazıçı, hətta təxəyyülünün məhsulu olsa belə, yazdığını ruhən duymursa, onun dili, demək istədiyi anlaşılmayacaq ki, son illərdə şeiri, hekayəsi, romanı anlaşılmayan, qarmaqarıq fikirlər toplusu təsiri bağışlayan imzalar az deyil.

**Zemfira xanımın özünün dediyi kimi: Deyirlər, hər bir qələm sahibinin həyatı onun sənət, yaradıcılıq taleyinə güzgü tutur, işıq salır". Zemfira xanımın bu işığı var: sevgili, qadın, ana, nənə, yazar kimi. Yaradıcılığı da belə işıqlıdır. Həyatı yaradıcılığına, yaradıcılığı həyatına işıq salır. Bu işığın oxuculara ötürə bilməsi Zemfira xanımın istedadıdır.**

**Bu işıq həmişə qaranlığa qənim olacaq.**

**Kamalə ABİYEVA,**
**şair, publisist**




# BAYAT

№ 59 (919)




# Vaqif İbrahim - 80

## Vaqif İbrahimin sükutla keçən yubileyi

1983-cü il 29 oktyabrda yaşadığı mənzildən Sumqayıt məzarlığına qədər insan axını-izdiham vardı. Sevənləri onu son mənzilə yola salırdı. Üzlərdə kədər, gözlərdə səssiz-səmirsiz göz yaşı... Dilimizdə ona deyə bilmədiyimiz, ürəyimizdə ona olan sevgi, saygı...

26 oktyabrın axşamı idi. Xatırlamıram kim zəng etdi:Vaqif müəllimin getdiyi avtobus yol qəzasına uğrayıb, respublika xəstəxanasındadı. Vəziyyəti ağırdı..

O qəzada bir-neçə nəfər yüngül yaralanmışdı, yalnız o, həyatını itirdi. Tək O...

Bütün gecəni xəbəri eşidənlər, rəhbəri olduğu Respublika Gənc Yazarlar ədəbi birliyinin bir çox üzvləri, yaxınları yatmadı. Onu son dəfə yatdığı otağın pəncərəsində olan iynə boyda yarıqdan gördüm. O görüntü hələ də gözlərimin önündədir. Nə o görüntünü, nə də o kiçik yarıqdan son dəfə gördüyüm adamın böyüklüyünü unuda bilmədim.

Onda cavan idim, çox cavan. Hələ pislərin, pisliklərin necə və neçə olduğundan o qədər xəbərim yoxdu. Yaşadıqca, adamları gördükcə O- Vaqif İbrahim bir az da böyüdü mənim üçün.

O illərdə "Göyərçin" jurnalında məsul katib idi. Nə vaxt getsən, makinada gənclərin şeir və hekayələrini yazdığını görərdin. Yazardı, sonra da aparıb qəzetlərə verərdi. Əslində kiminsə şeirlərini makinada yazmaq onun işi deyildi, amma bilirdi ki, əksəri rayon və kəndlərdən gələn bu uşaqların yazı makinası yoxdu, hardasa yazdırmaqsa, əlavə xərcdir.

Belə idi. Sevqi dolu, qayğı dolu. Hamıya kömək etməyə çalışırdı.

Vaqif İbrahim. 80-ci illərdə ədəbi mühitə gələn çoxunun yaradıcılığında, həyatında onun adı var, zəhməti var, qayğısı var. Çoxu unutsa da...

Dost idi. Qardaş idi. Doğma idi. O həm də şair idi. O illərin ən istedadlı imzalarından biri, bəlkə də birincisi idi. O qədər istedadlıydı ki, bir şeirinə, bir misrasına, bir hekayəsinə görə kimsəni tərifləməkdən qorxmazdı. Çünki hələ 1961-ci ildə, 16 yaşında yazdığı kimi bilirdi ki, adam ilk növbədə özünə cavabdehdi:

*Bu ada cavabdehəm...*
*Özümə cavabdehəm.*
*Ömrümdən düşüb qalan*
*İzimə cavabdehəm...*
*Narahatam hər zaman.*

Şəkidə orta məktəbi bitirdikdən sonra indiki ADNSU-ya (AZİ) qəbul olmuşdu. İxtisasca mühəndis olsa da, uşaqlıqdan ədəbiyyata olan bağlılığı üstün gəlir. Əmək fəaliyyətinə Sumqayıt radiosunda jurnalist kimi başlayır. Sonralar Əli Kərim adına Sumqayıt poeziya klubunun sədri olmuş, "Ulduz" və "Göyərçin jurnallarında çalışmışdır. O, SSRİ- Bolqarıstan "Drujba" jurnalının redaksiya heyətinin üzvü olub. Maksim Qorki adına Ümumittifaq və Azərbaycan SSR Lenin komsolu mükafatlarına layiq görülüb.

Yaratdıqları, elədikləri qısa ömründən böyük idi. Poeziya onun həyatı idi həm də:

*Nə vaxt ki, bir misra yaza bilmirəm.*
*Sanıram qurumuş bir budağam mən.*
*Dərsini bilməyib sinifdə qalmış*
*Ən əfəl, ən tənbəl bir uşağam mən.*

(Kədərli anlarım)

İstənilən mövzu var yaradıcılığında. Hər mövzuda yazılan şeirdə Vaqif İbrahim qələminin, duyumunun, ürəyinin zənginliyi var:

*Yağış yağır*
*Buludun büllur barmaqları*
*görünür pəncərəmdən.*
*Yağış yağır gilə-gilə.*
*Bulud hardan bilib ayrılığımızı*
*kövrəlib belə?*
*Bəlkə külək deyib ona?*
*Yağış yağır...*
*Pəncərəmdə göz yaşlarının əksi,*
*Qulağımda bu yağışda*
*məni gəzən xəyalının addım səsi...*

(Bu yağışda)



Şeirlərini oxuduqca düşünürsən: bir şair ağacı, yarpağı, yağışı, sinif otağını, məzarlığı, insan qəlbini, müharibənin dəhşətlərini və s...belə görə bilir? Elə bil bu gün üçün yazıb vətən mövzulu şeirlərini.

*Vətən sevgisini sözlə deməyi*
*Ar bildi özünü oda atanlar,*
*Ancaq bu Vətəni necə sevməyi*
*Bizə ölümüylə göstərdi onlar!...*

Sonra düşünürsən ki, axı o Vaqif İbrahimdir. İstedadlı, Sakit, təvazökar, alicənab, mədəni, əxlaqlı... Vaqif İbrahim.

30 sentyabr 1945-ci ildə Şəkidə dünyaya gəlmişdi. 1983-cü ildə bu dünyadan köçdü.Yaşasaydı bu il 80 illiyini qeyd edəcəkdi. Yaşasaydı? Belə yazdığıma peşiman oldum. Axı, o yaşayır. Poeziya sevənlər, sözə dəyər verənlər onu yaşadır. Bu sətirləri yazmaq mənim üçün həm də çox üzücüdür. Ağırdır. Onun doğum günləri, hətta yubiley illəri belə sükutla keçir. 80 illiyi də...

Amma sevməsə belə, arxasınca min söz danışsa belə, vəzifədə olan birini, ya necəliyindən xəbərsiz olduğu atasını qəbirdən çıxarıb oxşayan, əzizləyən, bağrına basanlar nə qədər istəsən var.

Niyə sevməyi bacarmırıq? Ürəyimizin sevgi tutumu nə qədərdi görəsən?

Onun 80 illik yubileyinin sükutu qədər...

***P. S.*** 70 illiyində onun latınca "Mən də varam" kitabını hazırladım. Çap etdirdim öz gücümə. Vaqif İbrahim üçün anım günü və kitabın təqdimatını keçirdim. Gələnlər çox oldu. Kitabı alan az. Hətta kitabda xatirələrini verdiyim imzaların da çoxu kitabı götürüb bir kitabxanaya verməyi belə düşünmədilər. Paşa Qəlbinurun 5-10 kitab alıb , gələnlərə hədiyyə etməsini xatırlayıram... Bir də "525-ci qəzet" və "Ədalət"-ə xatirə yazılarını, şeirlərini göndərirdim. Bir-neçə gün ardıcıl bu yazılar gedirdi. Bir daha onlara təşəkkür edirəm. Elə bu yazını verəcəklərinə görə də təşəkkür edirəm.

***P.P.S.*** Vaqif müəllim nəşriyyatın mənzil növbəsində idi. Ailəsinə ikiotaqlı ev verdilər. Bu işdə ehtiramla andığım Tofiq Mahmudun da səyi oldu. İki uşaqla- Rəşad və Aytənlə tək qalan Məlahət xanım övladlarını böyüdə, oxuda bildi çətinliklə olsa da. Bu günə qədər oğlunun ailəsi ilə o kiçik mənzildə yaşayır. Deyir ki, müraciət etmək istəmişəm, amma əvvəl köçkünləri düşünüb, utanırdım. İndi də şəhidlər, qazilər var. Amma bizə də çox çətindi. Vaqifin 80 illiyidir. Görəsən, AYB-yə, prezidentə müraciət etsəm, bir otaqlı da osa mənə mənzil verərlər?"-deyə düşünür. Mən yazmasını məsləhət gördüm. Bilmirəm yazdımı?


Kamalə Abiyeva,
şair, publisist


### NİYƏ GÖRÜŞDÜRDÜ TƏSADÜF BİZİ

*Niyə görüşdürdü təsadüf bizi,*
*Əgər bu ayrılıq vardısa onda.*
*Gərək ayrılaydıq, bir-birimizi*
*Başa düşməyəndə, anlamayanda.*

*Yaxın düşməsəydim sevən könlünə,*
*Səndən ayrılmağa axı nə vardı?*
*Bilirsən, əzizim, o zaman mənə*
*Səni unutmaq da asan olardı.*

*İndi yaşayardım qəmindən uzaq,*
*Gözüm də, könlüm də, qulağım da dinc!..*
*De, nəyə gərəkmiş qəminə ortaq*
*Eniylə uzunu görünən sevinc?*

*Ayrılıq daha çox sarsıdır bizi,*
*Gənclik köç edəndə, yaş ötüşəndə.*
*Çətindir ayrılmaq - bir-birimizi*
*Yaxından anlayıb, başa düşəndə.*

### BURAXAN DEYİLƏM

*Təkəm... Üşüyürəm...*
*Xatirələri*
*Atdım yapıncıtək, çiynimə yenə.*
*Atdım ki, çiynimə, qovum kədəri -*
*Qəlbimdə soyuq da dəyməsin sənə.*

*Sənin də dərd-sərin bəllidir mənə,*
*Bilirəm, ürəyin hicrimlə yanıb.*
*Yoluma nur saçan pəncərən yenə*
*Büllur göz yaşından tumurcuqlanıb.*

*İstədim qəmini mən iki bölüm,*
*Gəlim hüzuruna, ey ömrüm-günüm.*
*Birdən səni gördüm, kövrəldi könlüm*
*Qürbətdən qayıdan qəribə döndüm.*

*...Bir də yem etmərəm dərdə qəlbimi,*
*Buraxan deyiləm səni yanımdan.*
*Çəkdiyim o həsrət bir ağrı kimi*
*Hələ indi-indi çıxır canımdan.*

### KƏDƏRLİ ANLARIM

*Nə vaxt ki, bir misra yaza bilmirəm.*
*Sanıram qurumuş bir budağam mən.*
*Dərsini bilməyib sinifdə qalmış*
*Ən əfəl, ən tənbəl bir uşağam mən.*

*Bir fikri deməyə gecikəndə mən*
*Büriyər könlümü təəssüf, ələm.*
*Özümü dərsə çox gecikdiyimdən*
*Bir küncə qoyulmuş şagird bilərəm.*

*Mən şeir deyəndə məni büsbütün*
*Dinləyən olmasa gizli yanaram.*
*Qoy açıq söyləyim özümü o gün*
*Məktəbdən qovulmuş uşaq sanaram.*

### ŞEİRLƏRİM

*Yenə də ovcumdadır*
*Ömrümün bir gecəsi*
*Sıxıram gecəni mən*
*Sıxıram - vərəqlərə*
*Söz - söz damır şirəsi*
*Sıxacağam -*
*ovcumda qalanadək gecəni.*
*Beləcə ötüb keçən*
*Günlərimin öz sözü*
*Öz səsidir şeirlər*
*Bir az sevinc qarışıq,*
*Bir az kədər qarışıq*
*Sıxılmış günlərimin şirəsidir şeirlər.*

### SƏNSİZ DARIXMIŞAM

*Şəhər evlərinə sığışmıram mən,*
*Beton divarları, de, necə sevim?*
*Çoxdandır yanına yığışmıram mən,*
*Bağışla sən məni, ay ata evim.*

*Yoruldun sən mənə "gəl", "gəl" deməkdən,*
*Tükəndi söhbətin, qurudu arxın.*
*Arxamca boylanıb yol gözləməkdən,*
*Gözün nurdan düşdü,*
*söndü çırağın...*

*Gəlir uşaqlığım, gəlir yadına,*
*Necə oxşayardım çəmən telini.*
*Səsləyib yoruldun,*
*saldın yanına*
*Bacandan yüksələn tüstü əlini.*

*Bilirəm, əlini məndən üzərək*
*Küsüb oturmusan daş üstündə sən.*
*Məni görən kimi, sandım uşaqtək*
*Sevincdən üstümə yüyürəcəksən...*

*Sənsiz darıxmışam, darıxmışam mən,*
*Hasarın boyuma sanki biçilib.*
*Mən qoyub getdiyim o ev deyilsən,*
*Bir az sınıxmısan,*
*Boyun kiçilib...*

*Üfürüb sobanı nəfəsimlə mən,*
*Çoxdan oxşamıram tüstü telini.*
*Odunlar istidən bişən, ləhləyən,*
*İt kimi çıxartmır alov dilini.*

*Qəlbimdə həmişə doğmadır yerin,*
*Səninlə könlümə bir qürur gəlib.*
*Silinib toz basmış pəncərələrin,*
*Elə bil gözünə işıq, nur gəlib.*

*Dəyişib səmtini zaman da sanki,*
*Salıb öz yolunu indi yanından.*
*Bacadan yüksələn tüstü deyil ki,*
*Çəkdiyin həsrətdi çıxır canından.*

### YAŞAMAQ EŞQİ

*Qəbristanlıq...*
*Sinif otağı kimi sakit.*
*Elə bil kimsə sual verib,*
*dinc qoymayıb dilini:*
*-Kim yaşamaq istəyir?*
*Hamı əlini qaldırıb,*
*başdaşına dönmüş əlini...*

Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi

№ 40 (2463) 24 oktyabr 2025-ci il



# XƏZƏR DƏNİZİ ÖLÜR

**Bu gün dünyada çox böyük ekoloji proseslər - quraqlıq və eləcə də atmosferin və təbiətin çirkləndirilməsi ilə üzləşirik. Bütün bu məsələlər birmənalı olaraq insanların öz həyatlarına, yaşam tərzinə, hətta qidalanmaya qədər fəsadlar verir. Başqa sözlə demiş olsaq, təbiətin gözəlliklərini, havasını, dənizini, çayını, suyunu, torpağını çirkləndirən insanlar gec-tez öz cəzalarını elə təbiətin özü tərəfindən alırlar. Bu fikirlə təbii ki, razılaşmayan adamlar da ola bilər. Amma bir şey gün kimi aydındır ki, təbiətə qəsd edən, onun məhvinə çalışan heç bir canlı cəzasız qalmayacaq.**



Xəzər dənizi bizim bəxtimizə düşən gözəl varlıqlardan biridir. Bu dənizin suyu, qumu, balığı, nefti və eləcə də digər sərvətləri ölkəmizin həyatında çox önəmli rol oynayıb. Təsəvvür edin, əgər İkinci Dünya Müharibəsində Azərbaycan nefti olmasaydı çətin ki SSRİ qalib dövlət kimi buna nail olardı. Əlbəttə, bütün bunları ona görə xatırlayırıq ki, 50-60 il bundan əvvəllə müqayisədə bu gün Xəzər dənizinin vəziyyəti, durumu çox mürəkkəbdir. Bunu bir çoxları iqlim quraqlığı ilə izah etsələr də, amma bununla yanaşı digər səbəblər də mövcuddur. Bunu tək biz demirik, bu fikri həm də ekoloqlar, mütəxəssislər səsləndirirlər. Onlar neçə illərdir hay-haray salırlar ki, Xəzər dənizində quruma gedir, suyun tərkibi ekoloji cəhətdən çirkləndirilir, çox təəssüf ki, bu haraya bu günə kimi yetərincə cavab verilməyib.

Düzdür, müəyyən addımlar atılıb, amma bu addımlar Xəzərin problemi ilə bağlı məsələləri heç də həll etməyib. Xəzəryanı dövlətlər - Azərbaycan, Rusiya, İran, Türkmənistan, Qazaxıstan təbii ki, birlikdə bu məsələləri həll etməlidirlər. Bu dövlətlərdən hansı biri Xəzərin mövcud problemi ilə bağlı məsələyə səhlənkar yanaşırsa bu o deməkdir ki, dənizin taleyi doğrudan da çox ağırdır. Xəzər dənizindəki mövcud problemlərlə bağlı Azərbaycan prezidenti cənab İlham Əliyev dəfələrlə beynəlxalq qurumlarda, eləcə də Xəzəryanı dövlətlərin yığıncaqlarında bu məsələləri qabardıb. Cənab prezident bildirib ki, Xəzərin problemini həll etmək tək bir dövlətin işi deyil, bu həm də bütün Xəzəryanı dövlətlərin missiyasıdır. Təbii ki, bu fikirlə Xəzəryanı dövlətlərin başçıları da razılaşıblar. Amma təəssüf ki, razılaşsalar da birlikdə fəaliyyət göstərməkdə bir o qədər də maraqlı deyillər. Məsələn, İran və Rusiya Xəzərə axan bir neçə kiçik çayların qarşısını alıb və ondan öz məqsədləri üçün istifadə edirlər. Bu mənada Araz çayına İrandan axan xırda çayların suyu demək olar ki, əsaslı surətdə bağlanıb. Əlbəttə, bütün bu məsələlər son nəticədə Xəzər dənizinin problemlərinin həllini daha da çətinləşdirir və yeni-yeni çətinliklər üzə çıxarır. Artıq Xəzər dənizində bir çox canlılar ekoloji dəyişikliyə görə məhv olurlar. Heç uzağa getməyək, Xəzərin Azərbaycan sahillərində suitilərin, balıqların məhv olması faktları mövcuddur. Heç kim deyə bilməz ki, bu canlılar elə birdən-bir məhv oldular. Heç kimə sirr deyil ki, bu gün Xəzər dənizinə həm Xəzəryanı dövlətlər tərəfindən, həm də özümüz tərəfimizdən çirkləndirilmiş sular axıdılır. Bu zəhərli sular isə bütün canlıların həyatını məhv edir və onlara artmağa imkan vermir. 10-15 il bundan qabaq Xəzərin sahillərindən beş-altı kilometr dərinliyə daxil olanda ordan qiymətli balıqlar ovlamaq mümkün idi. Amma indi gərək 50-60 kilometr dərinliyə gedəsən ki, bu qiymətli balıqlardan ovlaya biləsən.

Əlbəttə, Xəzərin çox qiymətli və gözəl balıqları olur və o balıqlar da insanların dolanışığına, bir çox halda həyat tərzinə yaşam verib. Amma bu gün bayaq dediyimiz kimi, qiymətli balıqlar sahilə yaxın yerlərdə yaşaya bilmirlər. Çünki həmin yerlər çirkləndirilir və nəticədə o canlılar ya məhv olur, ya da ordan uzaqlaşırlar.

Bu gün də Sumqayıtdan, Hovsandan və bir çox yaşayış qəsəbələrindən Xəzər dənizinə təmizlənməmiş kanalizasiya suları axıdılır. Bu yaxınlarda Hövsan qəsəbəsindən televiziya kanallarının birində süjet göstərildi. Həmin süjetdən də aydın olurdu ki, Xəzər dənizinin yaxınlığındakı təmizləyici kollektorlar yaxşı işləmir, Hövsan quşçuluq fabrikinin, eləcə də yaxınlıqda məskunlaşmış insanların evindən axan kanalizasiya suları təmizlənmədən dənizə ötürülür. Bu proses illərdir davam edir, Xəzər dənizi isə çirklənir. Bir çox əlaqədar qurumlar isə medianın göstərdiyi faktlara barmaqarası yanaşır, problemi həll etmək istəmirlər.

Hər il çimərlik mövsümü gələndə Xəzər dənizinin sahillərindən laborator analiz üçün su nümunələri götürülür. Həmin nümunələr laboratoriya şəraitində analiz olarkən aydınlaşır ki, bir çox çimərliklərdə bakteroloji çirklənmə normadan artıqdır. Bu barədə dəfələrlə Respublika Gigiyena və Epidemiologiya Mərkəzi əhalini maarifləndirib. Bildirib ki, ekoloji çirkləndirmə normadan artıq olduğu üçün Şıx, Sahil, Hövsan, Türkan, Novxanı, Sumqayıt çimərliklərində çimmək qadağan edilib. Amma buna baxmayaraq, yenə bir çox insanlar həmin çimərliklərə gedib və dənizdə çimiblər.

Söhbət heç də kiminsə çimərliyə getməsindən və orda çimməsindən getmir. Çünki adını çəkdiyimiz o çimərliklərdə olarkən neçə-neçə insan bağırsaq infeksiyasına yoluxub. Söhbət ondan gedir ki, bu gün Xəzərin çirkləndirilməsi yenə davam etməkdədir. Yenə Bakı şəhərində və eləcə də onun qəsəbələrində təmizlənməmiş kanalizasiya suları dənizə axıdılır. Bəs, bu nə deməkdir? Bu təbiəti, dənizi məhv etmək demək deyilmi?

**Bu gün Xəzər dənizi ölür desək, heç də yanlış mövqe tutmarıq. Çünki bu dəniz bir tərəfdən quruyur, digər tərəfdən amansızcasına çirkləndirilir. Bakının elə yeri var ki, orda dəniz yüz metrə yaxın quruyub. Düzdür, burda iqlim dəyişikliyinin də böyük payı var. Amma gəlin onunla razılaşaq ki, elə şeylər var insanın öz əlindədir, yəni Xəzər dənizinə axıdılan o çirkab sular birmənalı olaraq kollektordan keçməli, təmizlənməli, zəhərli tullantılar ayrılmalıdır. Bəlkə bunlar və bu addımlar Xəzərin ölümünü heç olmasa bir qədər ləngidər.**

**Emil FAİQOĞLU**

AZƏRBAYCAN RESPUBLİKASININ
MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ



*Əntiqə Kərimzadə*

# Nağılvari film və ya "Sehrli xalat"

**Azərbaycan kino tarixində özünəməxsus yer tutan filmlərdən biri də gənclərin və yeniyetmələrin həvəslə izlədiyi "Sehrli xalat" filmidir. Filmin qəhrəmanlarının həyat hekayələri, filmdə baş verən hadisələr və o məşhur "xalat"ı geyinərkən istifadə olunan kəlmələr əlbəttə, bir çoxlarımıza maraqlıdır.**

**Məşhur illüzionist İo Kionun köməyi ilə uşaqlar bir növ keçmişə və gələcəyə səyahət etməsi filmin əsas mövzusudur. Həmin "səyahət"də uşaqlar üçün yaşadıqları dövrdən çox, keçmiş və gələcək zaman maraqlı və təəccüblüdür. Filmin əsas qəhrəmanları öz yaşıdları arasında daha çox cəsarətli olan Rəşid və Zərifə olur. Filmdə yalnız bu iki məktəbli həmin "xalat"ı geyinərək keçmişə və gələcəyə səyahət etməkdən qorxmurlar.**

**Onlar uşaq yaşlarında filmə çəkilsələr də aktyor kimi təhsil almırlar. Zərifə (Solmaz Hətəmova) Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin, Rəşid (Azər Qurbanov) isə Azərbaycan Milli Konservatoriyasının məzunu olmağı seçir. Zərifə həyatını müəllim kimi davam etsə də, Rəşid vətəndən uzağa- ABŞ-yə üz tutur və ömrünün sonuna qədər orada yaşayır.**

**Filmin məkan seçimləri də olduqca fərqli təbiətə malik yerlərdir. Bu da zaman dəyişikliyi yaratmaq üçün mühüm amillərdən biridir. Bakının Maştağa kəndi, İçərişəhər, İsmayıllı rayon Cülyan kəndi, Belarusiyanın paytaxtı Minsk şəhəri filmin çəkilişləri üçün uyğun seçilmiş məkanlar idi.**

**Filmin maraqlı anlarından biri də uşaqların "xalat"ı geyinərkən səsləndirdiyi sözlərdir. Hansı ki, sovet uşaqları o kəlmələri ilk dəfə eşidirdilər. Həmin sözlər Sanskrit dilinə mənsub sözlərdir. Sanskrit dünyanın ən qədim dillərindən biridir. "Sehrli xalat"ın tilsiminin sözləri də məhz bu dildəndir:**

**"Amaravati" Svarqanın paytaxtıdır. Bəzi mənbələrdə "ölümsüzlər diyarı" kimi tərcümə olunaraq "cənnət" mənasında da işlənir. "Çandrika" Çandra hinduizmdə ay tanrısıdır. Sözün özü tam formada "ay işığı", "ay parıltısı" mənalarını verir. "Kintamani" çintamani buddizm və hinduizmdə sahibinin bütün arzularını yerinə yetirən sehrli daş və ya kristaldır."Ayravana" tanrı İndranın ağ filinin adıdır, bəzən "Ayravata" kimi də işlənir. "İşvara" tanrı deməkdir. "Çitrakuta" Hindistanın Madhya-Pradeş ştatında hinduist ziyarətgahıdır. Adı "çox möcüzələr təpəsi" kimi tərcümə olunur. Bu saydığımız 6 söz filmdə sanki zamanları idarə edir. Yəni, cəsarətli pionerlər (məktəblilər) bu sözlərlə həmin "xalat"ı idarə edirlər.**

**Film boyu pionerlərin "köməyinə çatan" bu "xalat" Xanın onu geyinməsi ilə öz tilsimini itirir. Və məşhur sehrbaz İo Kio həmin sözlərlə yenidən "xalata" "nəfəs verir". Və beləliklə Rəşid və Zərifə gələcəyə gedirlər. Filmdə keçmişi və gələcəyi görən məktəblilər gördükləri hər şeyi öz yaşıdlarına anlatmağa çalışırlar. Ancaq bütün bunların bir illüziya olduğunu hələ də bilmirdilər Onlar yaşadıqları nağıl kimi həyatdan qopub, reallığı görmək istəmirdilər. Bəlkə xanın yaşadığı bir dövrün gözəlliyi ilə, müasir texnikaların olduğu zamanı birşləşdirmək xəyalı da ağıllarında dolaşırdı Ancaq bütün bunların hamısını bir "Sehrli xalat"la etmək mümkün deyildi...**

## *Yaponiyalı tələbədən maraqlı ixtira*

**Yapon tələbənin ixtirası sosial şəbəkələrdə gündəm oldu.**

Tokioda keçirilən innovasiya sərgisində gənc yapon tələbə maraqlı bir ixtira ilə çıxış edib.

Bu yüksək texnologiyalı alt geyim yalnız qadının partnyoru tərəfindən toxunduqda açılır.

Büstqalterin üzərində biometrik sensorlar və LED işıqlar yerləşdirilib ki, bu da eksklüzivlik və romantik etibarı simvolizə edir.

Tələbənin sözlərinə görə, bu ideya emosional yaxınlığı gücləndirmək və münasibətlərdə razılığın vacibliyini vurğulamaq məqsədi daşıyır. Xüsusilə də insanların getdikcə bir-birindən uzaqlaşdığı müasir dünyada bu cür geyimin vacib olduğunu vurğulayıb.

**Qeyd edək ki, Bəzi tənqidçilər bu ixtiranın "şou" və ya sadəcə "gimmick" olduğunu desə də, digərləri geyim texnologiyasında belə yaradıcı yanaşmanı alqışlayır.**

**Əntiqə**

# *Bu payız Şanlıurfada dünyanın ən qədim Neolit irsini kəşf edin*

**Türkiyənin cənub-şərqində yerləşən Şanlıurfa, minilliklərin sirlərini özündə daşıyan arxeoloji tapıntıları ilə bəşər tarixini işıqlandıran ən mühüm mərkəzlərdən biridir. Burada yerləşən "Taş Tepeler" (Daş Təpələr) bölgəsi - Göbəklitəpə və Karahantəpə kimi dünyanın ən qədim Neolit yaşayış məskənlərini özündə birləşdirir. Bu unikal tapıntılar sayəsində insanlıq tarixinin başlanğıcına dair baxışımız tamamilə dəyişir.**

Payızın sərin və mülayim havası isə bu qədim mədəniyyət beşiyini ziyarət etmək üçün ən ideal vaxtdır. Gəlin, "Daş Təpələr"də son illərin ən diqqətəlayiq kəşflərinə birlikdə nəzər salaq.

Regionun parlayan ulduzlarından biri olan Karahantəpə bu il yenidən dünya arxeologiyasının diqqət mərkəzinə çevrilib. Son qazıntılar zamanı burada insan üzü təsvir edilmiş T formalı sütun aşkar olunub - bu, Neolit dövründə insan fiqurunun ən erkən və birbaşa təsvirlərindən biridir.

İndiyədək Göbəklitəpədə tapılan T formalı sütunlarda yalnız qollar və əllər oyulmuşdu. Bu yeni tapıntı isə insanın üz ifadəsini daşa köçürməsi baxımından tarixdə ilk nümunə sayılır. Sütunun yuxarı hissəsində işlənmiş üz təsviri - iti xətlər, dərin göz oyuqları və enli, yastı burun - Karahantəpədə tapılmış digər insan heykəllərinin üslubuna bənzəyir və o dövrün estetik düşüncəsini əks etdirir.

Bu ilin əvvəlində Kara-



hantəpədə daha bir unikal artefakt tapılıb - dünyanın ən qədim üçölçülü mifoloji kompozisiyası. Arxeoloqlar qırmızı torpaqla örtülmüş, müəyyən ardıcıllıqla düzülmüş obyektlər aşkar ediblər. Bu tapıntı bir növ üçölçülü hekayə kimi insanın mifoloji təfəkkürünü əks etdirir və "Neolit dövrünün əsrin kəşfi" adlandırılır. UNESCO-nun Dünya İrs Siyahısına daxil edilmiş Göbəklitəpə, insanlıq tarixini dəyişdirən ən mühüm arxeoloji məkanlardan biridir. Burada tapılan nəhəng T formalı sütunlar, natural ölçülü, boyalı vəhşi donuz heykəli və divar içərisində yerləşdirilmiş insan fiquru qədim insanların inanc dünyasından xəbər verir.

Bu məkanı ziyarət etmək, sanki on min illər əvvələ - insanın ilk yaradıcı addımlarına səyahət etmək kimidir. Elə buna görə də, hər il yüz minlərlə turist buraya axışır. Yalnız bu ilin ilk səkkiz ayında Göbəklitəpə 497 mindən çox ziyarətçi qəbul edib və Türkiyənin ən çox maraq doğuran arxeoloji məkanlarından birinə çevrilib.

Neolit dövrü irsini dərindən anlamaq istəyənlər üçün Şanlıurfa Muzeyi ideal dayanacaqdır. Türkiyənin ən böyük muzey kompleksi olan bu mərkəz, qədim dövrlərdən bu günə qədər insanlıq tarixinin ardıcıl izlərini təqdim edir. Muzeyin yanında yerləşən Haleplibahçe Mozaika Muzeyi isə yerində qorunaraq nümayiş etdirilən nadir mozaikaları ilə diqqət çəkir.

"Açıq səma altında muzey" adlanan Şanlıurfa yalnız Neolit irsi ilə deyil, həm də zəngin mədəni irsi ilə seçilir. Balıqligöl, Harranın qübbəli evləri, qədim məscidlər və tarixi məhəllələr şəhəri sanki canlı tarix kitabına çevirir.

Şanlıurfa həm də Türkiyənin kulinariya paytaxtlarından biridir. Dadlı kabablar, lahmacun, məşhur çiy köftə və şəhərin simvoluna çevrilmiş quzu ciyəri səhər yeməyi - hər biri səyahətinizi unudulmaz zövqə çevirəcək.

Türkiyə Mədəniyyət və Turizm Nazirliyinin həyata keçirdiyi "Daş Təpələr" layihəsi çərçivəsində 2025-ci ilin qazıntı mövsümü bölgədəki on arxeoloji sahədə davam edir. Buraya Göbəklitəpə, Karahantəpə, Sayburç, Sefertəpə, Harbetsuvan Təpəsi, Gürcü Təpə, Çaxmaq Təpə, Yeni Məhəllə və Söyüt Tarlası daxildir.

**Bu ərazilərdə tapılan üçölçülü heykəllər, daş qablar, muncuqlar və simvolik relyeflər insan yaradıcılığının ilkin səhifələrini göz önünə sərir. Hər bir tapıntı - bəşər sivilizasiyasının doğuluşuna açılan pəncərədir.**

**Sübhan**

# Məsmə Aslanqızı: "Bilərəkdən, ya bilməyərəkdən etdiyin bir günahın varsa..."

**Əməkdar artist Məsmə Aslanqızının sosial şəbəkə hesabında paylaşımı izləyicilərini kədərləndirib.**

Adalet.az bildirir ki, o, həmkarı əməkdar artist Rəşad Bəxtiyarovun dünyasını dəyişməsini özü üçün ağır itki hesab esib:

" İtkinin ağrısı çox pis olur. Sanki daxildən bir hiss səni qaranlıq quyunun dibinə aparır Heç nə eləmək istəmirsən. Heç kiminlə danışmaq istəmirsən. Qolun-qanadın sınıb. Sadəcə çarpayıda uzanıb ancaq tavana baxırsan. İçini çeynəyib parçalayan suallara cavab axtarırsan Bu gün sənin 3-ündür, Rəşad təsəvvür edirsən? Bir yerdə oturub ruhlardan, ölümdən, o dünyanın varlığından, yoxluğundan danışırdıq. Bu gün isə sən ruhun özüsən Elə bilirdik hələ 100 il yaşayacayıq. Amma elə deyilmiş Allah dərga-



hın qapısını üzümüzə nə vaxt açacaqsa, o vaxt da həyata əlvida deyəcəyik Yolun cənnət yolu olsun, əzizim. Bilərəkdən ya bilməyərəkdən etdiyin bir günahın varsa, Allah onu sənə çəkdiyin ağrılara, əzablara bağışlasın. Can Rəşad, güləüz, zarafatcıl Rəşad, heç kimin xətrinə dəyməyən, sadə, mehriban Rəşad... Əlvida..."

Qeyd edək ki, aktyor Rəşad Bəxtiyarov oktyabrın 16-da ağciyər xərçəngindən dünyasını dəyişib.

**Əntiqə**

## *Musa Musayev efiri tək etdi: "Efirlərə gəlməyə son qoymuşam"*



**Musa Musayev "Tarixin bir anı" proqramında gərgin anlar yaşayıb.**

Adalet.az xəbər verir ki, o, aparıcı Tarix Əliyevin "Düşmənniz kimdir" sualına əsəbiləşib və efiri tərk edib: "Həmişə deməişəm ki, mənə belə suallar verməyin. Bu mövzular mənim üçün bağlanıb. Ancaq bəzi aparıcılar sözümü eşitmir, tez- tez məni əsəbiləşdirən suallar verirlər. Kimsə mənimlə düşmənçilik edirsə, mən onu yaradana həvale edirəm. Əgər belə söhbətlər edəcəyiksə, gəlməyəcəm. Belə qalmaqallar yaşanmasın deyə efirlərə gəlməyə son qoymuşam".

**Əntiqə**

## *Mark Quehi "Real"a keçə bilər*

**"Real" "Kristal Pelas"ın müdafiəçisi Mark Quehini transfer etmək istəyir.**

QOL.az xəbər verir ki, bu barədə İspaniya mətbuatı məlumat yayıb. Xəbərdə bildirilir ki, Madrid təmsilçisi 25 yaşlı müdafiəçini komandaya cəlb etmək üçün İngiltərə klubuna təxminən 30 milyon avro təklif etməyi planlaşdırır.

Qeyd edək ki, Quehinin klubu ilə mövcud müqaviləsi mövsümün sonunda başa çatacaq. Lakin "Real" bu zamana qədər gözləmək niyyətində deyil.

Xatırladaq ki, müdafiəçi cari mövsümdə 13 oyuna çıxıb, 1 qol vurub və 2 məhsuldar ötürmə ilə yadda qalıb.

**Sabirabad rayonu Qaratəpə kənd sakini Əhmədov Rəşad Vaqif oğlunun adına verilmiş (reyestr nömrəsi 909013066970, sahəsi 1,31 ha) torpağın plan və ölçü sənədi itdiyi üçün etibarsız sayılır.**


Təsisçi və baş məsləhətçi: Aqil ABBAS
Baş redaktor: İradə TUNCAY

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h
Müxbir hesab: 0137010001994
S.W.I.F.T. Bik: AIIBAZ 2xhesab N: 38070019411100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
Telefon: 538-05-50, 538-51-31. 534-55-98 Faks: 539-80-26
adaletqezeti@rambler.ru
adaletqezeti@mail.ru, adaletqezeti@box.az

Tiraj: 1500
Sifariş: 251
Çapa imzalanmışdır: 23.10.2025